RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 74 (10094) 30 aprel 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Bakı qlobal geosiyasətin ehtiramla qəbul olunan aktorudur



## Avropa İttifaqı üzvü olan dövlətlərin rəhbərlərinin Azərbaycana intensivləşən səfərləri bunu təsdiqləyir

Avropa İttifaqı ölkələri üçün Azərbaycan uzunmüddətli və etibarlı enerji tərəfdaşı statusunu qoruyur. Bu gün Azərbaycanın Avropa İttifaqının 10 üzvünə mavi yanacaq ixrac etməsi mövcud reallıqdır və bu fakt "qoca qitə"nin siyasi dairələrində yüksək qiymətləndirilir. Avropa İttifaqının (Aİ) xarici siyasət rəhbəri Kaya Kallas Lüksemburqda Aİ ölkələrinin xarici işlər nazirlərinin görüşünün yekunlarına dair mətbuat konfransında bildirmişdi ki, Azərbaycanın enerji sahəsində etibarlı tərəfdaş kimi qiymətləndirilməsi təsadüfi deyil. Avropa özünün resurs ehtiyaclarını qarşılamaq üçün rəsmi Bakını ən etibarlı strateji müttəfiq qismində qəbul edir. Xüsusən qitənin enerji təhlükəsizliyi məsələsinin kəskinləşdiyi dövrdə Bakı ilə əməkdaşlıq həm də zəruri seçimdir.

Prezident İlham Əliyev aprelin 27-də Qəbələdə Çexiyanın Baş naziri ilə görüşündə bu məqamı vurğulamış, Azərbaycanın dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasında olduğunu demişdi: "Bunu o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür".

Perspektivdə Azərbaycan Avropa istiqamətində qaz ixracının həcmini də genişləndirməyi planlaşdırır. Bu, bir çox ölkənin sözügedən layihələrdən bəhrələnmək marağını artırır. "Cənub qaz dəhlizi" layihəsi xüsusi çəkisi ilə fərqlənir və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Statistik göstəricilər də bu dinamikanı təsdiqləyir. 2025-ci ildə Azərbaycanın ixrac etdiyi 25 milyard kubmetr qazın 13 milyard kubmetri Aİ ölkələrinə yönəlib. Bu da 2021-ci illə müqayisədə təxminən 60 faizlik artım deməkdir.

Qərb ölkələri ilə dinamik şəkildə genişlənən əməkdaşlıq Bakının bütövlükdə Avropa İttifaqı ilə olan münasibətlərinə müsbət impuls verir. Avropa dövlətləri ilə enerji müstəvisində qurulan sıx dialoq siyasi əlaqələrin canlanmasına və tərəflər arasında strateji tərəfdaşlıq bağlarının daha da möhkəmlənməsinə münbit şərait yaradır.

Tərəflər arasında münasibətlər yalnız enerji resurslarının ixracı ilə məhdudlaşmır. Logistika, nəqliyyat dəhlizləri və regional inteqrasiya layihələri də gündəmdədir. Azərbaycanın geoiqtisadi mövqeyi, Şərqlə Qərbi birləşdirən əsas qovşaq funksiyası Aİ üçün xüsusi əhəmiyyət daşıyır. Bu isə Bakı-Brüssel xəttində əməkdaşlığı daha çoxşaxəli və dayanıqlı edir. Xüsusilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) Azərbaycanın qitə üçün logistik əhəmiyyətini daha da artırır.

5

# Beynəlxalq birliyin Azərbaycana yeni baxışı




Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxvektorlu xarici siyasət kursunda ümumbəşəri dəyərlərin və beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin rəhbər tutulması, başqa dövlətlərin ərazi bütövlüyünə və müstəqilliyinə qəsd vasitəsi və münaqişələrin həlli üsulu kimi müharibənin rədd edilməsi, eləcə də bütün dünya xalqları ilə sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu istiqamətdə əməkdaşlıq etmək vəzifələrinin prioritet olaraq müəyyən edilməsi Azərbaycanın qlobal birliyin məsuliyyətli imicini formalaşdırıb. Bəşəriyyətin çətin sınaqlara məruz qaldığı həssas dönəmdə Prezident İlham Əliyevin təşəbbüsləri ələ alması, istər pandemiya, istər vaksin milliyyətçiliyi, istər neoimperialist niyyətlər, istərsə də neokolonializm qarşısında qətiyyətli mövqe ifadə etməsi ölkəmizin beynəlxalq arenada hərəkətverici mövqeyini möhkəmləndirdi. Azərbaycanın Vətən müharibəsində və antiterror tədbirlərində böyük zəfərləri ilə BMT Təhlükəsizlik Şurası və BMT Baş Assambleyasının qətnamə və qərarları başda olmaqla, çoxsaylı beynəlxalq və regional mexanizmlərin qərarlarına məhəl qoyulmayan və cəzasızlıq mühiti presedenti yaratmaqla, ümumbəşəri təhdidə çevrilən işğal amilinə öz gücü və imkanları hesabına son qoyması, eləcə də son iki əsrin həlli faktiki mümkünsüz görünən separatizm amilinin tam şəkildə aradan qaldırılması ölkəmizin paralel olaraq müasir nizam qurucusu obrazını formalaşdıraraq daha da möhkəmləndirdi.

5

# Azərbaycan-Çexiya əlaqələri çoxvektorlu səciyyə daşıyır

Çexiya-Azərbaycan münasibətlərinin institusional bazası kifayət qədər möhkəmdir. 2011-ci ildən fəaliyyət göstərən iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiya bu münasibətlərin institusional əsasını təşkil edir.

2015-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə Azərbaycan-Çexiya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edib. Bu sənəd yalnız siyasi deyil, həm də iqtisadi, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yol xəritəsi rolunu oynayıb. Eyni zamanda beynəlxalq hüququn əsas prinsiplərinə, o cümlədən ərazi bütövlüyünə dəstək bu tərəfdaşlığın



etibarlı olduğunu göstərir.

Azərbaycanla Çexiya arasında əlaqələr müxtəlif istiqamətləri əhatə etməklə çoxvektorlu səciyyə daşıyır. Hər iki tərəf qarşılıqlı maraqları əsas götürməklə münasibətlərin daha da möhkəmlənməsində güclü siyasi iradə nümayiş etdirir və buna uyğun olaraq da əlaqələr genişlənir. Hazırda dünyada izlənilən geosiyasi proseslər fonunda Cənubi Qafqaza maraq əhəmiyyətli dərəcədə artıb ki, bu da təsadüfi deyil. Xüsusilə də Yaxın Şərqdə və Şərqi Avropada müharibələrin alovlanması, Şimal marşrutlarından, Hörmüz boğazından keçidlərin təhlükəli hal alması, sabit məkan kimi Cənubi Qafqazı diqqət mərkəzinə gətirib. Buradan keçən Orta dəhlizin funksionallığının getdikcə artması bunu əyani şəkildə təsdiqləyir. Mühüm məqam isə ondan ibarətdir ki, Azərbaycan regionda proseslərin əsas aktoru qismində çıxış edir. Ölkəmiz uzunmüddətli sabitliyə, nümunəvi təhlükəsizlik mühitinə malikdir.

5

# Polad iradəli qəhrəmanlar

## Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin 27 illik şanlı salnaməsi



Xüsusi Təyinatlı Qüvvələr Ulu Öndər Heydər Əliyevin fərmanı ilə 1999-cu il aprelin 30-da yaradılıb. Azərbaycan Ordusunun ən çevik və yüksək döyüş qabiliyyətinə malik bölmələrindən biri olan XTQ-nin formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri müstəsna rol oynayıb. Bundan başqa, Azərbaycan xüsusi təyinatlıları müxtəlif ölkələrin təlim mərkəzlərində keçirilən kurslarda iştirak edib və dəfələrlə ABŞ, Türkiyə və Pakistandakı yarışlarda yüksək nailiyyətlər qazanıblar.

Xüsusi Təyinatlı Qüvvələrin üzvü seçilmək hüququ hər adama nəsib olmur. Bunun üçün ağır təlimlər, hərbi imtahanlar, iradə nümayişi çox vacib şərtlərdəndir. Həmin qüvvələrin üzvlərinə əlbəyaxa döyüş, dərin kəşfiyyat, düşmən arxasına keçmə, həyatda qalma, mühəndis, atəş, psixoloji, desant, dalğıc, tibbi, asimmetrik döyüş və sair kimi hazırlıqlar üzrə təlimlər keçirilir.

7

# Bakı WUF13 ərəfəsində

## Vaxt yaxınlaşdıqca beynəlxalq tədbirə hazırlıq işləri sürətlənir

Bu il yanvarın 15-də Cenevrədə BMT-nin ofisində WUF13-ə həsr olunmuş brifinq keçirilmişdir. Brifinqə 100-ə yaxın akkreditə olunmuş diplomatik missiyanın nümayəndələri qatılmışlar. Brifinq WUF13-ün əsas məqsədi və məramlarını təqdim və diplomatik dəstəyi təşviq etmək, Azərbaycanın qlobal şəhərsalma gündəmlərini irəli aparmaq üçün əhəmiyyətli platforma rolunu oynamışdır.

5 gün dünyanın diqqətini özünə çəkəcək WUF13-ün yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə zəruri hazırlıq tədbirləri görülür. Azərbaycan Prezidentinin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinin rəhbərliyi altında hazırlıq işləri ardıcıllıqla və yüksək səviyyədə icra olunur.

Sessiyanın keçiriləcəyi günlərdə simsiz cihazların fasiləsiz işini təmin etmək üçün "Radiospektrin İdarə Edilməsi Portalı" istifadəyə verilib. Tədbir zamanı istifadə olunacaq radioelektron avadanlıqların və tezliklərin koordinasiyası bu portal vasitəsilə nizamlanacaq. Portal vasitəsilə sessiyada istifadə olunacaq müxtəlif tezliklərdə çalışan bütün radioavadanlıqlar qeydiyyatdan keçiriləcək, müvafiq tezlik resursları ayrılacaq və avadanlıqlar etiketlənəcək. Xatırladaq ki, oxşar yanaşma 2024-cü ildə Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı da tətbiq olunmuşdu.

Sessiya yalnız Bakını deyil, ölkəmizin digər regionlarını da (Gəncə, Xankəndi, Sumqayıt, Quba) əhatə edəcək. Tədbirin davam etdiyi günlərdə maarifləndirmə məqsədilə məlumatlandırma festivallarının keçirilməsi də nəzərdə tutulub. Həmçinin forum çərçivəsində nazirlər toplantısı, tematik dialoqlar və xüsusi sessiyalar vasitəsilə qlobal mənzil böhranı və dayanıqlı şəhərsalma məsələləri müzakirə olunacaq.

8




# Ağdərə və Xocalının kəndlərinə daha 175 nəfər qayıdıb



Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. Aprelin 29-da respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalı rayonunun Badara, Xanabad, Təzəbinə və Xanyurdu kəndlərinə yola salınıb.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, köç prosesi çərçivəsində Xocalı rayonunun Xanabad kəndinə 46 nəfərdən ibarət 10 ailə, Badara kəndinə 59 nəfərdən ibarət 16 ailə, Xanyurdu kəndinə 25 nəfər (4 ailə), Seyidbəyli kəndinə 3 nəfər (1 ailə), Şuşakəndə 5 nəfər (1 ailə), Təzəbinə kəndinə 15 nəfər (3 ailə), Ağdərə rayonunun Aşağı Oratağ kəndinə isə 22 nəfərdən ibarət 6 ailə qayıdıb.

7

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; 2026, № 1, maddələr 8, 16; Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli və 27 fevral tarixli 367-VIIQD nömrəli qanunları) 67-2-ci maddəsinin adına, 1-ci hissəsinə və 70-ci maddəsinin "Qeyd" hissəsinin birinci cümləsinə "(ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözlərindən sonra ", habelə dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində" sözləri əlavə edilsin.

**Maddə 2.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684 (Cild I); 2024, № 4, maddə 362, № 5 (I kitab), maddə 500; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 320, № 7, maddə 628; 2026, № 1, maddə 8; Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 350-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.6-cı və 1.0.6-1-ci maddələrə "(ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözlərindən sonra ", habelə dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində" sözləri əlavə edilsin;

2.2. 29-cu maddə üzrə:

2.2.1. 29.0.29-cu maddəyə "(ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözlərindən sonra ", habelə dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində" sözləri əlavə edilsin;

2.2.2. 29.0.43-cü maddəyə "(ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin)" sözlərindən sonra ", habelə dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərinin və bu qəbildən olan digər dövlət təhsil müəssisələrinin" sözləri əlavə edilsin;

2.3. 33.3.9-cu maddəyə, 36-2-ci maddənin adına, 36-2.1-ci, 36-2.2-ci və 36-2.4-cü maddələrə "(ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözlərindən sonra ", habelə dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 aprel 2026-cı il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 383-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq,"Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 383-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1."Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 36-2.2-ci maddəsinə uyğun olaraq, dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2."Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 383-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 8, maddə 943; 2025, № 2, maddə 124,№ 7, maddə 641; 2026, № 1, maddə 32; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 605 nömrəli Fərmanı) 2-ci hissəsinin on beşinci abzasına "müəssisələrində" sözündən sonra"(ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözləri, birinci halda "Nazirliyi," sözündən sonra "habelə dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində işləyən təhsilverənlərə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi," sözləri əlavə edilsin.

3. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685 (Cild I); 2024, № 5 (I kitab), maddə 530) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2-ci bəndə "(ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində)" sözlərindən sonra ", habelə dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində" sözləri, "(ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin)" sözlərindən sonra ", habelə dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərinin və bu qəbildən olan digər dövlət təhsil müəssisələrinin" sözləri əlavə edilsin;

3.2. 2.3-cü bəndə "36-2.1-ci" sözlərindən sonra "(dövlət məktəbəqədər və ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) təhsilverənlərə münasibətdə)" sözləri əlavə olunsun və həmin bənddə "sertifikatlaşdırmanın" sözü "dövlət məktəbəqədər və ümumi təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin sertifikatlaşdırılmasının" sözləri ilə əvəz edilsin;

3.3.aşağıdakı məzmunda 2.10-2-ci bənd əlavə edilsin:

"2.10-2. həmin Qanunun 29.0.43-cü (dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində təhsilverənlərin sertifikatlaşdırılmasının həyata keçirilməsi üzrə) maddəsində nəzərdə tutulmuş vəzifəni, o cümlədən 36-2.1-ci (dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərinə və bu qəbildən olan digər dövlət təhsil müəssisələrinə münasibətdə) maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi həyata keçirir;".

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 7, maddə 662; 2026, № 1, maddə 41; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 27 fevral tarixli 609 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1.45-ci yarımbənddə "və muğam məktəblərinin" sözləri "məktəblərininvə bu qəbildən olan digər təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda 3.1.45-1-ci yarımbənd əlavə edilsin:

"3.1.45-1. dövlət uşaq musiqi, incəsənət, rəssamlıq məktəblərində və bu qəbildən olan digər dövlət təhsil müəssisələrində təhsilverənlərin sertifikatlaşdırılmasının həyata keçirilməsini təmin etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2026-cı il*

# "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) arasında BTİ Regional Akselerasiya Mərkəzinin yaradılması ilə bağlı Əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il oktyabrın 30-da Cenevrə şəhərində və noyabrın 14-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) arasında BTİ Regional Akselerasiya Mərkəzinin yaradılması ilə bağlı Əməkdaşlıq Sazişi" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Beynəlxalq Telekommunikasiya İttifaqına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2026-cı il*

# "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, №1, maddə 95(Cild I) 1.7-ci bəndinə "Müdafiəsi Nazirliyi" sözlərindən sonra ", Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 aprel 2026-cı il*

# "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 249-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 123** **Bakı şəhəri, 29 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 249-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 80 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 361 (Cild I); 2024, № 9, maddə 1100; 2025, № 12 (II kitab), maddə 1231; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 19 mart tarixli 87 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında, preambulada və 1-ci hissədə "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydası" üzrə:

1.2.1. adında və I bölmənin 1-ci hissəsində "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;

1.2.2. I bölmənin 1-ci hissəsində "icra məmurlarının" sözləri "dövlət icra məmurlarının (bundan sonra - icra məmurları)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193, № 7, maddə 698; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 17 mart tarixli 83 nömrəli və 19 mart tarixli 87 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın 161-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. birinci abzasa "aparır və" sözlərindən sonra "xüsusi icra məmurlarının icraatına yönəldilməsi üçün tələbkara verildiyi hal istisna olmaqla" sözləri əlavə edilsin;

2.2. beşinci-on dördüncü abzaslar altıncı-on beşinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"Tələbkar icra qeydinin aparılması ilə eyni vaxtda icra qeydinin xüsusi icra məmurunun icraatına yönəldilməsi məqsədilə tələbkara təqdim edilməsi ilə bağlı müraciət edə bilər.".

3. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cıil 3 mart tarixli 62 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı" üzrə:

3.1.1. 1.1.1.1.2.6-cı yarımmaddəyə "haqlarından" sözündən sonra "və xüsusi icra məmurunun fəaliyyətinə görə onlara ödənilən standart və əlavə icra haqlarından" sözləri əlavə edilsin;

3.1.2. 1.2.1.3.2.0-cı yarımmaddəyə "notariuslar" sözündən sonra "və xüsusi icra məmurları" sözləri əlavə edilsin;

3.1.3. 1.2.4.3.0.0-cı yarımmaddəyə "notariuslar," sözündən sonra "xüsusi icra məmurları," sözləri əlavə edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə" üzrə:

3.2.1. 1.2.1.6-cı abzasa (hər iki halda)) "notariuslar" sözündən sonra "və xüsusi icra məmurları" sözləri əlavə edilsin;

3.2.2. 1.2.4.3-cü abzasa "notariuslar," sözündən sonra "xüsusi icra məmurları," sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 191 (Cild I); 2024, № 3, maddə 359, № 7, maddə 930) ilə təsdiq edilmiş "Elektron qaimə-fakturanın forması, tətbiqi, uçotu və istifadəsi Qaydaları"nın 1.4.5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.4.6-cı yarımbənd əlavə edilsin:

"1.4.6. xüsusi icra məmurları tərəfindən "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, məhkəmələrin və digər orqanların sənədlərinin icrasının həyata keçirilməsi ilə əlaqədar olan xidmətlərin göstərilməsi.".

5. "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 noyabr tarixli 354 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1277 (Cild I); 2024, № 3, maddə 294; 2026, № 1, maddə 84) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında və 1-ci hissədə "icra" sözü "dövlət icra"sözləri ilə əvəz edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası" üzrə:

5.2.1. adında "icra" sözü "dövlət icra" sözləri ilə əvəz edilsin;

5.2.2. 1.1-ci bənddə "İcra" sözü "Dövlət icra" sözləri ilə, "icra məmuru" sözləri "dövlət icra məmuru (bundan sonra - icra məmuru)" sözləri ilə əvəz edilsin;

5.3. həmin Qaydanın 1 və 3 nömrəli əlavələrinin adlarında və mətnlərində "icra" sözü "dövlət icra" sözləri ilə əvəz edilsin;

5.4. həmin Qaydanın 2 nömrəli əlavəsinin adında "icra" sözü "dövlət icra" sözləri ilə, mətnində "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;

5.5. həmin Qaydanın 4 və 5 nömrəli əlavələrinin adlarında və mətnlərində (ikinci və üçüncü hallarda) "icra" sözü "dövlət icra" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İƏT-in Turizm Nazirlərinin 7-ci görüşü

## Regional turizmin gələcək prioritetləri Şuşada müəyyənləşdi

**Aprelin 29-da Şuşa şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Turizm Nazirlərinin 7-ci görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Şuşa - İƏT-in Turizm Paytaxtı 2026" çərçivəsində təşkil olunan görüşdə üzv dövlətlərin turizm nazirləri və nümayəndə heyətləri iştirak ediblər.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxışında İƏT tədbirlərinin Şuşada keçirilməsinin xüsusi simvolik əhəmiyyət daşıdığını və şəhərin zəngin mədəni-tarixi irsi ilə Azərbaycanın aparıcı turizm istiqamətlərindən biri kimi seçildiyini qeyd edib.




Fuad Nağıyev vurğulayıb ki, Azərbaycana səfər edən turistlərin mühüm hissəsi İƏT ölkələrinin payına düşür və bu maraq ölkələr arasında mövcud olan ortaq tarixi, mədəni və etnik bağlardan qaynaqlanır.

İƏT baş katibi Əsəd Məcid Xan çıxışında qeyd edib ki, regional turizmin inkişafı üçün dayanıqlı yanaşmaların tətbiqi, turizm təhsili üzrə əməkdaşlığın genişləndirilməsi, özəl sektorun prosesə daha fəal cəlb olunması və birgə təşəbbüslərin həyata keçirilməsi vacibdir.

O, bu istiqamətdə atılan addımların üzv dövlətlər arasında əlaqələrin möhkəmlənməsinə, turizm potensialının daha səmərəli reallaşdırılmasına və sektorun dayanıqlı inkişafına xidmət edəcəyini bildirib.

Tədbir zamanı aparılan müzakirələrdə turizmin şaxələndirilməsi, ekoturizmin təşviqi, regional marşrutların inkişafı və üzv ölkələr arasında birgə təşəbbüslərin irəli sürülməsi məsələlərinə toxunulub.

Görüş çərçivəsində Turizm üzrə Yüksək Səviyyəli Ekspertlər Qrupunun 9-cu iclasının nəticələri təqdim olunaraq təsdiqlənib. Bununla yanaşı, ekoturizm üzrə qabaqcıl təcrübələri əks etdirən toplu və turizmin şaxələndirilməsinə dair siyasət sənədi təqdim edilib.

Tədbirin əsas nəticələrindən biri olaraq üzv dövlətlər arasında turizm sahəsində əməkdaşlığın gələcək prioritetlərini müəyyən edən "Şuşa Bəyannaməsi" qəbul olunub.

Görüşdə Qazaxıstanın Aktau şəhəri 2030-cu il üçün İƏT-in Turizm Paytaxtı seçilib.

# Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının Katibliyinin məlumatı



**Aprelin 29-da Ermənistan Respublikasında, Ağverəndə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın on üçüncü iclası keçirilib.**

Məmnunluqla qeyd olunub ki, komissiyaların 13-cü iclası növbəti dəfə tərəflərdən birinin ərazisində - Ermənistan Respublikasında, Ağverəndə baş tutub.

Görüş zamanı tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar.

Tərəflər delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair aşağıdakı təlimat layihələrinin mətnlərini razılaşdırıb və mübadilə ediblər:

- "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası zamanı delimitasiya üzrə ekspert qruplarının iş qaydası haqqında Təlimat";
- "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya xəritəsinin hazırlanması haqqında Təlimat";
- "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya sənədlərinin tərtibatı və nəşri qaydası haqqında Təlimat".

Tərəflər bu təlimatların müvafiq qaydada təsdiq edilməsi üçün öz hökumətlərinə müraciət etmək barədə razılığa gəliblər.

Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan qarşılıqlı maraq doğuran məsələlər üzrə ayrıca fikir mübadiləsi aparıblar.

Qeyd olunub ki, Azərbaycan Respublikasının ərazisi ilə Ermənistan Respublikasına yüklərin tranziti uğurla həyata keçirilir və hazırda da davam edir.

Məmnunluqla vurğulanıb ki, Azərbaycanın Ermənistana neft məhsulları tədarük etməsi iki ölkə arasında iqtisadi-ticari əlaqələrin formalaşmasının göstəricisidir.

Həmçinin tərəflərin işgüzar dairələrinin nümayəndələrinin iştirakı ilə iqtisadi-ticari əməkdaşlığın inkişafı, malların və xidmətlərin qarşılıqlı tədarükü, həmçinin tranzit daşımaları məsələləri müzakirə olunub.

Xüsusi olaraq qeyd edilib ki, əldə olunan nəticələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın siyasi iradəsi sayəsində mümkün olub.

Komissiyaların görüşünün yekunlarına dair müvafiq protokol imzalanıb.

Tərəflər komissiyaların Azərbaycan Respublikasında növbəti iclasının tarixinin işçi qaydada müəyyən edilməsi barədə razılığa gəliblər.

# Azərbaycan və Kolumbiya siyasi dialoqu gücləndirir

**Aprelin 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Kolumbiyanın xarici işlər nazirinin müavini Xuana Kastro Santamarianın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Kolumbiya arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər siyasi dialoqun genişləndirilməsi, iqtisadi-ticarət əlaqələrinin təşviqi, habelə bir sıra qarşılıqlı maraq doğuran sahələrdə, o cümlədən turizm, viza liberallaşdırılması, təhsil, mədəniyyət, humanitar, tələbə mübadiləsi, Parlamentlərarası əlaqələr və bir sıra digər əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar. Ölkəmizdə ispan dilinə artan maraq, bu sahədə təşkil olunan proqramlarda vətəndaşlarımızın iştirakı məmnunluqla qeyd olunub.



Azərbaycanın COP29-a evsahibliyi, bir sıra beynəlxalq platformalarda sədrliyi, regionda liderliyi təqdir olunub.

Tərəflər həmçinin çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq, o cümlədən beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyin gücləndirilməsi məsələlərini müzakirə ediblər.

Hər iki ölkənin minalardan əziyyət çəkdiyi diqqətə alınaraq, minasızlaşdırma sahəsində əməkdaşlığın vacibliyi vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Eyni gündə Azərbaycan və Kolumbiya arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib. Məsləhətləşmələrə Azərbaycan tərəfdən nazir müavini Elnur Məmmədov, Kolumbiya tərəfdən isə xarici işlər nazirinin müavini Xuana Kastro Santamaria rəhbərlik ediblər.

# Azərbaycan və Uruqvay arasında siyasi məsləhətləşmələr aparılıb

**Aprelin 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Uruqvay Şərq Respublikasının xarici işlər nazirinin müavini Valeriya Çukasini qəbul edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Uruqvay arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər siyasi dialoqun dərinləşdirilməsi, qarşılıqlı səfərlərin intensivləşdirilməsi və institusional əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayıblar.

Diplomatik akademiyalar arasında əməkdaşlıq haqqında razılaşma məmnunluqla qeyd olunaraq, kadr hazırlığı, təcrübə mübadiləsi və birgə təlim proqramlarının həyata keçirilməsi imkanları nəzərdən keçirilib. Bununla yanaşı, vətəndaşların qarşılıqlı səfərlərinin asanlaşdırılması məqsədilə viza rejiminin liberallaşdırılması istiqamətində mümkün addımlar müzakirə olunub.



Tərəflər ötən il Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin birinci müavininin rəhbərlik etdiyi nümayəndə heyətinin Uruqvaya səfərinin ticarətin və iqtisadi əlaqələrin inkişafına müsbət töhfə baxımından vacibliyini vurğulayaraq, bu kimi təmasların davamlılığının əhəmiyyətini qeyd ediblər.

Görüşdə həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq üzrə fikir mübadiləsi aparılıb.

Eyni gündə Azərbaycan və Uruqvay arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib. Məsləhətləşmələrə Azərbaycan tərəfdən nazir müavini Elnur Məmmədov, Uruqvay tərəfindən isə xarici işlər nazirinin müavini Valeriya Çukasi rəhbərlik ediblər.

# Almaniya parlament nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib

Azərbaycan Respublikasında səfərdə olan Almaniya Federativ Respublikası Bundestaqının Cənubi Qafqaz üzrə İşçi qrupunun sədri Mirze Edisin başçılıq etdiyi nümayəndə heyəti üzvləri aprelin 29-da Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Nurlan Həsənov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Almaniya Bundestaqının nümayəndə heyəti Milli Məclisdə olub



**Aprelin 29-da Milli Məclisin Sədr müavini Musa Qasımlı ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının Cənubi Qafqaz üzrə İşçi qrupunun rəhbəri Mirze Edisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə vitse-spiker Musa Qasımlı Almaniyanın bizim üçün dost ölkə və xalqlarımız arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu deyib. Qeyd edib ki, Azərbaycan dövləti ölkəmizdə alman tarixi və mədəni irsinə böyük hörmətlə yanaşır, onun qorunub saxlanılmasını təmin edir. O, Azərbaycan Prezidentinin 2016-cı ildə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında sərəncam imzaladığını vurğulayaraq, bunun alman xalqına hörmət və diqqətin bariz nümunəsi olduğunu bildirib.

Söhbət zamanı ötən müddət ərzində Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə əməkdaşlığın sürətlə inkişaf etdiyi, siyasi, iqtisadi, humanitar əlaqələrin daha da dərinləşməsi üçün geniş imkanların olduğu, ölkəmizdə bir çox alman şirkətinin uğurla fəaliyyət göstərdiyi söylənilib.

Görüşdə dövlətlərarası münasibətlərdə parlamentlərin xüsusi rolu vurğulanıb, qonaqlara Milli Məclisin tərkibi, prosedur qaydaları, qanunvericilik fəaliyyəti barədə məlumat verilib. Bu sahədə əlaqələrin möhkəmləndirilməsində qarşılıqlı səfərlərin mühüm əhəmiyyət kəsb etdiyi bildirilib. Söhbətdə 2023-cü ildə Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyətinin Almaniyaya səfəri xatırlanaraq, bunun ikitərəfli əlaqələrin inkişafı və parlamentlərarası əməkdaşlığın gücləndirilməsi baxımından önəmi qeyd edilib. Eyni zamanda hər iki ölkənin qanunvericilik orqanında dostluq qruplarının fəaliyyətinin, deputatlar arasında daha sıx təmasların qurulmasının parlamentlərarası əlaqələrin möhkəmlənməsinə töhfə verdiyi söylənilib.

Almaniya Bundestaqının Cənubi Qafqaz üzrə işçi qrupunun rəhbəri Mirze Edis səmimi görüşə və qonaqpərvərliyə görə təşəkkürünü ifadə edərək, Almaniya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əlaqələrin inkişafının tərəflər üçün faydalı olduğunu bildirib. O, ölkəmizə səfərləri çərçivəsində Almaniya nümayəndə heyətinin Göygöl və Şəmkir rayonlarında, Xankəndi və Şuşa şəhərlərində olduğunu söyləyərək, öz təəssüratlarını bölüşüb.

Qonaq parlamentlərarası əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən danışaraq, Almaniya Bundestaqının fəaliyyəti, rəhbərlik etdiyi dostluq qrupu barədə söhbət açıb, ölkələr arasında münasibətlərin inkişafında qanunverici orqanların birgə işinin gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Fikir mübadiləsi zamanı Almaniya Bundestaqı nümayəndə heyətinin üzvləri Daniel Köbl, Macit Karaahmetoğlu, Sergey Minix, Almaniyanın ölkəmizdəki səfiri Ralf Horlemann çıxış edərək Azərbaycanla Almaniya arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişafı ilə bağlı fikirlərini bölüşüblər, əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu qeyd ediblər.

Görüşdə Milli Məclisin Azərbaycan-Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Nurlan Həsənov, Almaniya nümayəndə heyətinin üzvü Katerina Bienert və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Gömrük Məcəlləsi təkmilləşdirilir

**Aprelin 29-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Azər Əmiraslanov bildirib ki, gündəliyə 3 məsələ daxil edilib, ilk məsələ isə birinci oxunuşda təqdim olunan Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir.

Komitə sədri diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biri dövlət xidmətlərinin, o cümlədən vergi və gömrük sisteminin daha səmərəli və müasir əsaslarla qurulmasıdır. Bu, vətəndaşlara, sahibkarlara və biznes sektoruna yüksəkkeyfiyyətli xidmət göstərilməsi məqsədi daşıyır.

Azərbaycanda gömrük qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində atılmış addımlardan söz açan Azər Əmiraslanov deyib ki, həyata keçirilən siyasətin mərkəzində gömrük inzibatçılığının müasirləşdirilməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və biznes mühitinin yaxşılaşdırılması dayanır. Onun sözlərinə görə, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində artan rolu, tranzit daşımalar və logistika sahəsində qarşıya çıxan yeni çağırışlar gömrük sisteminin də daim yenilənməsini zəruri edir. Bu baxımdan təqdim olunan qanun layihəsi Azərbaycanın gömrük sistemini müasir çağırışlara uyğunlaşdırmaqla qarşıda duran vəzifələrin yeni mərhələdə daha səmərəli icrası üçün möhkəm və çevik hüquqi baza formalaşdırılmasına xidmət edir.



Qanun layihəsi barədə ətraflı məlumatı Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov təqdim edib. O, slaydlarla müşayiət olunan təqdimatda yeni qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin mahiyyəti, əsas istiqamətləri və strateji məqsədləri barədə ətraflı məlumat verib.

Bildirilib ki, layihənin əsas məqsədləri sırasında Azərbaycanın tranzit potensialının daha da inkişaf etdirilməsi, etibarlı tərəfdaşlıq institutunun təşviqi, gömrük əməliyyatlarında sadələşdirmələrin genişləndirilməsi, habelə gömrük nəzarətində müasir və çevik yanaşmaların tətbiqi xüsusi yer tutur.

Tranzit potensialının inkişaf etdirilməsi ilə bağlı yeniliklərdən danışan Şahin Bağırov multimodal daşımalarda "bir elektron bəyannamə" prinsipinin tətbiqinin əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, beynəlxalq tranzit sistemlərinə inteqrasiya və tranzit əməliyyatlarının rəqəmsallaşdırılması kimi yeniliklər Azərbaycanın tranzit ölkə kimi mövqeyinin daha da güclənməsinə xidmət edəcək.

Layihədə etibarlı tərəfdaşlığın təşviqi istiqamətində nəzərdə tutulan dəyişikliklərdən bəhs edilərkən Səlahiyyətli İqtisadi Operator statusunun əhatə dairəsinin genişləndirilməsi və gömrük təmsilçiliyi institutunun təkmilləşdirilməsi barədə məlumat verilib.

Gömrük əməliyyatlarında sadələşdirmələrlə bağlı təklif olunan yeniliklər sırasında inzibati aktların elektronlaşdırılması, elektron sənəd dövriyyəsinin genişləndirilməsi, eləcə də Ticarətin Asanlaşdırılması Mərkəzləri konsepsiyasının tətbiqi xüsusi qeyd olunub. Vurğulanıb ki, bu dəyişikliklər inzibati proseslərin legitimliyinin möhkəmləndirilməsinə, sahibkarlıq subyektlərinin üzərinə düşən inzibati yükün azaldılmasına və daha əlverişli hüquqi mühitin formalaşdırılmasına xidmət edəcək. Sənəddə, eyni zamanda gömrük nəzarətinin və audit mexanizmlərinin hüquqi əsaslarının dəqiqləşdirildiyi, bu sahədə yeni prosedurların müəyyən olunduğu diqqətə çatdırılıb.

Qeyd olunub ki, gömrük nəzarəti formalarının həyata keçirilməsi üzrə ayrıca qaydanın hazırlanması, həmin qaydalarda mütənasiblik, əsaslandırma, sənədləşdirmə, videoçəkiliş və şikayət mexanizmlərinin nəzərdə tutulması insan hüquq və azadlıqlarının təmin olunmasına xidmət edir.

Layihədə Gömrük Məcəlləsində istifadə olunan əsas anlayışların bir qisminin dəqiqləşdirilməsi və bir sıra yeni anlayışların əlavə olunması da nəzərdə tutulur. Beynəlxalq təcrübə və müasir çağırışlar əsasında hazırlanmış bu dəyişikliklərin gömrük qanunvericiliyinin terminoloji bazasını yeniləmək, normativ tənzimləmənin tətbiq imkanlarını genişləndirmək və hüquqi müəyyənliyi artırmaq məqsədi daşıdığı bildirilib.

Vurğulanıb ki, Gömrük Məcəlləsinin yeni redaksiyası gömrük tənzimlənməsinin daha çevik, şəffaf və biznesyönümlü modelə keçirilməsinə, xarici ticarət əməliyyatlarının daha operativ və səmərəli təşkilinə, ölkənin tranzit və logistika imkanlarının genişləndirilməsinə əlverişli hüquqi zəmin yaradacaq.

Sənədin müzakirəsində komitənin sədr müavini Azər Badamov, komitənin üzvləri Vüqar Bayramov, Əli Məsimli, Tahir Mirkişili və Əlibala Məhərrəmzadə çıxış edərək sənəd ilə bağlı fikirlərini səsləndiriblər, qeyd və təkliflərini irəli sürüblər.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, komitənin sədr müavini Natiq Şirinov, Gömrük Siyasəti Baş İdarəsinin rəisi Rövşən Namazov, Hüquqi Təminat İdarəsinin rəisi Tural Həsənli və Audit İdarəsinin rəisi Elçin Qasımzadə çıxış edərək deputatların suallarını cavablandırıblar, qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirənin sonunda Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda baxılmaq üçün tövsiyə olunub.

İclasda "Maliyyə icarəsi haqqında" qanun layihəsi və bir sıra qanunlarda dəyişiklik edilməsi barədə məsələ müzakirə olunub.

Bu qanun layihələri Milli Məclisin plenar iclasında ikinci oxunuşda baxılmaq üçün tövsiyə edilib.

*"Azərbaycan"*

# "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda tədbir keçirilib

**Aprelin 29-da İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə "Sahibkarlar günü"nə həsr olunmuş "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda tədbir keçirilib.**





Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb. Tədbir iştirakçıları həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" kompleksinə əklil qoyublar.

Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyasının İdarə Heyətinin sədri Ramiz İsayev çıxış ediblər.

Çıxışlarda ölkə iqtisadiyyatının davamlı inkişafında, məşğulluğun təmin olunmasında özəl sektorun aparıcı rolu xüsusi vurğulanıb. Ölkəmizdə sahibkarlığın formalaşması və inkişafının təməlinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulması, bu siyasətin hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun şəkildə uğurla davam etdirildiyi vurğulanıb. Qeyd olunub ki, sahibkarlıq fəaliyyətinin inkişafı məqsədilə qanunvericilik bazası mütəmadi olaraq təkmilləşdirilir, inzibati prosedurlar sadələşdirilir, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər görülür, sahibkarlara göstərilən maliyyə və institusional dəstək mexanizmləri genişləndirilir, müxtəlif güzəşt və stimullaşdırıcı tədbirlər tətbiq olunur. Həmçinin qeyd olunub ki, kiçik və orta biznesin inkişafı iqtisadi siyasətin prioritetlərindəndir, dövlət-özəl sektor əməkdaşlığı davamlı olaraq genişlənir.

Tədbirdə sahibkarlığın inkişafına dair film nümayiş etdirilib. Sonda Prezident İlham Əliyevə tədbir iştirakçıları adından müraciət qəbul olunub. Tədbir bədii hissə ilə başa çatıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2016-cı il 21 aprel tarixli sərəncamı ilə aprelin 25-i ölkəmizdə "Sahibkarlar Günü" kimi qeyd olunur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Videokonfrans formatında görüş

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Danimarkanın "Vestas Wind Systems A/S" şirkətinin marketinq, kommunikasiyalar, dayanıqlılıq və ictimai əlaqələr üzrə qrupun baş vitse-prezidenti Morten Dirholm ilə videokonfrans formatında görüş keçirib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycanın bərpaolunan enerji sektorunun inkişafı, "yaşıl enerji" ixracı üzrə regional mərkəzə çevrilməsi və bu istiqamətdə beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Qeyd edilib ki, ölkəmizdə zəngin alternativ enerji potensialı mövcuddur və bu resurslardan səmərəli istifadə dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Tərəflər birgə layihələrin həyata keçirilməsi, "Yaşıl Enerji Dəhlizi" layihəsi çərçivəsində külək enerjisinin ixracı, eləcə də şirkət tərəfindən külək turbinlərinin istehsalının lokallaşdırılması perspektivlərini nəzərdən keçiriblər.

Görüşdə bərpaolunan enerji sahəsində tərəfdaşlığın genişləndirilməsinin ölkəmizin dayanıqlı iqtisadi inkişaf hədəflərinə töhfə verəcəyi vurğulanıb.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Mərakeş Krallığına işgüzar səfəri başa çatıb

**Xəbər verildiyi kimi, baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti mərakeşli həmkarı Hicham El Blaouinin dəvəti ilə Mərakeş Krallığının Rabat şəhərinə rəsmi işgüzar səfər edib.**



Səfər çərçivəsində nümayəndə heyəti ölkənin müstəqillik əldə etməsində mühüm rol oynamış Əlahəzrət Kral V Məhəmmədin məqbərəsini ziyarət edərək xatirəsini ehtiramla yad edib.

Bundan sonra nümayəndə heyəti ilə Mərakeş Krallığının Kassasiya Məhkəməsinin sədri və Ali Məhkəmə Şurasının vitse-prezidenti Mohammad Abdenabaoui arasında görüş keçirilib.

Görüş zamanı ölkələrimizin hüquq sistemləri arasında qarşılıqlı faydalı və səmərəli əməkdaşlıq münasibətlərinin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb, təcrübə mübadiləsi və qarşılıqlı hüquqi dəstək imkanları müzakirə olunub.

Səfər çərçivəsində, həmçinin nümayəndə heyəti ilə Mərakeş Krallığının ədliyyə naziri Abdullatif Ouahbi arasında geniş tərkibdə ikitərəfli görüş keçirilib.

Ölkəmizə daha öncəki səfərini məmnunluqla xatırlayan nazir hər sahədə əsaslı inkişafın şahidi olduğunu bildirib. Tərəflər görüş zamanı Azərbaycan Respublikası və Mərakeş Krallığının müxtəlif qurumları, o cümlədən hüquqmühafizə orqanları arasında əlaqələrin inkişaf tempindən məmnunluğunu ifadə edib, qurumlar arasında əməkdaşlığın hüquqi bazasının daha da dərinləşdirilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Bununla yanaşı, baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) mənzil-qərargahında olub, təşkilatın baş direktoru doktor Salim Al Maliklə görüşüb, həmçinin mənzil-qərargahda yerləşən, Məhəmməd peyğəmbərin həyatına həsr olunmuş muzeyi ziyarət edib.

Görüşdə ölkəmizin təşkilatın fəaliyyətinə verdiyi mühüm töhfələr məmnunluqla qeyd olunub, xüsusilə qurumun xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın genişmiqyaslı fəaliyyətinin islam dünyasının mədəni abidələrinin, mənəvi irsinin qorunması və təbliğində mühüm rol oynadığı vurğulanıb.

Səfər çərçivəsində həmçinin baş prokuror Mərakeş Krallığının yerli televiziya və mətbuat qurumlarına müsahibə verib. O qeyd edib ki, bu xarakterli səfərlər cinayətkarlığa qarşı mübarizədə ortaq çətinliklərin müəyyən edilməsi və buna uyğun effektiv cavab tədbirlərinin hazırlanması üçün təcrübənin bölüşdürülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bu baxımdan hazırkı səfər transmilli mütəşəkkil cinayətkarlıq və korrupsiyaya qarşı mübarizə sahələrində, eləcə də hüquq sisteminin səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən islahatlarla yaxından tanış olmağa əlverişli imkan yaradıb.

Bununla yanaşı, birgə beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı da müvafiq müzakirələr aparılmış və irəli sürülən təşəbbüslərin qarşılıqlı şəkildə dəstəklənməsi qərara alınıb.

Görüşlərdə ölkəmizin Mərakeş Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Nazim Səmədov da iştirak edib.

Nümayəndə heyətinin səfəri başa çatıb.

## *Amerikalı ekspert:*
# "Qarabağda texnoloji şəhər mühiti üçün unikal imkan var"

**Davamlı şəhər inkişafı sahəsində ekspert, amerikalı urbanist Maykl Mehaffi Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) ərəfəsində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa proseslərini AZƏRTAC-a şərh edib.**




Onun sözlərinə görə, hazırda həyata keçirilən yenidənqurma yeni keyfiyyətli şəhər və yaşayış məntəqələrinin - daha komfortlu, dayanıqlı və estetik baxımdan cəlbedici məkanların yaradılması üçün "nadir və həqiqətən unikal imkan" yaradır. Ekspert bildirib ki, mövcud ciddi çağırışlara, xüsusilə ərazilərin minalardan təmizlənməsi zərurətinə baxmayaraq, əsas məsələ onilliklər və hətta əsrlər üçün nəzərdə tutulan infrastrukturun formalaşdırılmasına strateji yanaşmanın tətbiqidir. O, polisentrik inkişafın vacibliyini vurğulayıb. "Şəhərlər və yaşayış məntəqələri qarşılıqlı bağlantılı mərkəzlər sistemi kimi formalaşdırılmalıdır. Bu mərkəzlərin hər biri daxili bağlılığa malik olmalı, eyni zamanda regionun ümumi strukturuna inteqrasiya edilməlidir".

Ekspert "15 dəqiqəlik şəhər" konsepsiyasına da xüsusi diqqət yetirib. Bu konsepsiya gündəlik əsas xidmətlərə qısa müddətdə, yəni yalnız avtomobillə deyil, piyada, velosipedlə və ya müxtəlif nəqliyyat vasitələri ilə rahat çatmaq imkanını nəzərdə tutur. Onun fikrincə, bu yanaşma şəhər fəallığının daha bərabər paylanmasına və həyat keyfiyyətinin yüksəlməsinə kömək edir.

Nəqliyyat strukturundan danışan M.Mehaffi qeyd edib ki, səmərəli şəhərlər tarixən dəqiq küçə şəbəkəsi əsasında formalaşıb. Belə ki, daha sürətli nəqliyyat magistralları təxminən 400 metr interval ilə yerləşir, onların arasında isə daha sakit, təhlükəsiz və piyadalar üçün nəzərdə tutulmuş məkanlar yaradılır. O həmçinin keyfiyyətli ictimai məkanlar sisteminin həlledici rolunu vurğulayıb: "Buraya yalnız parklar və meydanlar deyil, həm də hərəkət, ünsiyyət və sosial fəallıq üçün rahat olmalı küçələr daxildir".

Amerikalı ekspertin sözlərinə görə, mühüm amillərdən biri də binaların memarlığıdır. Fasadlar insanların qarşılıqlı əlaqəsinə və ictimai həyatın inkişafına şərait yaradan cəlbedici və "canlı" şəhər mühiti formalaşdırmalıdır. O, "ağıllı şəhər" həlləri də daxil olmaqla müasir texnologiyaların tətbiqinin vacibliyini qeyd edib. Bununla yanaşı vurğulayıb ki, bu texnologiyalar şəhər həyatının əsasını təşkil edən insanlararası münasibətləri zəiflətməməli, əksinə gücləndirməlidir.

Sonda Maykl Mehaffi bildirib ki, şəhərsalmanın bir çox uğurlu prinsipini tarixi təcrübədən götürmək mümkündür. Onun sözlərinə görə, ənənəvi memarlıq və planlaşdırma həlləri məhz insana və sosial qarşılıqlı əlaqəyə yönəldiyi üçün yüksək səmərəlilik nümayiş etdirir.

"Bu gün Qarabağın iki dünyanın ən yaxşı cəhətlərini birləşdirmək üçün unikal imkanı var - müasir texnoloji innovasiyaları və komfortlu şəhər mühitinin yaradılması üzrə zamanın sınağından çıxmış prinsipləri", - deyə amerikalı ekspert yekunlaşdırıb.

# Qəbələ bu dəfə yüksəksəviyyəli görüşlərin ünvanı kimi dünya gündəmində oldu

**Qlobal səviyyədə baş verən hərbi münaqişələr, siyasi və iqtisadi qarşıdurmalar dünya iqtisadiyyatına mənfi təsir göstərməkdə davam edir. O üzdən Prezident İlham Əliyevin apardığı xarici siyasətdə mövcud iqtisadi əlaqələrin qorunması və yeni əlaqələrin yaradılması əsas yer tutur.**



Foto İlham BABAYEVİNDİR

Bu baxımdan Prezident İlham Əliyevin Qəbələdə Ukrayna Prezidenti Volodimir Zelenski və Çex Respublikasının Baş naziri Andrey Babişlə keçirdiyi görüşlərdə müzakirə edilən əsas məsələlərin ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı olması təbii idi. Bu yerdə qeyd edək ki, beynəlxalq səviyyədə ölkəmizə marağın artması iqtisadi yüksəlişin və sabit siyasi mühitin olması ilə bağlıdır. Bundan əlavə, Avrasiya məkanının əsas nəqliyyat-tranzit qovşağı olan Azərbaycan həm də dünyanın, xüsusilə Avropanın enerji təminatı və təhlükəsizliyində həlledici mövqeyə malikdir. Bu görüşlər həmçinin Azərbaycanın regional diplomatiyada artan rolunu nümayiş etdirir.

Mövzunu şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Aqil Əsədovun fikrincə, Qəbələ bir neçə gün beynəlxalq diplomatik gündəmin diqqət mərkəzində oldu. Qısa zaman intervalında burada Azərbaycan Prezidenti İlham Əliyevlə Ukrayna Prezidenti Volodimir Zelenski təhlükəsizlik, enerji, humanitar əməkdaşlıq və birgə istehsal imkanlarını müzakirə edərək ikitərəfli 6 sənəd imzaladılar. Bu səfər müharibə dövründə Ukrayna Prezidentinin Cənubi Qafqaza ilk rəsmi səfəri kimi məhsuldar qiymətləndirilməlidir. Digər mühüm məqam enerji sahəsində əməkdaşlıqdır. Avropanın enerji təhlükəsizliyi məsələsinin aktuallığı fonunda Azərbaycan təbii qaz və logistika imkanları hesabına mühüm tərəfdaş sayılır. Ukrayna ilə bu sahədə koordinasiya həm tədarük marşrutları, həm də enerji infrastrukturu üzrə yeni perspektivlər yarada bilər. Dövlət başçılarının görüşündə də Azərbaycan Prezidentinin vurğuladığı kimi: "SOCAR Ukraynada uzun illərdir ki, uğurla fəaliyyət göstərir, - eyni zamanda çox gözəl perspektivlər, birgə layihələr var... Bizim ticarət dövriyyəmiz yarım milyard dolları ötüb. Amma ümid edirəm ki, növbəti illərdə bu rəqəm daha da böyüyəcək". Bütün bunlar Azərbaycan-Ukrayna iqtisadi münasibətlərinin gələcəkdə daha da şaxələnəcəyini, ticarət dövriyyəsinin, qarşılıqlı investisiya qoyuluşlarının daha da artacağını deməyə əsas verir.

Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə səfərinə də münasibət bildirən Aqil Əsədov qeyd edib ki, ikitərəfli siyasi dialoq, iqtisadi əlaqələr, investisiya əməkdaşlığı və biznes-forumu diqqət mərkəzində oldu. Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamaqla yanaşı, Çexiya da Avropa İttifaqının üzvü kimi Azərbaycan üçün həm texnologiya, həm də sənaye tərəfdaşlığı baxımından əhəmiyyətlidir. Yüksəksəviyyəli ikitərəfli görüşlər göstərir ki, Azərbaycan Avropa ölkələri ilə münasibətlərdə yalnız enerji ixracatçısı kimi deyil, həm də logistika, sənaye kooperasiyası və investisiya platforması kimi çıxış etməyə hazırdır. Qəbələdə biznes-forumunun təşkili, iş adamlarının və əlaqədar qurum rəhbərlərinin iştirakı ilə qarşılıqlı əməkdaşlıq imkanlarının müzakirəsi istər ölkələrarası əlaqələrin inkişafı, istərsə də regionların iqtisadi inkişafının təşviqi baxımından əhəmiyyətlidir.

Çexiya ilə ikitərəfli müzakirələrdə investisiya qoyuluşu, müdafiə sənayesi, energetika və s. sahələrdə əməkdaşlıq məsələləri geniş müzakirə edilərək müvafiq əməkdaşlıq planı imzalandı. Görüşdə də vurğulandığı kimi, uzun illərdir Azərbaycan nefti Çexiyaya ixrac edilir və ölkəmiz Çexiyanın enerji təminatında önəmli yerə malikdir. Müasir reallıqlar isə daha geniş iqtisadi əməkdaşlığı zəruri edir. Dövlət başçısı İlham Əliyevin "... Azərbaycanın maliyyə və iqtisadi vəziyyəti sabitdir. Çox illər ərzində, artıq doqquz ildir ki, valyutamız sabitdir" fikirləri də ölkəmizin investisiya cəlbediciliyi üçün əlverişli olduğunu, eləcə də bu sahənin qarşılıqlı əməkdaşlıq üçün aktual olduğunu ifadə edir.

İİTKM-in şöbə müdiri bildirir ki, belə müzakirələrin Qəbələdə keçirilməsinin isə başqa bir rəmzi tərəfi var. Qəbələ son illər Azərbaycanın turizm, infrastruktur və təhlükəsizlik baxımından inkişaf etmiş şəhərlərindən biridir. Burada beynəlxalq tədbirlərin təşkili üçün hotellər, nəqliyyat bağlantıları və müasir qəbul imkanları mövcuddur. Paytaxtdan kənarda belə görüşlərin keçirilməsi regionların tanıdılması siyasətinə də xidmət edir. Eyni zamanda Qəbələnin tarixi və coğrafi mövqeyi, şəhərin qədim ticarət yolları üzərində yerləşməsi, çoxmillətli bir şəhər olması və sair ona əlavə simvolik dəyər verir.

Aqil Əsədov əlavə edib ki, Qəbələdə Ukrayna Prezidenti V.Zelenski və Çexiya Baş naziri A.Babiş ilə keçirilən görüşlər Azərbaycanın çoxşaxəli xarici siyasət kursunun praktik təzahürüdür. Bir tərəfdən Ukrayna ilə təhlükəsizlik və humanitar əməkdaşlıq gücləndirilir, digər tərəfdən Avropa ölkələri ilə iqtisadi və investisiya əlaqələri genişləndirilir. Azərbaycan dünyanın aparıcı dövlətləri tərəfindən dünyaya sülh gətirən, barış tərəfdarı, etibarlı və strateji tərəfdaş kimi qəbul edilir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## *Orta dəhliz və enerji təhlükəsizliyi:*
# Azərbaycanın Avropa üçün artan strateji rolu

**"Orta dəhlizin sürətlə inkişafı, qlobal ticarət zəncirlərində baş verən dəyişikliklər və enerji təhlükəsizliyi məsələlərinin aktuallaşması fonunda Azərbaycanın Avropa üçün strateji əhəmiyyəti daha da güclənir".**



Bu barədə AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi ekspert, Kocaeli Heydər Əliyev Mədəniyyət Mərkəzinin sədri Bilal Dündar bildirib.

Ekspertin fikrincə, dünya iqtisadiyyatında yeni güc balansının formalaşdığı bir dövrdə nəqliyyat və enerji marşrutları dövlətlərin geosiyasi rolunu müəyyən edən əsas faktorlardan birinə çevrilib: "Bu kontekstdə Orta dəhliz Avropa ilə Asiya arasında yalnız alternativ yol deyil, həm də təhlükəsiz və davamlı iqtisadi inteqrasiyanın əsas sütunlarından biri kimi çıxış edir. Azərbaycanın bu dəhlizdə yerləşməsi və təşəbbüskar mövqeyi ölkəni regionun əsas strateji aktorlarından birinə çevirib. Azərbaycanın son illərdə nəqliyyat-logistika sahəsində həyata keçirdiyi layihələr Orta dəhlizin rəqabət qabiliyyətini artırıb. Müasir dəmir yolları, avtomobil magistralları, Xəzər dənizi üzərindən həyata keçirilən daşımalar və logistika mərkəzləri bu marşrutun effektivliyini təmin edən əsas komponentlərdir. Bu infrastruktur sayəsində yüklərin çatdırılma müddəti azalır, təhlükəsizlik səviyyəsi yüksəlir və ticarət dövriyyəsi genişlənir".

O vurğulayıb ki, Avropa üçün enerji təhlükəsizliyi məsələsi artıq yalnız iqtisadi deyil, həm də siyasi sabitliyin əsas şərtlərindən biri kimi qiymətləndirilir. Mövcud geosiyasi reallıqlar fonunda enerji mənbələrinin şaxələndirilməsi və etibarlı tərəfdaşların seçilməsi Avropa ölkələri üçün prioritet istiqamətlərdəndir. Bu baxımdan Azərbaycan uzunmüddətli və sabit enerji siyasəti ilə seçilən nadir tərəfdaşlardan biridir.

Onun sözlərinə görə, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq enerji layihələri Avropanın enerji təminatında mühüm rol oynayır və bu layihələr qitənin enerji təhlükəsizliyinə ciddi töhfə verir. "Azərbaycan təkcə enerji ixrac edən ölkə deyil, eyni zamanda enerji təhlükəsizliyinin təminatçısıdır. Azərbaycanla əməkdaşlıq Avropa üçün həm iqtisadi, həm də siyasi baxımdan etibarlı seçimdir", - deyə Bilal Dündar bildirib.

Ekspert əlavə edib ki, Azərbaycanın enerji strategiyası artıq yeni mərhələyə qədəm qoyub. Xüsusilə bərpaolunan enerji sahəsində həyata keçirilən layihələr ölkənin gələcək perspektivlərini daha da genişləndirir. Qarabağ və Şərqi Zəngəzur bölgələrində reallaşdırılan "yaşıl enerji" zonası təşəbbüsləri Azərbaycanın Avropaya alternativ və ekoloji cəhətdən təmiz enerji ixrac etmək potensialını artırır.

Bilal Dündar qeyd edib ki, Orta dəhlizin inkişafı regional əməkdaşlıq formatlarını da gücləndirir. Bu layihə iştirakçı ölkələr arasında iqtisadi inteqrasiyanı dərinləşdirir, qarşılıqlı etimadı artırır və yeni tərəfdaşlıq modellərinin formalaşmasına şərait yaradır. Azərbaycanın bu prosesdə aktiv iştirakı isə onun beynəlxalq nüfuzunu daha da yüksəldir.

Onun fikrincə, Azərbaycanın çoxşaxəli və balanslı xarici siyasəti ölkənin uğurlarının əsasını təşkil edir: "Rəsmi Bakı müxtəlif geosiyasi mərkəzlər arasında körpü rolunu oynayaraq həm Şərq, həm də Qərb ilə qarşılıqlı faydalı əməkdaşlıq qurur. Bu yanaşma Azərbaycanın beynəlxalq sistemdə etibarlı tərəfdaş kimi qəbul olunmasını təmin edir. Yaxın illərdə Orta dəhliz üzrə daşımaların həcmi əhəmiyyətli dərəcədə artacaq və bu, Azərbaycanın tranzit potensialını daha da gücləndirəcək. Bununla yanaşı, ölkənin logistika və nəqliyyat sektorunun inkişafı iqtisadi şaxələndirməni sürətləndirəcək, qeyri-neft sektorunun payını artıracaq və yeni investisiya imkanları yaradacaq".

Bilal Dündar vurğulayıb ki, Azərbaycanın həm enerji, həm də nəqliyyat sahəsində paralel inkişaf strategiyası onu Avropa üçün əvəzolunmaz tərəfdaşa çevirir: "Bu gün Azərbaycan regional sabitliyin təminatçısı, enerji təhlükəsizliyinin mühüm iştirakçısı və qlobal ticarət marşrutlarının əsas halqalarından biri kimi çıxış edir".

Ekspert qeyd edib ki, Orta dəhlizin genişlənməsi və enerji layihələrinin dərinləşməsi Azərbaycanın qlobal mövqeyini daha da möhkəmləndirəcək: "Azərbaycanın artan strateji rolu yalnız bu günün deyil, gələcəyin də reallığıdır. Avropa ilə əməkdaşlığın genişlənməsi isə bu prosesin davamlı olacağını göstərir".

# Azərbaycanın xarici siyasətinin uğurları



## Bakı qlobal geosiyasətin ehtiramla qəbul olunan aktorudur

### Avropa İttifaqı üzvü olan dövlətlərin rəhbərlərinin Azərbaycana intensivləşən səfərləri bunu təsdiqləyir

**Yeni regional və qlobal nizamda Azərbaycanın həlledici rolu artır. Qütblərarası rəqabətin dərinləşdiyi bir dövrdə Bakının heç bir siyasi-hərbi blokdan asılı olmayaraq yürütdüyü müstəqil siyasət xüsusi əhəmiyyət kəsb edir. Son dövrlərdə xarici ölkələrin dövlət və hökumət rəhbərlərinin Azərbaycana ardıcıl səfərləri rəsmi Bakının geosiyasi statusunun və iqtisadi potensialının yüksəlməsinin bariz göstəricisidir. Litvanın Baş naziri İnqa Ruqinienenin, Latviya Prezidenti Edqars Rinkeviçsin, Çexiya Respublikasının Baş naziri Andrey Babişin, o cümlədən Ukrayna lideri Volodimir Zelenskinin ölkəmizə ardıcıl səfərləri Azərbaycanın dialoq mühiti və çoxvektorlu tərəfdaşlıq statusunun yüksəlməsindən xəbər verir.**

Ötən ay Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın ölkəmizə reallaşan rəsmi səfəri də mühüm hadisə kimi yadda qaldı. Prezident İlham Əliyevin Koşta ilə apardığı danışıqlarda enerji dialoqu, regional təhlükəsizlik arxitekturası və iqtisadi diversifikasiya məsələləri diqqət mərkəzində oldu. Verilən rəsmi bəyanatlar tərəflərin iqtisadiyyatdan təhlükəsizliyə qədər bütün sahələrdə işbirliyini dərinləşdirmək əzmində olduğunu bir daha sübut etdi.

Avropa siyasilərinin ölkəmizə reallaşan səfərləri, yüksəksəviyyəli müzakirələr və verilən birgə bəyanatlar Azərbaycanın müstəqil, çoxşaxəli xarici siyasət kursunun növbəti təzahürüdür. Diplomatik fəallıq rəsmi Bakının balanslı yanaşmasının beynəlxalq səviyyədəki legitimliyini və aktual çəkisini bir daha təsdiqləyir. Rəsmi Bakı beynəlxalq miqyasda təhlükəsizliyin, konstruktiv əməkdaşlığın və sivilizasiyalararası dialoqun təşviqində unikal bir missiya daşıyıcısı kimi tanınır. Məhz bu etibarlılıq faktoru müxtəlif güc mərkəzlərinin Azərbaycanı strateji tərəfdaş, neytral və effektiv dialoq platforması kimi tanımasını təmin edir.

Avropa İttifaqı ölkələri üçün Azərbaycan uzunmüddətli və etibarlı enerji tərəfdaşı statusunu qoruyur. Bu gün Azərbaycanın Avropa İttifaqının 10 üzvünə mavi yanacaq ixrac etməsi mövcud reallıqdır və bu fakt "qoca qitə"nin siyasi dairələrində yüksək qiymətləndirilir. Avropa İttifaqının (Aİ) xarici siyasət rəhbəri Kaya Kallas Lüksemburqda Aİ ölkələrinin xarici işlər nazirlərinin görüşünün yekunlarına dair mətbuat konfransında bildirmişdi ki, Azərbaycanın enerji sahəsində etibarlı tərəfdaş kimi qiymətləndirilməsi təsadüfi deyil. Avropa özünün resurs ehtiyaclarını qarşılamaq üçün rəsmi Bakını ən etibarlı strateji müttəfiq qismində qəbul edir. Xüsusən qitənin enerji təhlükəsizliyi məsələsinin kəskinləşdiyi dövrdə Bakı ilə əməkdaşlıq həm də zəruri seçimdir.

Prezident İlham Əliyev aprelin 27-də Qəbələdə Çexiyanın Baş naziri ilə görüşündə bu məqamı vurğulamış, Azərbaycanın dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasında olduğunu demişdi: "Bunu o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür".

Perspektivdə Azərbaycan Avropa istiqamətində qaz ixracının həcmini də genişləndirməyi planlaşdırır. Bu, bir çox ölkənin sözügedən layihələrdən bəhrələnmək marağını artırır. "Cənub qaz dəhlizi" layihəsi xüsusi çəkisi ilə fərqlənir və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Statistik göstəricilər də bu dinamikanı təsdiqləyir. 2025-ci ildə Azərbaycanın ixrac etdiyi 25 milyard kubmetr qazın 13 milyard kubmetri Aİ ölkələrinə yönəlib. Bu da 2021-ci illə müqayisədə təxminən 60 faizlik artım deməkdir.

Qərb ölkələri ilə dinamik şəkildə genişlənən əməkdaşlıq Bakının bütövlükdə Avropa İttifaqı ilə olan münasibətlərinə müsbət impuls verir. Avropa dövlətləri ilə enerji müstəvisində qurulan sıx dialoq siyasi əlaqələrin canlanmasına və tərəflər arasında strateji tərəfdaşlıq bağlarının daha da möhkəmlənməsinə münbit şərait yaradır.

Tərəflər arasında münasibətlər yalnız enerji resurslarının ixracı ilə məhdudlaşmır. Logistika, nəqliyyat dəhlizləri və regional inteqrasiya layihələri də gündəmdədir. Azərbaycanın geoiqtisadi mövqeyi, Şərqlə Qərbi birləşdirən əsas qovşaq funksiyası Aİ üçün xüsusi əhəmiyyət daşıyır. Bu isə Bakı-Brüssel xəttində əməkdaşlığı daha çoxşaxəli və dayanıqlı edir. Xüsusilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) Azərbaycanın qitə üçün logistik əhəmiyyətini daha da artırır.

Ölkəmizin qovşaq statusuna bu il aprelin 27-də Qəbələdə keçirilən Azərbaycan-Çexiya biznes-forumunda dövlətimizin başçısı tərəfindən diqqət yönəldildi. Prezident İlham Əliyev Azərbaycanın qlobal bağlantı rolunun əhəmiyyətindən danışdı: "Bu gün biz "Şərq-Qərb" nəqliyyat dəhlizinə geniş sərmayə yatırırıq və bu gün ənənəvi təchizat zəncirinin kəsilməsinə, logistika və tranzitlə bağlı problemlərə görə bu dəhlizə heç vaxt olmadığı kimi ehtiyac var. Beləliklə, Azərbaycan Şərqdən Qərbə və əks istiqamətdə, hətta Şimaldan Cənuba və Cənubdan Şimala təhlükəsiz və etibarlı tranziti təmin edir. Biz hər iki dəhlizin kəsişməsində yerləşirik və son illərdə infrastruktura geniş investisiyalar ilə biz bir çox ölkələrə lazım olan bu böyük aktivi artıq yaratmışıq".

Yaxın Şərqdə hökm sürən qeyri-sabitlik, Rusiya-Ukrayna müharibəsi və digər münaqişələr qlobal ticarət yollarının konfiqurasiyasına ciddi təsir edərək, ölkəmizin tranzit potensialının aktuallığını artırıb. Şərqlə Qərbin qovşağında yerləşən ölkəmizin əlverişli coğrafi mövqeyi və yürüdülən balanslaşdırılmış siyasət Azərbaycanı Avropa İttifaqı üçün həyati əhəmiyyət kəsb edən tərəfdaş statusuna daşıyıb. Xüsusilə Çinlə Aİ arasında nəqliyyat-logistika zəncirinin qurulmasında ölkəmizin payı günbəgün yüksəlməkdədir. Hazırda Çindən Avropaya yük axını müxtəlif istiqamətlər üzrə şaxələndirilib və bu proses orta hesabla 15-20 günlük zaman çərçivəsində reallaşır. Orta dəhlizin tam gücü ilə işləməsi və perspektivdə Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi bu marşrutun rəqabətqabiliyyətliliyini əhəmiyyətli dərəcədə artıracaq. Nəticədə Çin, Qazaxıstan, Azərbaycan, Türkiyə və Şərqi Avropa istiqamətini birləşdirən daha çevik və səmərəli logistik şəbəkə yaranacaq.

Nəticə etibarilə son günlərdə diplomatik təmasların intensivləşməsi dövlətimizin beynəlxalq müstəvidə mövqeyini sarsılmaz edir. Əlbəttə, bütün bu diplomatik və iqtisadi nailiyyətlərin təməlində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş və uzaqgörən xarici siyasi kurs dayanır. Dövlətimizin başçısının milli maraqlara söykənən prinsipial mövqeyi Azərbaycanı qlobal siyasi arenada mühüm qərarların qəbulunda söz sahibi olan strateji mərkəzə çevirib. Azərbaycanın Avropanın enerji xəritəsini yenidən cızması məhz dövlətimizin başçısının illər öncədən hədəflədiyi strateji uzaqgörənliyin nəticəsidir. Prezident İlham Əliyevin regionda yaratdığı yeni geosiyasi reallıqlar Azərbaycanı Şərqlə Qərb arasında ən etibarlı logistik qovşağa çevirərək, ölkəmizin gələcək onilliklər üçün iqtisadi qüdrətini təminat altına alıb.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Beynəlxalq birliyin Azərbaycana yeni baxışı

**Prezident İlham Əliyevin son birhəftəlik iş qrafikinə nəzər saldıqda Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində qələbəsi ilə qazandığı regional güc imicinin tədricən qlobal lokomotiv formatına transformasiya olunduğuna şahidlik edirik. Çexiyanın Baş naziri Andrey Babişin Azərbaycana səfəri çərçivəsində Qəbələdə Prezident İlham Əliyevlə birlikdə mətbuata bəyanatlarla çıxışı zamanı ifadə etdiyi kimi, qısa müddət öncə Ukrayna Prezidentinin Azərbaycana gəlişi, hazırda isə İtaliyanın Baş naziri Corcia Meloninin gözlənilən səfəri Azərbaycanın dünyanın diqqət mərkəzində olmasını və ölkəmizin beynəlxalq əhəmiyyətini bir daha nümayiş etdirir. Aydındır ki, dövlətimizin liderlik mövqeyinin güclənməsində ehtiva olunan cari reallıq tarixi proseslərin təbii axarında formalaşmayıb. Bu prosesin təməlində ciddi siyasi iradədən hərbi gücə, iqtisadi imkanlardan sosial siyasətə qədər çoxşaxəli fəaliyyətin uğurlu menecmenti dayanır.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, ilkin mərhələdə uğurla realizə olunan neft strategiyası ölkənin siyasi və iqtisadi müstəqilliyinin tam şəkildə bərqərar olunmasına, nəticə etibarilə tam müstəqil hərəkət qabiliyyətinə malik subyekt qismində siyasi iradə nümayiş etdirməyə imkan yaradıb. Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxvektorlu xarici siyasət kursunda ümumbəşəri dəyərlərin və beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin rəhbər tutulması, başqa dövlətlərin ərazi bütövlüyünə və müstəqilliyinə qəsd vasitəsi və münaqişələrin həlli üsulu kimi müharibənin rədd edilməsi, eləcə də bütün dünya xalqları ilə sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu istiqamətdə əməkdaşlıq etmək vəzifələrinin prioritet olaraq müəyyən edilməsi Azərbaycanın qlobal birliyin məsuliyyətli imicini formalaşdırıb. "Bəşəriyyətin çətin sınaqlara məruz qaldığı həssas dönəmdə Prezident İlham Əliyevin təşəbbüsləri ələ alması, istər pandemiya, istər vaksin milliyyətçiliyi, istər neoimperialist niyyətlər, istərsə də neokolonializm qarşısında qətiyyətli mövqe ifadə etməsi ölkəmizin beynəlxalq arenada hərəkətverici mövqeyini möhkəmləndirdi. Azərbaycanın Vətən müharibəsində və antiterror tədbirlərində böyük zəfərləri ilə BMT Təhlükəsizlik Şurası və BMT Baş Assambleyasının qətnamə və qərarları başda olmaqla, çoxsaylı beynəlxalq və regional mexanizmlərin qərarlarına məhəl qoyulmayan və cəzasızlıq mühiti presedenti yaratmaqla, ümumbəşəri təhdidə çevrilən işğal amilinə öz gücü və imkanları hesabına son qoyması, eləcə də son iki əsrin həlli faktiki mümkünsüz görünən separatizm amilinin tam şəkildə aradan qaldırılması ölkəmizin paralel olaraq müasir nizam qurucusu obrazını formalaşdıraraq daha da möhkəmləndirdi", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycanın bir çox beynəlxalq tədbirə evsahibliyi etməsi, eləcə də beynəlxalq təsisatlarda idarəçi qismində uğurlu təcrübə ortaya qoyması Prezident İlham Əliyevin rəsmi Bakının təşəbbüslərə qoşulan subyektdən təşəbbüskara, daha dəqiq desək, daha sabit dünya, daha yaxşı rifah naminə real mexanizmlərə malik ideyaların yaradıcısına və uğurlu icraçısına çevrilməsi bütövlükdə ölkəmizə beynəlxalq birliyin baxışını dəyişdi. Nəticə etibarilə bir vaxtlar BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icra edilməməsinə məhəl qoymayan beynəlxalq birlik məhz Azərbaycanın güc və imkanlarının hesabına yaranan yeni reallığın qəbulunda ehtiva olunan aydın mövqe nümayiş etdirməyə başladı. Dövlət başçısının rəhbərliyi altında ölkədə iqtisadi mühitin sağlamlaşdırılmasından məhkəmə-hüquq islahatlarına qədər atılan çoxşaxəli addımlar, eləcə də çoxsaylı maneələrə baxmayaraq, reallaşdırılan transmilli layihələr Azərbaycanı etibarlı investisiya mühitinə və qlobal əhəmiyyətli nəqliyyat-kommunikasiya habına çevirdi. "Məhz dövlət başçımızın qətiyyəti ilə realizə olunan transmilli layihələr, o cümlədən enerji infrastrukturları Azərbaycana nəinki öz ehtiyatlarını dünya bazarına çıxarmağa imkan verdi, üstəlik, Aİ-nin üzvləri də daxil olmaqla dünyanın 16 ölkəsinin enerji təhlükəsizliyində, dolayısı ilə milli təhlükəsizliyində Bakını söz sahibinə çevirdi. Həmçinin Prezident İlham Əliyevin hərbi-siyasi qələbələrin nəticələrinin dayanıqlı sülh və sabitliyə keçidini təmin etməsi yalnız Azərbaycan üçün yox, bütövlükdə Cənubi Qafqaz üçün tam yeni dövr başlatmış oldu. Bu mürəkkəb coğrafiyada öz maraqlarını daim münaqişələr hesabına təmin etməyə alışmış güclər məhz Azərbaycan Prezidentinin formalaşdırdığı konfiqurasiya qarşısında təslim olaraq bərabərhüquqlu əməkdaşlıq mühitinin daha çox fayda gətirə biləcəyinə əməli şəkildə şahid oldular. Xüsusən Azərbaycan və Ermənistan arasında Prezident İlham Əliyevin təşəbbüsləri üzərində qurulan sülh reallığının de-fakto sülhlə nəticələnməsi, o cümlədən Vaşinqton razılaşmasının ardınca iki dövlət arasında sülhün və dövlətlərarası münasibətlərin bərqərar edilməsinə dair Sazişin paraflanması, Azərbaycanın Ermənistana tranzit daşımalarla bağlı məhdudiyyəti aradan qaldırması, eləcə də ilkin ticari əlaqələrin formalaşması, habelə sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində ilkin uğurların müşahidə olunması cari reallıqların bünövrəsini daha da möhkəmləndirdi. Beləliklə, ABŞ, Rusiya, Fransa və digər iri güclərin də etiraf etdikləri kimi, sülh quruculuğu üzrə uğurlu Azərbaycan modeli ortaya çıxdı", - deyə deputat bildirib.

B.Məhərrəmov vurğulayıb ki, dialoqdansa daha çox hərbi ritorikaya üstünlük verildiyi müasir dövrdə, təbii ki, uğurlu sülh modelinə nail olmaq mümkünsüz kimi görünür, lakin Azərbaycanın yaratdığı əmsal mübaliğəsiz formada bəşəriyyət üçün nicata çevrilməyə başlayıb. Təbii ki, bu nümunə dünya xalqları, ələlxüsus münaqişələrdən əziyyət çəkən tərəflər üçün ümid işığına çevrilib. Təsadüfi deyil ki, Azərbaycana işgüzar səfəri çərçivəsində dünyanın ən qaynar nöqtələrindən biri və Şərqlə Qərb arasında faktiki qırılma nöqtəsi sayılan Ukraynanın Prezidenti məhz ölkəmizin nümunəsinə müraciət edilməsinin vacibliyini önə çəkərək Rusiya ilə danışıqlarda Azərbaycanın evsahibliyi və vasitəçiliyi roluna açıq mətnlə inamını bildirdi. Cəmi 6 il əvvəl işğal, təcavüzə məruz qaldığı, separatizmdən əziyyət çəkdiyi dövrdə Azərbaycanın nəinki öz problemlərini həll edəcəyi, üstəlik, qlobal miqyasda münaqişələrə son qoyulması, əməkdaşlıq mühitinin yaranması, iqtisadi bağların uğurla qurulması istiqamətində liderlik nümayiş etdirəcəyini təsəvvürə gətirmək çətin idi. Lakin Prezident İlham Əliyev fəaliyyətinin bütün dövründə olduğu kimi, gələcəyə inamlı idi və onun Azərbaycanın müasir qlobal aktor mövqeyinə çatmasında bu inam və qətiyyət həlledici amil kimi çıxış etdi. Yuxarıda da qeyd etdiyimiz kimi, bu reallıqların təməlində bir çox amil dayanır, o cümlədən ölkəmizin yerləşdiyi coğrafi mövqe, malik olduğu zəngin sərvətlər prosesdə müstəsna əhəmiyyətə malikdir. Lakin unutmayaq ki, Azərbaycan dünyanın ən zəngin təbii sərvətlərə və ən uğurlu coğrafiyasına malik yeganə dövlət deyil. Bu gün ciddi ehtiyatları və uğurlu coğrafi mövqeyi bir çox dövlət üçün mənfəətdən daha çox zərərə gətirib çıxaran situasiyaya səbəb olur, o cümlədən də Azərbaycan uzun bir dövr ərzində özünün coğrafi mövqeyi və təbii sərvətlərinə görə işğalçıların və imperialist dairələrin çirkin maraqlarının toqquşduğu məkana çevrilmişdi.

Deputat qeyd edib ki, məhz Ulu Öndərin siyasi kursu və Prezident İlham Əliyevin qətiyyətli liderliyi ilə tarixdə ilk dəfə olaraq Azərbaycan özünün təbii sərvətlərini uğurla milli zənginliyə və insan kapitalına çevirə, həmçinin strateji coğrafi mövqeyini xalqın rifahına aparan dividendə transformasiya edə bilib: "Məhz bu siyasət Azərbaycanı bir vaxtlar çörəyə möhtac, elektrik enerjisini fasilələrlə təmin edən dövlətdən hazırda Avropanın əsas enerji təminatçılarından birinə, həmçinin alternativ enerji sahəsində adı dünya nəhəngləri ilə bərabər çəkilən, bu sahədə titanik layihələrə start vermiş dövlətə çevirmişdi. Qısa dövr ərzində Azərbaycanın əyalət şəhəri olan Qəbələyə dövlət və hökumət başçılarının səfərləri və verdiyi bəyanatların da təməlində cənab İlham Əliyevin siyasi iradəsi və dönməz qətiyyəti ilə formalaşan cari situasiya dayanır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Çexiya əlaqələri çoxvektorlu səciyyə daşıyır

**Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasət kursunda yaxın və uzaq coğrafiyalarda yerləşən ölkələrlə strateji tərəfdaşlıq münasibətlərinin qurulması xətti xüsusi yer tutur. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi bu davamlı kursun uğurla reallaşdırılmasının nəticəsidir ki, hazırda respublikamızın həm geniş islam coğrafiyasında, həm də Avropa İttifaqı məkanında çoxlu sayda strateji tərəfdaşlıq münasibətləri qurduğu ölkələr var. Belə ölkələrdən biri də Avropa İttifaqının üzvü olan Çex Respublikasıdır.**

Milli Məclisin deputatı Pərvin Kərimzadə qəzetimizə açıqlamasında bildirib ki, Çex Respublikasının Baş naziri Andrey Babişin ölkəmizə rəsmi səfəri inkişaf edən qarşılıqlı əlaqələrin göstəricisidir. Aprelin 27-də Qəbələdə Prezident İlham Əliyevlə Baş nazir Andrey Babişin görüşündə bu və digər məsələlərlə bağlı önəmli müzakirələr aparılıb.

Deputat xatırladıb ki, Çex Respublikası Azərbaycanın müstəqilliyini 8 yanvar 1992-ci ildə tanıyıb və iki ölkə arasında diplomatik münasibətlər 27 yanvar 1993-cü ildə qurulub: "Münasibətlərin yüksələn xətlə inkişafına dövlət başçılarının səfərləri güclü impuls verir. İndiyədək Azərbaycan Prezidentinin Çexiyaya 5 səfəri baş tutub. Sonuncu səfər 6-7 oktyabr 2022-ci il tarixlərində olub. Öz növbəsində Çexiya prezidentləri Azərbaycana iki dəfə rəsmi səfər ediblər. Sonuncu səfər Miloş Zeman tərəfindən 15-17 sentyabr 2015-ci ildə reallaşdırılıb. Bundan başqa, hər iki ölkənin digər yüksəksəviyyəli rəsmilərinin də tez-tez qarşılıqlı səfərləri baş tutur. Parlamentlərarası əlaqələr də yüksək səviyyədədir. Milli Məclisdə Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə İşçi qrupu, həmçinin Çexiya parlamentinin Deputatlar Palatasında Çexiya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə İşçi qrupu fəaliyyət göstərir".

P.Kərimzadənin fikrincə, Çexiya-Azərbaycan münasibətlərinin institusional bazası kifayət qədər möhkəmdir. 2011-ci ildən fəaliyyət göstərən iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiya bu münasibətlərin institusional əsasını təşkil edir. 2015-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə Azərbaycan-Çexiya münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edib. Bu sənəd yalnız siyasi deyil, həm də iqtisadi, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yol xəritəsi



rolunu oynayıb. Eyni zamanda beynəlxalq hüququn əsas prinsiplərinə, o cümlədən ərazi bütövlüyünə dəstək bu tərəfdaşlığın etibarlı olduğunu göstərir.

Deputat qeyd edib ki, Azərbaycanla Çexiya arasında əlaqələr müxtəlif istiqamətləri əhatə etməklə çoxvektorlu səciyyə daşıyır: "Hər iki tərəf qarşılıqlı maraqları əsas götürməklə münasibətlərin daha da möhkəmlənməsində güclü siyasi iradə nümayiş etdirir və buna uyğun olaraq da əlaqələr genişlənir. Hazırda dünyada izlənilən geosiyasi proseslər fonunda Cənubi Qafqaza maraq əhəmiyyətli dərəcədə artıb ki, bu da təsadüfi deyil. Xüsusilə də Yaxın Şərqdə və Şərqi Avropada müharibələrin alovlanması, Şimal marşrutlarından, Hörmüz boğazından keçidlərin təhlükəli hal alması, sabit məkan kimi Cənubi Qafqazı diqqət mərkəzinə gətirib. Buradan keçən Orta dəhlizin funksionallığının getdikcə artması bunu əyani şəkildə təsdiqləyir. Mühüm məqam isə ondan ibarətdir ki, Azərbaycan regionda proseslərin əsas aktoru qismində çıxış edir. Ölkəmiz uzunmüddətli sabitliyə, nümunəvi təhlükəsizlik mühitinə malikdir. Böyük investisiya qoyuluşu hesabına yaradılan yüksəksəviyyəli nəqliyyat-logistika infrastrukturu, qonşularla yaxşı münasibətlər tranzit daşımaları üçün ideal şəraiti təmin edir. Prezident İlham Əliyevin dediyi kimi, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Burada da uzun illər ərzində Çexiya və Azərbaycan çox etibarlı tərəfdaşlardır. Azərbaycan nefti Çexiyaya ixrac edilir və Çexiyanın enerji balansında önəmli yer tutur".

P.Kərimzadə deyib ki, bunu Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10-u Avropa İttifaqının üzvüdür. O cümlədən Azərbaycan Çexiyaya qonşu olan ölkələrə təbii qaz ixrac edir. Çexiyanın Baş naziri Andrey Babiş də Azərbaycanı ölkəsinin strateji tərəfdaşı adlandırıb.

"Regionda müşahidə edilən diplomatik fəallıq fonunda dünya ölkələri, ayrı-ayrı beynəlxalq təşkilatlar respublikamıza böyük maraq göstərirlər. Son vaxtlarda Litvanın Baş naziri İnqa Ruqinienenin, Latviya Prezidenti Edqars Rinkeviçsin və Ukrayna Prezidenti Volodimir Zelenskinin ölkəmizə səfərləri bu dinamikanın təsadüfi olmadığını göstərir. Bu proseslər beynəlxalq arenada Azərbaycanın artıq yalnız enerji tərəfdaşı deyil, həm də siyasi dialoq və çoxtərəfli əməkdaşlıq üçün etibarlı platforma kimi qəbul edildiyini təsdiqləyir. Xüsusilə Avropa ölkələrinin Azərbaycana artan marağı onların regionda sabitlik, enerji təhlükəsizliyi və yeni nəqliyyat dəhlizləri ilə bağlı strateji hədəflərindən irəli gəlir. Andrey Babişin respublikamıza səfəri fonunda aydın olur ki, Azərbaycan artıq regional deyil, daha geniş coğrafiyada strateji tərəfdaş kimi qəbul olunur", - deyə deputat əlavə edib.

P.Kərimzadə bildirib ki, qarşılıqlı münasibətləri strateji tərəfdaşlığın ruhuna uyğun şəkildə inkişaf etdirməkdə maraqlı olan Azərbaycanla Çexiya beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, Avropa İttifaqı çərçivəsində də sıx əməkdaşlıq edirlər. Çexiya hər zaman Azərbaycanın ərazi bütövlüyünə, ölkəmizin Aİ ilə əlaqələrinin genişlənməsinə dəstək verib. Bu ölkənin Baş nazirinin Azərbaycana rəsmi səfəri isə qarşılıqlı əlaqələrimizi daha da gücləndirəcək.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

**Qanun layihələri və onların şərhi**

# Maliyyə icarəsi fəaliyyətinin təkmil hüquqi əsasları yaradılır

**Milli Məclisdə "Maliyyə icarəsi haqqında" yeni qanun layihəsi birinci oxunuşda təsdiq olunub. Belə bir qanunun qəbul edilməsini zəruri edən əsas amil maliyyə icarəsi fəaliyyətinin hüquqi əsaslarını müəyyən etmək və bu sahədə münasibətlərin sistemli şəkildə tənzimlənməsidir.**

Qanun layihəsinin Milli Məclisdə müzakirəsi zamanı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, maliyyə icarəsi iqtisadi mahiyyətinə görə investisiyayönümlü maliyyələşmə alətidir. İkitərəfli bank kreditləşməsindən və icarə münasibətlərindən fərqli olaraq, maliyyə icarəsi icarəyə verən, satıcı və icarəçinin iştirak etdiyi üçtərəfli sxemə əsaslanır. Bu mexanizm vasitəsilə sahibkar, yəni icarəçi böyük həcmli ilkin kapital qoyuluşu etmədən istehsal və ya xidmət fəaliyyəti üçün zəruri olan avadanlığı, texnikanı və digər əsas vəsaitləri əldə etmək imkanı qazanır.

Qeyd edək ki, qanun layihəsi 5 əsas fəsildən ibarətdir. Birinci fəsildə ümumi müddəalar müəyyən edilir, əsas anlayışlar izah olunur, maliyyə icarəsi fəaliyyətinin hüquqi əsasları və tətbiq dairəsi göstərilir. Burada maliyyə icarəsinin subyektləri - icarəyə verən, icarəçi və satıcı müəyyən olunur, maliyyə icarəsinin obyekti kimi sahibkarlıq fəaliyyətində istifadə olunan əsas vəsaitlər nəzərdə tutulur. İkinci fəsildə maliyyə icarəsi müqaviləsi üzrə münasibətlər, ödəniş mexanizmi, tərəflərin hüquq və vəzifələri, subicarə imkanları və müqavilənin vaxtından əvvəl ləğvi halları müəyyən edilir. Üçüncü fəsildə maliyyə icarəsi subyektlərinin əmlak hüquqlarının qorunması, risklərin bölüşdürülməsi və sığorta mexanizmləri nəzərdə tutulur. Bu yanaşma maliyyə bazarında etibarlılığı və hüquqi sabitliyi gücləndirir. Dördüncü fəsil maliyyə icarəsi fəaliyyəti üzrə tənzimləmə və nəzarət məsələlərinə həsr olunur. Maliyyə icarəsi ilə məşğul olan şirkətlər maliyyə bazarının subyektləri hesab edildiyinə görə, onlar bu bazarın requlyatoru olan Mərkəzi Bankın tənzimləmə və nəzarət dairəsinə daxil edilir. Beşinci fəsil qanunvericiliyin pozulmasına görə məsuliyyəti və keçid müddəalarını əks etdirir.



Qanun layihəsi maliyyə icarəsini yerinə yetirən şirkətlərin fəaliyyətinə ciddi nəzarət sistemini təmin edir. Belə ki, maliyyə icarəsi xidməti göstərmək istəyən hüquqi şəxslər Mərkəzi Bankın yaradacağı xüsusi reyestrdə qeydiyyatdan keçməlidirlər. Reyestr sisteminin tətbiqi isə bu sektorda şəffaflığın artırılmasına, risklərin öncədən müəyyən edilməsinə və müştəri hüquqlarının qorunmasına münbit şərait yaradacaq.

Mövzu ilə bağlı iqtisadçı Eldəniz Əmirov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, sözügedən qanun müvafiq sahə üzrə müxtəlif istiqamətlərdə mühüm yenilikləri özündə ehtiva edir: "Lizinqin "maliyyə icarəsi" kimi terminləşdirilməsi müsbət haldır və bu, bazarın hüquqi əsaslarının möhkəmlənməsinə xidmət edəcək. Bu qanun maliyyə icarəsi bazarının formalaşmasına töhfə verməklə yanaşı, sahibkarların alternativ maliyyə mənbələrinə çıxışını genişləndirir. Bu isə həm iqtisadi dövriyyənin, həm də investisiya aktivliyinin artmasına səbəb olacaq".

İqtisadçının fikrincə, bu qanun həm də maliyyə intizamının güclənməsinə səbəb olacaq. Doğrudur, indiyə qədər sahibkarlar kredit alarkən ağır girov şərtləri ilə üzləşirdilər, lakin maliyyə icarəsi bu problemi kökündən həll edir. Belə ki, maliyyə icarəsi zamanı əmlakın özü girov rolunu oynadığı üçün əlavə təminat tələbi aradan qalxır.

E.Əmirov diqqətə çatdırıb ki, yaxın illərdə bu mexanizmin tətbiqi nəticəsində kreditlərə alternativ maliyyə alətləri daha da güclənə bilər. Sahibkarlar üçün ilkin böyük vəsaitə ehtiyac yarandıqda maliyyə icarəsi bu boşluğu qismən doldura biləcək.

Xüsusilə qeyd etmək olar ki, kənd təsərrüfatı və emal sənayesi kimi sahələrdə bahalı texnikaların əldə olunması kiçik və orta biznes subyektləri üçün əlçatan olacaq. Əlbəttə ki, bu da ölkədə qeyri-neft sektorunun inkişaf sürətinə birbaşa təsir göstərəcək.

"Bu sistem eyni zamanda avadanlıq və texnologiyalara çıxışı asanlaşdıracaq, kiçik və orta biznesin investisiya imkanlarını genişləndirəcək və banklardan asılılığı müəyyən qədər azaldacaq. Risklərin idarə olunması və aktivlərin dövriyyəsinin sürətlənməsi baxımından da bu qanunun maliyyə sektoruna müsbət təsirləri gözlənilir", - deyə Eldəniz Əmirov əlavə edib.

"Maliyyə icarəsi haqqında" yeni qanun layihəsi qüvvəyə mindikdən sonra maliyyə bazarında daha rəqabətli, şəffaf və dinamik bir mühit yaranacaq. Görünən odur ki, dövlətin bu istiqamətdəki siyasəti həm daxili istehsalın stimullaşdırılmasına, həm də müasir texnologiyaların ölkəyə gətirilməsinə geniş qapılar açacaq. Bu qanun ölkəmizdə maliyyə bazarlarının inkişafı, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, real sektorun investisiya fəaliyyətinin dəstəklənməsi və dayanıqlı iqtisadi artım baxımından mühüm əhəmiyyət kəsb edəcək.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Aprel: neysandan leysana, bərəkətdən fəlakətə

## Dövlət təbii fəlakətlərdən ziyan çəkən vətəndaşlarının yanında olduğunu növbəti dəfə sübut etdi

**Xalq təqvimində aprel iqlim dəyişmələrinə görə ən təzadlı ay hesab olunur. Müxtəlif illərdə fərqli olsa da, demək olar ki, bu ayda hər gün təbiət dəyişməsi baş verir. Kənddə yaşayanlar yaxşı bilirlər: bir neçə saatlıq aprel yağışı günəşin işığı ilə birləşərək, torpağı, çiçəyi, hətta həyatın ritmini belə dəyişdirir. Bu da göstərir ki, aprel yalnız günlərlə deyil, saatlarla da ölçülə biləcək bir möcüzədir.**

Apreldə yağan yağışa xalq arasında "neysan", ya da "abi-neysan" deyirlər. Bəzi tədqiqatçılar bunu leysanla eyniləşdirirlər. Halbuki leysan gur, fasiləsiz və bəzən dağıdıcı, neysan isə məhz apreldə yağan incə yağışdır. Bu yağış bitkilərin boy atmasında, əkin sahələrinin canlanmasında əvəzsiz rol oynayır. Xalq yaddaşında abi-neysan həmişə sevinclə, bərəkətlə assosiasiya olunub. Amma bu il təbiət qapıları erkən döydü: yağışlar martdan başladı və özü ilə Azərbaycana yazın tələsən nəfəsini, torpağın qışdan sonra ilk oyanışını səs-küylə, fəlakətlə gətirdi. Yağışlar bu dəfə adi yağış deyildi. Xalqın "abi-neysan" adlandırdığı o mübarək yaz yağışları sanki öz adını dəyişib "leysan" qoymuşdu - daha gur, daha inadlı, daha coşqun yağırdı. Və beləliklə, yaz öz gəlişini bir az tələsik, bir az coşqun, amma həmişəki kimi möhtəşəm şəkildə deyil, əksinə, sərt bir üslubla, gücünü gizlətmədən, kəndin və şəhərin ritmini pozaraq elan etdi.

Belə sərtliyin ən aydın hiss olunduğu məkanlardan biri də Bakı oldu. Sel yağışları paytaxtın küçələrinə elə bir sürətlə doldu ki, şəhərin gündəlik ahəngi bir anda dəyişdi. Drenajların gücü bu coşqun axına tab gətirmədi, kanalizasiyalar daşdı, yollarda dərin gölməçələr yarandı, az qala həyat dayandı. Güclü yağışlar səbəbindən bir sıra ərazilərdə küçə və prospektlər su altında qaldı, nəqliyyatın hərəkətində ciddi çətinliklər yarandı. Bir çox yaşayış binasının zirzəmiləri və həyətləri su ilə doldu, sakinlərin gündəlik həyatında ciddi narahatlıqlar müşahidə olundu. Yağış həyat verən bir nemət olduğu halda bu dəfə onun dağıdıcı gücü Bakının zəif nöqtələrini üzə çıxardı.

Yaranmış bu çətin vəziyyət təkcə təbiət hadisəsinin gücünü deyil, həm də onunla mübarizədə operativliyin və çevik idarəetmənin çox vacib olduğunu ortaya qoydu. Məhz bu məqamda əlaqədar dövlət qurumları vəziyyətə dərhal reaksiya verərək, şəhər üzrə yaranmış problemlərin aradan qaldırılması və əhalinin təhlükəsizliyinin təmin olunması istiqamətində təxirəsalınmaz tədbirlərə başladılar. Fövqəladə xidmətlər gücləndirilmiş rejimdə çalışdı, su basmış ərazilərdə operativ müdaxilələr həyata keçirildi, infrastrukturun bərpası və normal həyat axınının təmin olunması üçün ardıcıl işlər görüldü.



Bu məqamda proseslərin mahiyyətini və görülən işlərin əhəmiyyətini daha aydın ifadə etmək üçün Prezident İlham Əliyevin hələ yanvarın 12-də "Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı"na həsr olunan müşavirədə söylədiklərinə nəzər yetirək: "Leysan yağışları yağan kimi şəhər nəqliyyatı iflic vəziyyətinə düşür, çox ciddi problemlər yaşanır. Düzdür, bu, təkcə Bakıda, Azərbaycanda deyil. Biz televiziya verilişlərində dünyanın istənilən yerində bunu görürük. Hətta ən inkişaf etmiş hər ölkənin şəhərlərində də daşqınlar adi hal alıb. Heç bir şəhərin infrastrukturu imkan vermir ki, əgər şiddətli leysan yağışları bir neçə gün davam etsə, bunu idarə etmək mümkün olsun. Ancaq buna baxmayaraq, bizim də bu sahədə zəif yerlərimiz kifayət qədər çoxdur. Ona görə yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi də qurulacaq və bunun çox böyük faydası olacaq".

Bu fikirlər bir daha göstərir ki, dövlət başçısı şəhər infrastrukturunun təkmilləşdirilməsini və təbiət hadisələrinin doğurduğu fəsadların minimuma endirilməsini daim diqqət mərkəzində saxlayır. Amma Prezident İlham Əliyevin bu istiqamətdə qayğısı təkcə səsləndirilən fikirlərlə məhdudlaşmır. Onun bu günlərdə "Sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında" imzaladığı sərəncam dövlətin bu sahəyə sistemli və ardıcıl yanaşmasını təsdiqləyir. Sənəd ona dəlalət edir ki, Prezident İlham Əliyev tərəfindən təbii fəlakətlərin fəsadlarının azaldılması, şəhər infrastrukturunun dayanıqlılığının gücləndirilməsi və əhalinin təhlükəsizliyinin təmin olunması istiqamətində kompleks və davamlı dövlət siyasəti ardıcıl şəkildə həyata keçirilir.

Sərəncama əsasən, 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün ümumilikdə 85 milyon 869 min 260 manat ayrılıb. Bu vəsait sel və daşqınlardan zərər çəkmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə yönəldiləcək. Buraya vətəndaşların evlərinin təmiri və yenidən tikintisi, yol, elektrik və su təchizatı kimi infrastrukturun bərpası, həmçinin kompensasiya ödənişləri daxildir. Görüləcək tədbirlər əhalinin sosial rifahının və normal həyat şəraitinin bərpasına xidmət edir.

Qeyd edək ki, beynəlxalq təcrübə ilə müqayisədə Azərbaycanda bu cür hallara reaksiyanın operativliyi xüsusi diqqət çəkir. Bir çox ölkədə yardım və bərpa prosesləri uzun vaxt apardığı halda Prezident İlham Əliyevin birbaşa sərəncamı ilə vəsait dərhal ayrılır və işlər çevik şəkildə icra olunur. Unutmaq olmaz ki, ayrılan vəsait həm də gələcək risklərin azaldılmasına yönəldiləcək. İstinad divarlarının tikintisi, drenaj və suötürücü sistemlərin təkmilləşdirilməsi kimi tədbirlər ölkənin infrastruktur dayanıqlılığını gücləndirərək iqlim dəyişiklikləri fonunda baş verə biləcək oxşar hadisələrin təsirini minimuma endirməyə xidmət edəcək.

Həmin vəsait çərçivəsində Fövqəladə Hallar Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və "Azərişıq" ASC tərəfindən həyata keçiriləcək tədbirlər həm paytaxtda, həm də regionlarda infrastrukturun bərpasına və gücləndirilməsinə müsbət təsir göstərəcək. Görülən işlər nəticəsində Bakı şəhərində və ölkənin müxtəlif bölgələrində su təsərrüfatı və yol infrastrukturunun təkmilləşdirilməsi, sel və daşqın risklərinin azaldılması istiqamətində əhəmiyyətli irəliləyişlərin əldə olunacağı gözlənilir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Vətəndaşların rifahının yüksəldilməsi, təhlükəsizliyi və sosial müdafiəsi həmişə prioritet olub

**Prezident İlham Əliyev tərəfindən sel və daşqınların nəticələrinin aradan qaldırılması ilə bağlı imzalanmış son sərəncam dövlətin vətəndaşlara yönəlik sosial siyasətinin ardıcıl və çevik şəkildə davam etdirildiyini bir daha təsdiqləyir. Xüsusilə qeyd etmək lazımdır ki, bu qərar yalnız mövcud problemlərin aradan qaldırılmasına deyil, eyni zamanda gələcək risklərin azaldılmasına hesablanmış kompleks yanaşmanı özündə ehtiva edir.**



Milli Məclisdə təmsil etdiyim bölgələrin də bu sərəncam çərçivəsində əhatə olunması xüsusi əhəmiyyət daşıyır. Çünki son dövrlərdə baş verən intensiv yağıntılar nəticəsində bəzi yaşayış məntəqələrində evlərə, təsərrüfatlara və infrastruktur obyektlərinə ciddi ziyan dəyib. Ayrılan vəsait hesabına zərərçəkmiş vətəndaşların evlərinin bərpası, yeni fərdi yaşayış evlərinin tikintisi, eləcə də yol, elektrik və su təchizatı kimi mühüm infrastrukturun yenidən qurulması insanların gündəlik həyatına müsbət təsir göstərəcək.

Bu sərəncamın ən mühüm cəhətlərindən biri onun operativliyi və konkret nəticələrə hesablanmasıdır. Dövlət başçısının birbaşa tapşırığı ilə vəsaitin qısa müddətdə ayrılması və icra mexanizmlərinin dərhal işə salınması göstərir ki, Azərbaycanda vətəndaşların problemlərinə biganə yanaşma yoxdur. Əksinə, hər bir müraciət, hər bir problem dövlət səviyyəsində diqqətlə qiymətləndirilir və çevik qərarlar qəbul olunur.

Digər tərəfdən bu addım yalnız cari ziyanın aradan qaldırılması ilə məhdudlaşmır. İstinad divarlarının tikintisi, drenaj sistemlərinin təkmilləşdirilməsi, suötürücü xətlərin möhkəmləndirilməsi kimi qabaqlayıcı tədbirlər gələcəkdə oxşar halların təsirinin minimuma endirilməsinə xidmət edəcək. Bu isə iqlim dəyişikliklərinin təsirləri fonunda ölkəmizin dayanıqlılığının artırılması baxımından olduqca vacibdir.

Ümumilikdə bu sərəncam bir daha sübut edir ki, Azərbaycan dövləti üçün əsas prioritet vətəndaşın yüksək rifahı, təhlükəsizliyi və sosial müdafiəsidir. Heç bir vətəndaş təbii fəlakətlər qarşısında tək qalmır və dövlət hər zaman onların yanındadır.

*Müşfiq MƏMMƏDLİ,*
*Milli Məclisin deputatı*

# *Dövlət dəstəyi və vətəndaş məmnuniyyəti:*
# Təbii fəlakətin fəsadları aradan qaldırılır

**Məlum olduğu kimi, Prezident İlham Əliyev aprelin 28-də "Sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalayıb. AZƏRTAC Prezidentin müvafiq sərəncamından irəli gələrək sel və daşqınların fəsadlarının aradan qaldırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi və infrastrukturun bərpası istiqamətində həyata keçirilən operativ tədbirlərin əhəmiyyəti barədə məqaləni təqdim edir.**

Mart və aprel aylarında ölkə ərazisində müşahidə olunan qeyri-sabit hava şəraiti, xüsusilə də intensiv xarakter alan güclü leysanlar Bakı şəhəri də daxil olmaqla, respublikanın bir çox bölgəsində təbii fəlakət riskini artıraraq ciddi sel və daşqınlarla nəticələnib. Təbiət hadisəsi nəticəsində çaylardan sel keçməsi, yaxud çayların məcrasından çıxması kənd təsərrüfatı torpaqlarını su altında qoyub, habelə yol-nəqliyyat qovşaqlarına, körpülərə, elektrik və qaz təchizatı kimi strateji infrastrukturlara, vətəndaşların fərdi evlərinə ziyan vurub.

Mövcud vəziyyətin ciddiliyi nəzərə alınaraq, aidiyyəti dövlət qurumları dərhal gücləndirilmiş iş rejiminə keçib, ərazilərin havadan və qurudan kompleks təhlili aparılıb. Görülən operativ və təxirəsalınmaz tədbirlər çərçivəsində sel sularının yaşayış məntəqələrindən uzaqlaşdırılması üçün müasir nasos stansiyaları və xüsusi texnikalar cəlb edilib, suötürücü kanalların lildən təmizlənməsi ilə suların maneəsiz axını bərpa olunub. Xüsusi risk qrupuna daxil olan əhalinin təhlükəsiz zonaya təxliyəsi qısa zamanda başa çatdırılıb, nəqliyyat infrastrukturunun yenidən qurulması istiqamətində genişmiqyaslı təmir-tikinti işlərinə start verilib. Dövlətin operativ müdaxiləsi sayəsində həm maddi ziyanın miqyası minimuma endirilib, həm də həyat təminatlı sistemlərin fasiləsiz fəaliyyəti təmin olunub.



Fəsadların aradan qaldırılmasının daha da sürətləndirilməsi üçün Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncamla Fövqəladə Hallar Nazirliyinə 8 milyon 876 min 210 manat, Bakı Şəhər İcra Hakimiyyətinə 1 milyon 437 min 315 manat, Dövlət Su Ehtiyatları Agentliyinə 21 milyon 443 min 875 manat, Avtomobil Yolları Dövlət Agentliyinə 39 milyon 103 min 600 manat və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə 15 milyon 8 min 260 manat vəsait ayrılıb. Prezidentin Ehtiyat Fondundan ayrılan bu vəsait Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərin davamlılığının təmin edilməsi, habelə gələcəkdə analoji halların təkrarlanmaması üçün həyata keçiriləcək işlərə sərf olunacaq.

Prezidentin bu sərəncamı Azərbaycan dövlətinin yürütdüyü siyasətin mərkəzində insan amilinin, vətəndaşın rifahının və təhlükəsizliyinin dayandığını göstərir. Son dövrlərdə ölkəmizin bəzi bölgələrində baş verən sel və daşqınların törətdiyi fəsadların aradan qaldırılması istiqamətində atılan addımlar bu siyasətin növbəti əyani sübutudur. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə sel və daşqınların təhlükəli təsirlərinə qarşı mübarizə və fəsadların aradan qaldırılması üçün ayrılan vəsait dövlət başçısının vətəndaşın probleminə nə qədər həssas və operativ yanaşdığını göstərir.

Təbii fəlakət baş verdiyi andan etibarən dövlətin bütün strukturları səfərbər olunub, zərərçəkmiş əhalinin ehtiyaclarının qarşılanması üçün dərhal hərəkətə keçilib. Prezidentin imzaladığı sərəncam təkcə hüquqi sənəd deyil, həm də minlərlə vətəndaş üçün gələcəyə ümid deməkdir. Bu addım göstərir ki, dövlət üçün prioritet məsələ vətəndaşın sosial rifahının qorunması və onun normal həyata qaytarılmasıdır.

Dünya təcrübəsinə nəzər salsaq, inkişaf etmiş bir çox ölkədə belə təbii fəlakətlərdən sonra yardımın vətəndaşa çatması aylar, bəzən illər çəkir. Bürokratik əngəllər, sığorta şirkətləri ilə yaşanan mübahisələr vəsaitin ayrılmasını ləngidir. Azərbaycanda isə fərqli bir idarəçilik modeli tətbiq olunur. Prezidentin birbaşa nəzarəti və operativ qərarları sayəsində vəsait dərhal ayrılır, komissiyalar yerlərdə işləyir və bərpa prosesi gecikmədən başlayır. Bu, Azərbaycanın dövlət idarəçiliyindəki səmərəliliyin və "vətəndaşın yanındayıq" prinsipinin bariz nümunəsidir.

Azərbaycan dövləti bir daha bütün dünyaya və öz vətəndaşına sübut edir ki, heç bir azərbaycanlı təbii fəlakət, çətinlik və ya gözlənilməz hadisə qarşısında tək deyil. Bu həm də xalq-iqtidar birliyinin sarsılmazlığını nümayiş etdirir.

Sərəncam çərçivəsində ayrılan vəsait yalnız cari fəsadların aradan qaldırılmasına xidmət etmir. Burada daha uzaqgörən strateji plan mövcuddur. İqlim dəyişikliyinin yaratdığı yeni çağırışları nəzərə alaraq, gələcəkdə analoji halların təkrarlanmaması üçün ciddi preventiv tədbirlər görülür - çay məcralarının sahillərində müasir mühəndis həlləri ilə möhkəm bəndlərin qurulması; yağış və sel sularının yaşayış məntəqələrinə daxil olmadan kənarlaşdırılması üçün şəbəkələrin yenidən qurulması; təhlükəli ərazilərdə erkən xəbərdarlıq sistemlərinin təkmilləşdirilməsi. Bu yanaşma ölkəmizin ekoloji və infrastruktur dayanıqlılığını artırır. Azərbaycan təkcə bu günün deyil, gələcək nəsillərin də təhlükəsizliyini təmin edən layihələrə imza atır.

# Şeyxülislam Allahşükür Paşazadə Ümumdünya Kilsələr Şurasına etiraz məktubu ünvanlayıb

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Ümumdünya Kilsələr Şurasının (ÜKŞ) baş katibi Jerry Pillaya ÜKŞ-nin 23 aprel tarixli bəyanatına etiraz və ona cavab xarakteri daşıyan məktub ünvanlayıb. AZƏRTAC məktubu təqdim edir:**



"Hörmətli cənab baş katib!

Sizə səmimi salamlarımı çatdırıram. Bu məktubu ünvanlamaqda məqsədim Ümumdünya Kilsələr Şurasının (ÜKŞ) 23 aprel tarixli bəyanatında əks olunmuş bir sıra anti-Azərbaycan iddiaları ilə bağlıdır.

Təəssüf ki, bəyanatda ölkəmizə münasibətdə regionda baş vermiş son hadisələr ciddi şəkildə təhrif olunur və belə yanaşma sərgilənməsi qəbuledilməzdir.

Təmaslarımız zamanı etiraf etmişdiniz ki, erməni kilsələri mütəmadi olaraq sizə təsir etməyə cəhd göstərir. Təəssüf ki, görünür bu cəhdlər öz "bəhrəsini" verməkdədir və ÜKŞ həqiqətə uyğun olmayan və sülh prosesini pozan qızışdırıcı təbliğatın aparılmasında və məsələyə süni şəkildə dini çalarlar gətirmək cəhdlərində alət kimi istifadə olunmaqdadır.

1993-cü ilin 8 fevral tarixində Montrödə ÜKŞ-nin vasitəçiliyi ilə görüşdə ovaxtkı bütün ermənilərin Katolikos-Patriarxı I Vazgen ilə imzaladığımız Birgə Kommünikedə bəyan etmişdik ki, "günahsız qanların tökülməsi ilə nəticələnən bu münaqişəni xristian-müsəlman qarşıdurması kimi qiymətləndirən bəzi cəhdlərə baxmayaraq, bu, dini münaqişə deyil. Xristian ermənilər və müsəlman azərbaycanlılar bundan sonra da sülh, qarşılıqlı hörmət və mehriban qonşuluq şəraitində yaşamalıdırlar". Bu mövqeyimiz o zaman ÜKŞ tərəfindən birmənalı olaraq dəstəklənmişdi.

Şuranın həmin dövrdə nümayiş etdirdiyi mövqe, habelə, qaçqın və köçkünlərimizin məskunlaşdığı yerləri ziyarət etməsi və onlara ayırdığı humanitar yardım erməni təcavüzünə məruz qalmış vətəndaşlarımız və dindarlarımız tərəfindən dərin minnətdarlıq hissi ilə qarşılanmış, sülh və ədalət, dinlərarası dialoq ideyalarına töhfə kimi dəyərləndirilmişdir.

Əfsuslar olsun ki, sizin ÜKŞ-yə rəhbərliyiniz dövründə təşkilatınız erməni kilsəsi ilə bizim aramızda barışığa xidmət edən addımlar atmır.

Məlum olduğu kimi, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi 30 ilə yaxın müddətdə işğal altında qalmış, azərbaycanlılara qarşı kütləvi qırğınlar törədilmiş və bir milyondan artıq soydaşımız öz doğma torpaqlarından zorla didərgin düşmüşdür. BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycana qarşı təcavüzünü qətiyyətlə pisləyən 4 qətnamə qəbul etmiş və erməni silahlı birləşmələrinin dərhal, tamamilə və qeyd-şərtsiz işğal olunmuş ərazilərimizdən çıxarılmasını tələb etmişdir.

2020-ci ildə Azərbaycan beynəlxalq hüquq normalarına, BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının məlum qətnamələrinə əsasən öz əzəli torpaqlarını işğaldan azad etmişdir. 2023-cü ilin sentyabrında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın bir sıra bölgələrində törədilən genişmiqyaslı silahlı təxribata cavab olaraq Azərbaycan, həyata keçirdiyi birgünlük antiterror əməliyyatından sonra öz suverenliyini tam bərpa etmişdir.

Bununla əlaqədar, Azərbaycanın tarixi torpaqlarını erməni ərazisi kimi təqdim etmək beynəlxalq hüququn pozulması və tarixi reallıqlara məhəl qoymamaqdır. Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri 2022-ci ilin oktyabrında Praqa görüşü nəticəsində verilmiş bəyanatda hər iki tərəfin bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdığı vurğulanmış, Ermənistanın Baş naziri Qarabağın Azərbaycanın tərkib hissəsi olmasını rəsmən bildirmişdir. Ötən ilin avqust ayında Vaşinqton Sammiti zamanı Azərbaycanla Ermənistan arasında paraflanmış sülh sazişində birmənalı olaraq hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə hörmət ifadə olunur. Buna baxmayaraq, erməni kilsəsi hər zaman olduğu kimi, Qarabağın Azərbaycanın suveren ərazisi olması faktını qəbul etmir, erməniləri işğalçılıq siyasətinə, aqressiv separatizmə və revanşizmə çağırır, bu da öz növbəsində iki ölkə arasında sülh prosesinə ciddi maneələr yaradır.

Bununla yanaşı, ÜKŞ bəyanatında guya erməni sakinlərin Qarabağdan zorla qovulduğu və onların hüquqlarının tapdalandığı barədə iddialar da tamamilə əsassızdır. Vurğulamaq istərdim ki, 2023-cü il antiterror tədbirlərindən dərhal sonra BMT tərəfindən bölgəyə səfər etmiş missiyalar bu ərazidə dinc əhaliyə, mülki infrastruktura qarşı zorakılığın tətbiq olunmadığını təsdiq etmişlər. Erməni təbliğatının dezinformasiyalarına baxmayaraq, beynəlxalq müşahidəçilərin də təsdiq etdiyi kimi, Azərbaycanın Qarabağ bölgəsində mülki əhaliyə qarşı heç-bir təzyiq və ya zorakılıq göstərilməmiş və onlar bu ərazini könüllü olaraq tərk etmişlər.

Bəyanatda eyni zamanda Azərbaycanın ərazilərində dini və mədəni irsə münasibətdə səsləndirilən iddialar da əsassızdır. Əsrlər boyu Azərbaycanda pravoslav, katolik və yəhudi icmaları da daxil olmaqla, müxtəlif dinlərə məxsus ibadət yerləri və icmalar sərbəst fəaliyyət göstərib. Ölkəmiz öz ərazisində yerləşən bütün dini abidələrin, məscidlərin, kilsələrin və sinaqoqların heç bir fərq qoyulmadan qorunmasını və bərpasını təmin edir. Eyni zamanda Şuşada yerləşən erməni Qazançı kilsəsinin yenicə bərpa edilməsini, habelə bütün münaqişə boyunca Bakıda yerləşən erməni kilsəsinin dövlət tərəfindən mühafizə edilməsini xüsusilə vurğulamaq lazımdır. Bununla yanaşı, işğal dövründə Azərbaycanın məscid və digər dini-mədəni abidələrinin sistemli şəkildə dağıdılması faktlarının beynəlxalq dini qurumlar tərəfindən diqqətə alınmaması da təəssüf doğurur.

Erməni məhbuslarla bağlı iddialara gəldikdə diqqətinizə çatdırmaq istərdik ki, Azərbaycan xoşməramlılıq nümayiş etdirərək, 2020-ci il müharibəsi və 2023-cü il antiterror tədbirlərindən sonra məhbusların böyük əksəriyyətini geri qaytarıb. Hazırda həbsdə olan məhbuslar isə terrorizm, sabotaj və müharibə cinayətləri də daxil olmaqla bir çox ağır cinayətlərə görə barələrində məhkəmə hökmü olan şəxslərdir və onların hüquqi çərçivədə cəzalarını çəkməsi ilahi ədalətin təcəssümüdür.

Təəssüf doğuran haldır ki, bəyanatda bu mühüm məqamlar nəzərə alınmamış, hadisələr yalnız birtərəfli qaydada təqdim edilmişdir. Bu cür yanaşma regionda həssas etimad mühitinə xələl gətirir və sülh prosesinə xidmət etmir.

Ümumdünya Kilsələr Şurası kimi nüfuzlu beynəlxalq dini qurumu regionla bağlı mövqelərini formalaşdırarkən balanslı, obyektiv və təsdiqlənmiş məlumatlara əsaslanmağa çağırırıq. Dini platformaların siyasiləşdirilməsi və selektiv yanaşmalar sülh və barışıq prosesinə töhfə vermir.

Vahid Yaradanın Hökmü ilə din xadimlərinin Haqqa xidmət edərək, humanizm ideyalarına - sülhə, birgəyaşayışa və qarşılıqlı anlaşmaya töhfə verməsi ən savab əməllərdəndir.

Ümid etmək istəyirəm ki, ÜKŞ keçmişdən qalan siyasi təxribatlara uymayaraq, erməni kilsəsinin ixtilafları qızışdırmaq cəhdlərinə ədalətli yanaşma nümayiş etdirəcək, bölgəmizdə davamlı sülhün bərqərar olmasına maneə olan cəhdlərə yol verməyəcəkdir.

Dinlərarası dialoq və qarşılıqlı hörmət prinsiplərinə sadiq qalaraq konstruktiv əməkdaşlığa hazır olduğumuzu bir daha bəyan edirik.

Uca Yaradan yardımçınız olsun!

*Hörmətlə,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ".***

# Polad iradəli qəhrəmanlar

## Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin 27 illik şanlı salnaməsi

**Aprelin 30-u Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış bir gün, düşməni lərzəyə salan, dostların qürur mənbəyi olan Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) yaradılmasının 27-ci ildönümüdür.**



İşğal altında olan torpaqlarımıza ilk qədəm basan, düşmənin illərlə qurduğu istehkamları bir göz qırpımında yerlə yeksan edən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Qarabağ zəfəri ilə adlarını bəşəriyyətin hərb tarixinə əbədi həkk etdilər.

Otuz il boyunca hər bir azərbaycanlının qəlbində bir ümid çırağı kimi yanan vətən həsrəti xüsusi təyinatlılarımızın polad iradəsi, ölümün gözünə dik baxmaları nəticəsində sona çatdı. Qar-boran, sel-su demədən, dərin dərələrə, uca sıldırımlara baxmadan, düşmənin qurduğu tikanlı məftillərə, basdırdığı minalara məhəl qoymadan ildırım sürəti ilə vətənin harayına şığıyan bu "görünməz qəhrəmanlar" Qarabağın incisi Şuşanı yüngül silahlarla, əlbəyaxa döyüşlərlə azad edərək hərb tarixində bənzəri olmayan bir möcüzəyə imza atdılar. Bu igidlərin hər addımı bir dastan, hər zəfəri bir məktəb oldu. Vətən müharibəsinin ilk günündən son saniyəsinə qədər adları gələndə belə düşməni xof içində arxasına baxmadan qaçmağa məcbur edən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri - polad biləkli aslanlarımız təkcə torpaqlarımızı azadlığına qovuşdurmadılar, onlar həm də haqq-ədalətin zəfər çaldığını bütün dünyaya nümayiş etdirdilər.

### Ulu Öndərin xeyir-duası ilə...

Xüsusi Təyinatlı Qüvvələr Ulu Öndər Heydər Əliyevin fərmanı ilə 1999-cu il aprelin 30-da yaradılıb. Azərbaycan Ordusunun ən çevik və yüksək döyüş qabiliyyətinə malik bölmələrindən biri olan XTQ-nin formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri müstəsna rol oynayıb. Bundan başqa, Azərbaycan xüsusi təyinatlıları müxtəlif ölkələrin təlim mərkəzlərində keçirilən kurslarda iştirak edib və dəfələrlə ABŞ, Türkiyə və Pakistandakı yarışlarda yüksək nailiyyətlər qazanıblar.

Xüsusi Təyinatlı Qüvvələrin üzvü seçilmək hüququ hər adama nəsib olmur. Bunun üçün ağır təlimlər, hərbi imtahanlar, iradə nümayişi çox vacib şərtlərdəndir. Həmin qüvvələrin üzvlərinə əlbəyaxa döyüş, dərin kəşfiyyat, düşmən arxasına keçmə, həyatda qalma, mühəndis, atəş, psixoloji, desant, dalğıc, tibbi, asimmetrik döyüş və sair kimi hazırlıqlar üzrə təlimlər keçirilir.

Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin inkişafına hər zaman böyük önəm verib. Onların fəaliyyəti, təchizatı, gündəlik məşqləri mütəmadi nəzarətdədir. XTQ-nin peşəkarlıq səviyyəsinin artırılmasına göstərilən ali səviyyədə diqqətin təzahürüdür ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən fərmanı ilə təməli qoyulan bu yenilməz ordu korpusu, ötən illər ərzində, sözün əsl mənasında, Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün polad qalxanına çevrildi. Birinci Qarabağ müharibəsinin od-alovundan keçmiş təcrübəli zabit və gizirlərin rəhbərliyi ilə formalaşan bu qüvvələr, Türkiyənin elit xüsusi təyinatlılarının zəngin təcrübəsi və dünya standartlarına cavab verən təlimlərlə güclənib müasir dövrün ən qüdrətli döyüşçülərindən oldular.

### Rəşadət zirvəsi

XTQ mənsubları "görünməz qəhrəmanlar" olsalar da, onların peşəkarlığı 2016-cı ilin Aprel döyüşlərində özünü bütün dünyaya nümayiş etdirdi. Düşmənin illərdir qurduğu "keçilməz müdafiə xətti"ni bir göz qırpımında darmadağın edən xüsusi təyinatlılarımız, o zaman həm də böyük qələbənin anonsunu verdilər. 4 günlük Aprel döyüşlərində onlar düşmənin canlı qüvvəsini və texnikasını məhv edərək göstərdilər ki, Azərbaycan döyüşçüsü üçün aşılmaz sədd, alınmaz qala yoxdur.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Xüsusi Təyinatlı Qüvvələrin rəşadətinin zirvəsi oldu. XTQ mənsubları 44 günlük müharibənin bütün əsas həlledici əməliyyatlarında ön sırada idilər. Yenilməz Azərbaycan aslanlarının Şuşanın xilaskarları kimi tarixin yaddaşına həkk etdiyi qəhrəmanlıq isə dünya hərb elminin çərçivələrinə sığmır.

Şuşanın sıldırım qayalarını dırnaqları ilə qazıyaraq dırmaşan, hər qayadan bir qartal kimi boylanan XTQ mümkünsüzü mümkün etdi. Meşələrdən, dərələrdən sızaraq dumanın içindən peyda olan cəngavərlər düşməni yuvasında boğdular. İşğalçı nə baş verdiyini anlamadan qaçmağa başladı. Azərbaycan döyüşçülərinin "Vətən, sənə canım fəda!" sədası sıldırım qayalarda əks-səda verdi və bu nida bir millətin 30 illik torpaq həsrətinə son qoydu.

Ağır texnikanın keçə bilmədiyi yolları öz sinələri ilə açan bu igidlər tankın qarşısına atılaraq, topa qarşı sarsılmaz inamla döyüşərək Şuşanın dar küçələrində əlbəyaxa döyüşün şərəfli dastanını yazdılar.

### Ali Baş Komandan: "Xüsusi təyinatlıların Vətən müharibəsindəki Qələbəmizdə çox böyük payı var"

Xüsusi Təyinatlı Qüvvələrimizin bu misilsiz qəhrəmanlığı, göstərdikləri hərbi möcüzələr dövlətimizin rəhbərinin də daim diqqət mərkəzindədir. XTQ-nin hər bir uğurunu, hər bir fədakarlığını yüksək qiymətləndirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu igidlərin döyüş meydanındakı rolunu hər zaman xüsusi qürurla vurğulayır.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə 2022-ci il aprelin 30-da Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində olduğu zaman xüsusi təyinatlıların dünya hərb tarixinə dərslik kimi düşən fəaliyyətlərini və onların sarsılmaz iradəsini belə ifadə edib: "Xüsusi təyinatlıların Vətən müharibəsindəki Qələbəmizdə çox böyük payı var. Mən Ali Baş Komandan kimi bunu bilirəm, bu barədə Azərbaycan ictimaiyyətinə də öz sözlərimi demişəm... ...Bizim bütün əsas həlledici əməliyyatlarımızda xüsusi təyinatlılar ön sırada idilər. Digər hərbi birləşmələr ilə birlikdə şəhər və kəndlərimizi azad edən xüsusi təyinatlıların rolunu mən xüsusilə vurğulamaq istəyirəm. Uğurlu əməliyyatlardan sonra yolumuz Şuşaya açıldı... ... Bizim aslanlarımız, igidlərimiz olmayan yerdə yol açdılar, öz əlləri ilə, öz ayaqları ilə, öz sinələri ilə".

Müzəffər Ali Baş Komandan vurğulamışdı ki, bu gün Şuşaya gələn hər bir insan, sadəcə olaraq, məəttəl qalır - bu alınmaz qalanı Azərbaycan övladları necə aldılar: "Zəfər yolu ilə Şuşaya yaxınlaşarkən o sıldırım qayaları görəndə hər dəfə mənim gözlərimin önünə siz gəlirsiniz. Bu alınmaz qala necə alındı - yüngül silahlarla, şəhər döyüşlərində, əlbəyaxa döyüşlərdə. Qarşıda, yuxarıda, dağın başında təpədən-dırnağa qədər silahla, topla, tankla silahlanmış ermənilər sizin qarşınızda aciz idilər.

Həm gücünüz, həm iradəniz, peşəkarlığınız və Vətən sevgisi. Siz öz Vətəniniz uğrunda doğma torpaqda vuruşurdunuz".

Bəli, Şuşanın sıldırım qayalarına dırmaşaraq, əlbəyaxa döyüşdə tankı-topu olan düşməni diz çökdürən xüsusi təyinatlılarımız Qarabağı azad edərək milli qürurumuzu ucalara qaldırdılar.

Ölkə rəhbərinin xüsusi təyinatlılarımızın keçdiyi şanlı yolu, xüsusilə də Şuşanın azadlığındakı əfsanəvi fəaliyyətlərini göstərən bu fikirləri, əslində, hər bir Azərbaycan əsgərinin döyüş ruhunun göstəricisidir.

Xüsusi Təyinatlı Qüvvələrin mənsubları döyüş tapşırıqlarını uğurla yerinə yetirdiklərinə görə Prezidentin müvafiq sərəncamları ilə "Azərbaycanın Milli Qəhrəmanı", "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adlarına layiq görülüblər, eləcə də müxtəlif orden və medallarla təltif olunublar.

Bu gün Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri dünya müdafiə sənayesinin ən müasir silahları və texnikaları ilə silahlanmış, ABŞ-dən Pakistana qədər ən çətin təlimlərdə təcrübəsini artıran peşəkarlardan ibarət ordu bölməsidir. Onları yenilməz edən isə, sadəcə, müasir texnika, silah-sursat deyil, həm də qəlblərindəki sonsuz Vətən sevgisi və sarsılmaz iradələridir.

27 illik şərəfli yolunuz mübarək, Azərbaycanın polad biləkli aslanları!

Siz azadlıq bayrağımızı uca zirvələrə sancan, xalqımızı qalib edən, bizə bütöv vətən bəxş edən yenilməzlik rəmzimiz və qürur mənbəyimizsiniz.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ağdərə və Xocalının kəndlərinə daha 175 nəfər qayıdıb

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. Aprelin 29-da respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalı rayonunun Badara, Xanabad, Təzəbinə və Xanyurdu kəndlərinə yola salınıb.**






Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, köç prosesi çərçivəsində Xocalı rayonunun Xanabad kəndinə 46 nəfərdən ibarət 10 ailə, Badara kəndinə 59 nəfərdən ibarət 16 ailə, Xanyurdu kəndinə 25 nəfər (4 ailə), Seyidbəyli kəndinə 3 nəfər (1 ailə), Şuşakəndə 5 nəfər (1 ailə), Təzəbinə kəndinə 15 nəfər (3 ailə), Ağdərə rayonunun Aşağı Oratağ kəndinə isə 22 nəfərdən ibarət 6 ailə qayıdıb.

Ümumilikdə 175 nəfərdən ibarət 41 ailəyə Xocalıda yeni mənzillərinin açarları təqdim olunub. Tədbirdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.







Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov sakinləri doğma torpaqlara qayıdış münasibətilə təbrik edərək, bölgədə aparılan genişmiqyaslı quruculuq, abadlıq və bərpa işləri barədə məlumat verib. Köçürülən sakinlər üçün bütün zəruri sosial infrastrukturun yaradıldığını, onların rahat yaşayışı üçün şəraitin təmin edildiyini bildirib.

Mərasimdən sonra ailələr sevinc hissi ilə yeni evlərində yerləşiblər.

# ANAMA maarifləndirmə tədbirlərini davam etdirir

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən növbəti silsilə tədbirlər Ağdam, Ağcabədi, Xocavənd və Goranboy rayonları ərazilərində təşkil olunub.**

Bu barədə AZƏRTAC-a ANAMA-dan məlumat verilib.

Bildirilib ki, maarifləndirmə tədbirlərində ANAMA, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyi, yerli icra hakimiyyəti strukturlarının rəsmiləri, habelə vətəndaşlar, müxtəlif sahələrdə çalışan işçilər və işəgötürənlər iştirak ediblər.

Keçirilən tədbirlərin əsas məqsədi işğaldan azad edilmiş və riskli ərazilərdə fəaliyyət göstərən və məskunlaşan vətəndaşların partlayıcı sursatların yaratdığı təhlükələr barədə məlumatlandırılması, təhlükəsiz davranış qaydaları, konservasiya edilərək çəpərlənmiş ərazilərin mahiyyəti, xəbərdaredici nişanların əhəmiyyəti barədə biliklərin artırılmasından ibarətdir.

Görüşlər zamanı bildirilib ki, çəpərlənmiş və ya xəbərdarlıq nişanları ilə işarələnmiş sahələrə daxil olmaq həyati təhlükə yaradır və bu qaydalara ciddi əməl olunmalıdır. Çəpərlənmiş ərazilərə qanunsuz müdaxilələr, təsərrüfat fəaliyyətinin davam etdirilməsi və ya baryerlərin sökülməsi təkcə dövlət qurumlarının işinə maneə deyil, həm də insan həyatı üçün birbaşa riskdir.

Qeyd edək ki, maarifləndirmə tədbirlərinin keçirilməsi mina hadisələrinin minimuma endirilməsi və təhlükəsiz mühitin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

● Dövlət mükafatına təqdim olunmuş əsərlərin müzakirəsi

# Milli məfkurə və vətənsevərlik ruhunda yazılan "XX əsr Azərbaycan ədəbiyyatı tarixi"

**Azərbaycan ədəbiyyatı nümunələrinin bədii düşüncə meydanına, sınaq müstəvisinə gətirilməsi, təşəkkülü, inkişaf mərhələləri qədim və zəngin ənənələrə malik olduğu qədər də humanitar filoloji fikrimizin, ədəbiyyatşünaslıq elmimizin aparıcı, fundamental bir qolu olan ədəbiyyat tarixçiliyi də bir o qədər yeni, gənc və perspektivli elmi-tədqiqat sahəsidir.**

Böyük maarifçi Firidun bəy Köçərli 1903-cü ildə Tiflisdə çap etdirdiyi "Azərbaycan türklərinin ədəbiyyatı" adlı kitabçası ilə ədəbiyyat tariximizin bünövrəsini, təməl daşını qoydu. Xüsusilə postcümhuriyyət dövründə yeni nəsil ədəbiyyat tarixçiləri meydana gəldi, elmi prinsiplərə əsaslanan dövrləşmə metodologiyasını, icmal və elmi-tarixi portret janrının meyarlarını müəyyən edərək zamanın çağırışlarına cavab verən kollektiv tədqiqat əsərləri yaradıldı. İftixar hissi ilə onlardan Əmin Abid, İsmayıl Hikmət, Salman Mümtaz, Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Mir Cəlal Paşayev, Mirzağa Quluzadə, Feyzulla Qasımzadə, Məmməd Cəfər Cəfərov, Cəfər Xəndan, Əziz Mirəhmədov, Yaşar Qarayev, Bəkir Nəbiyev, İsa Həbibbəyli və digərlərinin adlarını, ədəbiyyatşünaslıq elmimizə verdikləri misilsiz töhfələrini, müstəsna xidmətlərini qədrşünaslıqla vurğulamaq mümkündür.



Sələflərinin sırasında ləyaqətlə, əzmlə, fədakarlıqla dayanan, onların zəngin filoloji ənənələrini uğurla, peşəkarlıqla davam etdirən, istedadı və zəhməti sayəsində humanitar düşüncəmizə elmi yeniliklər, innovativ ideyalar, baxışlar bəxş etmiş görkəmli ədəbiyyatşünas alimlərimizdən biri də Qarabağ müharibəsinin veteranı, Müdafiə Nazirliyinin ehtiyatda olan kapitanı, Mədəniyyət Nazirliyinin "Qızıl Kəlmə" mükafatı laureatı, Özbəkistan Prezidentinin "Mənəviyyat fədaisi" medalının kavaleri, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədlidir. Onun yeni - 2024-2025-ci illərdə "Qanun" nəşriyyatında nəşr olunmuş üçcildlik "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" adlı fundamental dərsliyi şübhəsiz ki, uzun illərdən bəri, yorulmaq bilmədən apardığı davamlı araşdırmaların uğurlu nəticəsidir.

Professor Bədirxan Əhmədli tutumlu elmi yaradıcılığa "Sabit Rəhmanın satirası" (1998) monoqrafiyası ilə başlamış, şair, ədəbiyyat tarixçisi Əmin Abidin həyat və yaradıcılığı haqqında yazdığı "Bir istiqlal yolçusu" (2003) adlı elmi işi ilə davam etdirmiş, tədqiqatda "istiqlal yolçusu"nun həm də "Dədə Qorqud" eposunun ilk azərbaycanlı araşdırıcısı olduğuna aydınlıq gətirmiş, onun "Azərbaycan türklərinin ədəbiyyat tarixi"nin (1922-1927) elmi-nəzəri istiqamətlərini - yeni metod və konsepsiyalarını ilk dəfə sistemli təhlil edərək dəyərləndirmişdir. B.Əhmədli son illər çap etdirdiyi "XX yüzil Azərbaycan ədəbiyyatı tarixi" (2011, 476 s.), "XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər" (2015, 556 s.), "Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri" (2017, 376 s.) və s. tədqiqatları, respublikanın Dövlət mükafatına təqdim edilmiş üçcildlik "XX əsr Azərbaycan ədəbiyyatı tarixi: icmallar, təhlillər, portretlər" adlı fundamental elmi işinin ali təhsil müəssisələrinin bakalavr və magistr pillələri üçün nəzərdə tutulmuş, təməl, zəmin, hazırlıq mərhələsini özündə ehtiva edir. Mövzuların toxunduğu problemlər, cərəyanlar, axınlar zəngin və rəngarəngdir. Zaman etibarilə dövrün əhatə dairəsi yüzilliyin hüdudlarını aşmaqla mahiyyətində, məzmununda canlı ədəbi-mədəni həyatın, tarixi-sosial mühitin ağrılı, kədərli yükünü daşımaqdadır.

"XX əsr Azərbaycan ədəbiyyatı tarixi"nin birinci cildi XIX əsrin ikinci yarısından başlayaraq postcümhuriyyət dövrünəqədərki ədəbi-mədəni, ictimai-siyasi təbəddülatları bütün yönləri, istiqamətləri ilə dolğun əhatə etmişdir. Birinci kitab üç fəsil və dörd bölümdən ibarətdir. Tədqiqatçı-alim milli hərəkatın mənbə və qaynaqlarına milli şüurun təşəkkülündə M.F.Axundzadənin, H.B.Zərdabinin maarifçilik ideyalarının vüsət almasından başlamış, "Əkinçi", "Kəşkül", "Ziya", "Ziyayi-Qafqaziyyə" və b. mətbuat orqanlarının milli dəyərlərə söykənən missiyasının proqram xarakterli perspektiv planından yeni faktlar əsasında söz açmışdır. XX əsr milli düşüncənin təşəkkülünə güclü təkan vermiş, yeni qüvvələr mətbuatın səlahiyyətindən barınaraq birlik, bütövlük, azadlıq və istiqlal uğrunda mübarizəyə qoşulmuşlar. "Füyuzat" və "Molla Nəsrəddin" ədəbi məktəbləri tədqiqat işində dərindən araşdırılmış, sovet ədəbiyyatşünaslığının eyni xalqın övladlarına məxsus bu iki jurnalı qarşı-qarşıya qoyması tendensiyasından əl çəkilmiş, həm Əli bəy Hüseynzadənin türkçülük məfkurəsi, həm də Cəlil Məmmədquluzadənin xalqçılıq düşüncələri bir millətin inkişafında, yüksəlişində qoşa qanad kimi təqdim edilmişdir. Cümhuriyyətəqədərki dönəmin mətbuat orqanları və onların fəal nümayəndələri haqqında ətraflı bilgi verilməsi tədqiqat əsərinin dolğunluğunun, mükəmməlliyinin göstəricisidir.

Professor Bədirxan Əhmədli ədəbiyyat tarixinin birinci cildində araşdırma prosesində ədəbi cərəyanların təhlilinə və təqdimatına xüsusi önəm vermişdir. O, Azərbaycan romantizmini dünya romantizminin bir qolu hesab etməklə yanaşı, onun özünəməxsus xüsusiyyətlərini vurğulamış, poetik ideyalarında "milli şüur, ictimai və milli azadlıqlar, türkçülük və vətənçilik problemləri"nin yuvalandığını incələyərək qeyd etmişdir. B.Əhmədlinin Azərbaycan romantizminin görkəmli nümayəndələrindən Əli bəy Hüseynzadə, Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Səməd Mənsur, Əbdülxaliq Cənnəti və b. haqqında yazdığı elmi oçerklər yanaşma tərzi, faktoloji yeniliyi, bitkinliyi və mükəmməlliyi ilə diqqəti cəlb edir. Kitabda ədəbi-tənqidi realizm, maarifçi realizm ədəbi cərəyanlarının öncül nümayəndələri də diqqətdən kənarda qalmamış, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.B.Haqverdiyev, Ə.Nəzmi, Ü.Hacıbəyli və b. haqqında yazılmış portret oçerklər elmi yeniliyi, sovet dövrünün dəyərləndirmə prinsiplərindən fərqli, milli düşüncə meyarlarının tələblərinə cavab verən, yüksək nəzəri hazırlığa söykənən estetik zövqlə və şövqlə qələmə alınmışdır.

Professor B.Əhmədlinin ədəbiyyat tarixinin maraqla oxunan fəsillərindən biri də "Cümhuriyyət dövrü Azərbaycan ədəbiyyatı" adlanır. İyirmi üç aylıq cümhuriyyətin ədəbi-bədii materiallarını incələyən tədqiqatçı görkəmli mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın "Vaxtilə sovet ədəbiyyatşünaslığında siyasi lirikanın ən yaxşı nümunəsi hesab edilən-B.Ə.", elmi işlərdə tez-tez istinad olunan "Əlaman" satirasının obyektiv təhlilinə prioritetlik verərək şairin "siyasi hadisələri düzgün dəyərləndirmədiyinə" toxunmuş, mövcud mühitin reallıqlarını qabardaraq şərh vermişdir. Tədqiqatçı N.Vəzirovun cümhuriyyətə mənfi münasibətini tənqid etməklə yanaşı, istiqlal ideyasının gerçəkləşməsi üçün qələmi, poetik sözü ilə mübarizə aparan ziyalılar haqqında yazırdı: "Ə.Cavad, S.Hüseyn, C.Cabbarlı isə bütün varlığı ilə cümhuriyyətə bağlı idi... Ə.Abid, Ümmügülsüm, Əli Yusif, Bədri Seyidzadə və başqaları da istiqlalçılıq duyğuları ilə cümhuriyyətə yaxın gənclər idi".

Dərslikdə dövrün poeziyasından nümunələr təqdim olunaraq təhlil edilmiş, milli dövlətçilik atributları, istiqlal, ordu, əsgər nəğmələri haqqında əsərlərdən parçalar ədəbi-nəzəri təhlil müstəvisində qiymətləndirilmişdir.

Üçcildlik "XX əsr Azərbaycan ədəbiyyatı tarixi"nin ikinci cildi "Proletar hegemoniyası dövrünün ədəbiyyatı" bölümü ilə başlayır. Cümhuriyyətin süqutu, istiqlaliyyətini qazanmış müstəqil Azərbaycan dövlətinin Rusiya bolşevik rejimi tərəfindən işğalı ədəbiyyata, ədəbi mühitə və ictimai-siyasi prosesə təsirsiz ötüşmədi. Müəllifin qanlı sovet diktaturası zamanını qəzəblə, nifrətlə xatırlatması, XX əsrin 20-ci illərini bütövlükdə "Proletar hegemoniyası dövrü" adlandırması təsadüfi deyildir. Məşum 37-ci il repressiyasının, insanlığa qarşı qırmızı terrorun ilk məşqləri 1920-ci il 27 apreldən, ədəbiyyat tarixçiliyimizin atası Firidun bəy Köçərliyə atılan qırmızı gülllədən başladı. 1920-1930-cu illərin ədəbiyyatı o qırmızı güllənin işığında yazılan, qan qoxulu, "göz yaşı içində gülüş"ü təcəssüm etdirən ədəbiyyatdır. Bütün siyasi təzyiqlərə, təpkilərə, zorakılığa, sürgün və qətllərə baxmayaraq ədəbiyyatımız öz içində, bədii düşüncənin alt qatında istiqlal işığını qoruyub saxladı və yaşatdı. Milli ruhlu ədiblərimiz qırmızı istilanı üçrəngli istiqlalla dəyişik salmadı. Hərbi qiyafəli senzorların bədii əsərlərdə, ideomatik ifadələrdə, rəmzi deyimlərdə, müdrik kəlamlarda, tapmacalarda əks-inqilabi düşüncənin, türkçülük və turançılıq məfkurəsinin izlərini zərrəbinlə araması, sərt cəza tədbirləri tətbiq etməsi "Proletar hegemoniyası"ndan başqa bir şey deyildir. 1920-ci illərin ədəbi axınları bu hegemoniyanın caynaqları altında susqunluğunu, lal sükutunu qoruyub saxlayırdı. "Ədəbi mühakimələr" prosesi, "Qızıl qələmlər cəmiyyəti", "Proletar yazıçıları cəmiyyəti" siyasi-inzibati orqan olaraq söz, düşüncə üzərində hökmranlığını, ağalığını saxlamaqla azad yaradıcılıq missiyasının istiqamətini "sifarişli ədəbiyyat" məcrasına yönləndirmiş, gənc ədibləri ağır cəzalandırmaqdan çəkinməmişlər. Almas İldırım türkiyəli şair Faruk Nafizə ithaf etdiyi "Dağlar" qoşmasını 1927-ci ildə "Həyat" və "Yeni Qafqasiya" dərgisində dərc etdirdiyi üçün Bakı Universitetinin Şərqşünaslıq fakültəsindən xaric edilərək Azərbaycandan sürgün olunmuşdur. Əhməd Cavadın 1928-ci ildə İstanbulda nəşr olunan "Yeni Qafqasiya" dərgisində və "İstiqlal uğrunda" məcmuəsində çap edilmiş şeirlərinə görə ifşa kampaniyası keçirilmiş, 1929-cu ilin noyabr ayında "Bak.raboçi", "Kommunist", "İnqilab və mədəniyyət", "Gənc işçi" və digər mətbuat orqanlarının səhifələrində 10-a yaxın məqalədə "Müsavat dalları", "Cavad Axundzadə mart hadisəsini, Müsavat bayrağını mədh edir..." - deyə istiqlal şairini "töhmət"ləndirmişlər.

30-cu illər repressiya dövrünün ədəbiyyatı zəngin arxiv materialları əsasında araşdırılaraq sovet rejiminin işgəncə, terror genelogiyasının qaynaqları, mübhəm səbəbləri və ağır nəticələri haqqında müəllifin elmi qənaətləri sərgilənmişdir. Ədəbi növlər və konkret icmallar üzrə şəkillənən 30-50-ci illərin ədəbiyyatında aparıcı ədəbi qüvvələrin sosrealizmin məhdud, dar məcrasında yaradıcılıq mühitinin mühüm panoramı, polifonik çalarlar, milli özünəməxsusluqlar geniş miqyasda əks olunmuşdur. Professor B.Əhmədli ədəbiyyat tarixçiliyinin ənənəvi hüdudlarından kənara çıxaraq tədqiqat işinə yeni mövzular gətirmiş, "Mühacirət ədəbiyyatı", "Legion ədəbiyyatı mühacirətin bir qolu kimi", "Cənubi Azərbaycan ədəbiyyatı" adlı bölüm və paraqraflar əlavə etmişdir. Bu bölümlərdə mövzunun dərinliyini və xüsusi önəmini qabartmaq üçün "Məhəmməd Əmin Rəsulzadə", "Almas İldırım", "Qurban Səid (Məhəmməd Əsəd bəy) və onun "Əli və Nino" romanı, "Gültəkin (Əmin Abid)" adlı elmi oçerkləri, "İctimai həyat və ədəbi proses", "Poeziya", "Nəsr", "Dramaturgiya" və s. əhatəli və mükəmməl icmallar yeni təfəkkür işığında, siyasi konyunkturasız tələbkar oxucu auditoriyasına təqdim edilmişdir.

Professor Bədirxan Əhmədlinin üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin sonuncu cildi qırxillik bir dövrü - 1960-1990-cı illəri əhatə edir. Tədqiqatın elmi-nəzəri strukturunun təməl biçimi qorunub saxlanılmaqla fəsil, bölmə, paraqraflar üzrə məzmun, mahiyyət, ədəbi proses üfüqi və şaquli yönlərdə hərtərəfli incələnmiş, elmi-nəzəri aspektdə yenilənmişdir. Dövrün aparıcı ədəbi kanonlarından kənara çıxan tədqiqatçı "Assosiativ poeziya və onun imkanları"nı araşdırarkən şairin yaradıcılıq fərdiyyətinin, bənzərsiz deyim tərzinin, milli duyğu və düşüncələrinin önə çəkilməsini vurğulamaqla yanaşı yaradılmış, mövcud süni, siyasi maneələrə də toxunmuşdur: "Mətbuatda dərc olunan şeirlər redaktorlar tərəfindən dil, üslub, fikir "əməliyyat"larına məruz qalırdı. Bu "əməliyyat"ı qəbul etməyən şairlər isə ədəbi prosesdən şüurlu şəkildə imtina edir, şeirlərini çapa vermirdi. Onlardan biri də Vaqif Səmədoğlu idi. Onun 60-cı illərin sonlarında "Yoldan teleqramlar" (1969) adlı kiçik şeirlər kitabı ilə "Mən burdayam, İlahi" (1996) adlı ikinci kitabı arasında böyük bir zaman məsafəsinin səbəblərindən biri də şairin ədəbi prosesdən çəkilməsi olmuşdur. İkinci səbəb isə V.Səmədoğlunun şeirlərinin... mövcud rejimin sənətlə bağlı kriteriyalarına uyğun gəlməməsindən ibarət idi. Anar V.Səmədoğlunun bu cür şeirlərindən... yazırdı: "Sovet rejiminin sərt illərində bu sayaq şeirləri nəinki çap etmək, kimsələrə oxumaq da təhlükəli idi" (A.Ə.T. III c. s.95).

Mövcud ədəbi mühit haqqında gerçək təsəvvür yaratmaq üçün tədqiqatçının təqdim etdiyi istinad bizim ədəbiyyatımızın, dilimizin, düşüncəmizin buxovlandığı, yasaq olunduğu, məhdudiyyətlər qoyulduğu, maneələr törədildiyi bir dövrün ağrılı, təlatümlü mənzərələrini, acı həqiqətlərini tarixin yaddaşında yaşadır və yaşadacaqdır.

Professor Bədirxan Əhmədlinin üçcildlik "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" bir əsrdən artıq zamanı tam əhatə edən, dövlət müstəqilliyimizin bərpasından sonra dərslik sahəsində yaranmış mühüm bir boşluğu, böhranı aradan qaldıran, milli məfkurə, vətənsevərlik, istiqlalçılıq ruhunda yazılan, mənəvi sərvətlərimizin zənginliyini, zamanla səsləşməsini və yüksək dəyərini nişan verən, gələcək nəsillərə çağırışları ilə çağdaşlıq əyarını yüksəldən monumental elmi-tədqiqat əsəridir. O səbəbdən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin ali təhsilin bakalavr və magistr pillələri üçün dərslik olaraq təsdiq etdiyi üççildlik "XX əsr Azərbaycan ədəbiyyatı tarixi" kitabı Nazirlər Kabinetinin müsabiqəsini elan etdiyi Dövlət mükafatına layiqdir.

***Asif RÜSTƏMLİ,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor***




# Bakı WUF13 ərəfəsində

## Vaxt yaxınlaşdıqca beynəlxalq tədbirə hazırlıq işləri sürətlənir



**Bakının evsahibliyi ilə Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) işə başlamasına sayılı günlər qalır. Bir neçə gündən sonra Azərbaycan - onun paytaxtı Bakı yenidən dünyanın diqqət mərkəzində olacaq.**







Tanınmış ekspertlər çox haqlı olaraq yaşadığımız dünyanı narahat edən qlobal problemlərin müzakirəsinə həsr olunmuş tədbirlərin ölkəmizin paytaxtında keçirilməsini Azərbaycanın mühüm beynəlxalq platformalara evsahibliyi etmək imkanlarının artdığının nəticəsi kimi qiymətləndirirlər. Bu baxımdan BMT-nin Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasının ölkəmizdə keçirilməsinə qərar verilməsi Azərbaycanın gündən-günə artan beynəlxalq nüfuzunu, yüksələn rolunu bir daha nümayiş etdirir.





Xəbər verildiyi kimi, bu il yanvarın 15-də Cenevrədə BMT-nin ofisində WUF13-ə həsr olunmuş brifinq keçirilmişdir. Brifinqə 100-ə yaxın akkreditə olunmuş diplomatik missiyanın nümayəndələri qatılmışlar. Brifinq WUF13-ün əsas məqsədi və məramlarını təqdim və diplomatik dəstəyi təşviq etmək, Azərbaycanın qlobal şəhərsalma gündəmlərini irəli aparmaq üçün əhəmiyyətli platforma rolunu oynamışdır.

5 gün dünyanın diqqətini özünə çəkəcək WUF13-ün yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə zəruri hazırlıq tədbirləri görülür. Azərbaycan Prezidentinin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinin rəhbərliyi altında hazırlıq işləri ardıcıllıqla və yüksək səviyyədə icra olunur.

Sessiyanın keçiriləcəyi günlərdə simsiz cihazların fasiləsiz işini təmin etmək üçün "Radiospektrin İdarə Edilməsi Portalı" istifadəyə verilib. Tədbir zamanı istifadə olunacaq radioelektron avadanlıqların və tezliklərin koordinasiyası bu portal vasitəsilə nizamlanacaq. Portal vasitəsilə sessiyada istifadə olunacaq müxtəlif tezliklərdə çalışan bütün radioavadanlıqlar qeydiyyatdan keçiriləcək, müvafiq tezlik resursları ayrılacaq və avadanlıqlar etiketlənəcək. Xatırladaq ki, oxşar yanaşma 2024-cü ildə Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı da tətbiq olunmuşdu.

Sessiya yalnız Bakını deyil, ölkəmizin digər regionlarını da (Gəncə, Xankəndi, Sumqayıt, Quba) əhatə edəcək. Tədbirin davam etdiyi günlərdə maarifləndirmə məqsədilə məlumatlandırma festivallarının keçirilməsi də nəzərdə tutulub. Həmçinin forum çərçivəsində nazirlər toplantısı, tematik dialoqlar və xüsusi sessiyalar vasitəsilə qlobal mənzil böhranı və dayanıqlı şəhərsalma məsələləri müzakirə olunacaq.

Onu da qeyd edək ki, son illər Azərbaycanda başqa sahələrlə yanaşı, şəhərsalma sahəsində də bir çox diqqətçəkən yenilik olub. BMT ilə birgə müvafiq layihələr həyata keçirilib və gözlənildiyi kimi, uğurlar əldə olunub. Bu cür layihələrin icrası indi də davam edir. Azərbaycan son illər həyata keçirilən müasir infrastruktur layihələri, xüsusən işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında reallaşdırılan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları ilə beynəlxalq aləmin diqqət mərkəzinə gəlib. Bu layihələr WUF13-də dayanıqlı inkişaf və innovativ şəhər idarəetməsi baxımından nümunə kimi təqdim olunmağa layiqdir.

BMT-nin Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasının keçirilməsinin mühüm tarixi əhəmiyyəti də qeyd edilməlidir. Sessiyada şəhər inkişafı sahəsində qabaqcıl təcrübələrin, innovativ yanaşmaların və onların əməli şəkildə həlli yollarının beynəlxalq səviyyədə təqdim olunmasına əlverişli şərait yaradılacaq. Ən başlıcası isə odur ki, iştirakçılar şəhərsalma sahəsində bilik və təcrübə mübadiləsi aparacaq, qarşılıqlı əməkdaşlıq quracaq, zəngin təcrübə qazanacaqlar. Bütün bunlar isə şəhərsalmanın gələcəyinə böyük töhfələr verəcək, yeniliklərə qapı açacaq.

Ölkəmizdə keçirilən həm yerli, həm də beynəlxalq tədbirlərdə Azərbaycan könüllüləri fəal şəkildə iştirak edirlər. 1-ci Avropa və İslam Həmrəyliyi oyunlarını, eləcə də COP29-u xatırlatmaq kifayətdir. Şübhəsiz ki, WUF13-də də könüllülər fəal iştirak edəcəklər. Onlar xarici və yerli qonaqların qarşılanması, məlumatlandırılması və aidiyyəti üzrə istiqamətləndirilməsi prosesində təşkilatçılara yardımçı olacaqlar.

İştirakçılar və qonaqlar sessiyanın davam etdiyi günlərdə Azərbaycanın iqtisadi imkanları, investisiya mühiti və inkişaf strategiyası ilə yaxından tanış olmaq imkanı da qazanacaqlar. Təbii ki, bu da qarşıdakı illərdə ölkəmizə yeni investisiyaların cəlb olunmasına və turizmin inkişafına böyük töhfələr verəcək.

WUF13 Bakı Olimpiya Stadionunda keçiriləcək. Tədbirin başlanmasına sayılı günlərin qalması stadionda hazırlıq işlərini xeyli sürətləndirib. Görülən işlərin kəmiyyət və keyfiyyəti bu məkana qədəm qoyan kimi hiss olunur. Artıq indidən demək olar ki, Azərbaycanın evsahibliyi ilə keçiriləcək bu qlobal beynəlxalq tədbir də öz standartları ilə mümkün olacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# *WUF13-dən gözləntilər:* müasir çağırışlar və yeni yanaşmalar

**"Müasir dünyada əhalinin artımı və urbanizasiya prosesləri ilə əlaqədar şəhərlər zaman keçdikcə böyüyür və müxtəlif istiqamətli problemlər meydana çıxır. Bu problemlərin həlli üçün isə yeni yanaşma tərzi lazımdır. Şəhər əhalisinin rahatlığını təmin etmək üçün şəhərsalmada yeni arxitekturanın və süni intellektin tətbiqi, ekoloji tarazlığın qorunması vacib məsələlərdir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Özbəkistanın Energetika Nazirliyinin Ekoloji diplomatiya və yaşıl iqtisadiyyat şöbəsinin mütəxəssisi Furkat Kurbonov deyib. O bildirib ki, "müasir şəhərlərdə yaşıllıqların artırılması, sakinlərin enerji təminatı, məişət tullantılarının səmərəli istifadəsi mühüm məsələlərdir. Hazırda dünyada "ağıllı şəhər", "ağıllı kənd" layihələri həyata keçirilir. Bu layihələrdə əhalinin ekoloji cəhətdən təmiz enerji və təmiz su ilə təminatı əsas götürülür. Azərbaycanda Qarabağın bərpası da məhz bu prinsiplər əsasında həyata keçirilir ki, bu da insanların ekoloji təmiz məkanda yaşamalarını təmin edir.

Mütəxəssis qeyd edib ki, Azərbaycanın qlobal xarakter daşıyan beynəlxalq tədbirlərin keçirilməsi üçün kifayət qədər təcrübəsi var və WUF13-ün də uğurla keçiriləcəyinə şübhə yoxdur. Tədbirin əsas təşkilatçısı olan BMT-nin İnsan Məskənləri Proqramı (UN-Habitat) tərəfindən keçirilən bu forum şəhərsalma, davamlı şəhər inkişafı, iqlim dəyişikliklərinin şəhərlərə təsiri, sosial inklüzivlik və dayanıqlı infrastruktur kimi qlobal əhəmiyyətli mövzuların müzakirə olunduğu ən nüfuzlu beynəlxalq platformalardan biri hesab edilir. Bu baxımdan belə bir tədbirin Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq gündəmdə artan rolunun göstəricisidir. WUF13 çərçivəsində müxtəlif ölkələrin nümayəndə heyətlərinin, beynəlxalq maliyyə institutlarının və transmilli şirkətlərin Azərbaycana səfəri diplomatik və iqtisadi əlaqələrin genişlənməsi üçün yeni imkanlar yaradır. Forum çərçivəsində keçiriləcək panel müzakirələri, ikitərəfli görüşlər və əməkdaşlıq platformaları vasitəsilə müxtəlif ölkələr arasında yeni tərəfdaşlıq əlaqələrinin qurulması mümkündür".

"Bakıda keçiriləcək WUF13-dən gözləntilər çoxdur və mütəxəssislər, yeni nəsil arxitektorlar təkliflər və yanaşma metodları irəli sürəcəklər ki, bunların da tətbiqi gələcək şəhərlərdə insanların rahatlığını təmin edəcək", - deyə mütəxəssis əlavə edib.

# REGİONLAR

## Astarada növbəti tibbi aksiyadan 200 nəfər yararlanıb

**Astarada rayon icra hakimiyyətinin təşkilatçılığı və Milli Oftalmologiya Mərkəzinin təşəbbüsü ilə Zərifə xanım Əliyevanın doğum günü münasibətilə növbəti xeyriyyə aksiyası keçirilib.**



Aksiya çərçivəsində mərkəzin səyyar klinikasında 200 nəfərdən artıq şəhid və aztəminatlı ailə üzvləri, qazilər, müharibə iştirakçıları müayinə edilib, müalicələr təyin olunub.

Müayinəyə gələn sakinlər göstərilən xidmətdən razılığını ifadə edib, belə xeyriyyə aksiyalarının keçirilməsinə görə minnətdarlıqlarını bildiriblər.

*"Azərbaycan"*

## Masallıda əmək yarmarkası: 200 işaxtaran, 104 vakant

**Masallıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin Lənkəran-Astara Regional Məşğulluq filialı tərəfindən növbəti əmək yarmarkası keçirilib.**



Əmək yarmarkasında müxtəlif fəaliyyət sahələrini təmsil edən 15 işəgötürən iştirak edib və ümumilikdə 104 vakant iş yeri təqdim olunub. Təklif edilən vakansiyalar xidmət, ticarət, istehsalat, tikinti və digər sahələri əhatə edib.

Yarmarkaya 200-ə yaxın işsiz və işaxtaran vətəndaş qatılıb. İştirakçılar arasında Vətən müharibəsi iştirakçıları, qazilər, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər, eləcə də ali və orta ixtisas təhsilli gənc məzunlar olub. Bu kateqoriyalardan olan şəxslərin məşğulluğunun təmin edilməsi tədbirin əsas prioritet istiqamətlərindən biri olub.

Tədbir çərçivəsində işəgötürənlər tərəfindən vakansiyalar barədə ətraflı məlumat verilib, işaxtaranlarla ilkin müsahibələr aparılıb. Müraciət edən şəxslərin CV-ləri qəbul edilərək qeydiyyata alınıb, ixtisas və bacarıqlarına uyğun gələn namizədlər növbəti seçim mərhələsinə dəvət olunublar. Bununla yanaşı, iştirakçılara məşğulluq imkanları, aktiv məşğulluq tədbirləri, peşə hazırlığı kursları və özünüməşğulluq proqramları barədə də məlumatlar təqdim edilib, onlara karyera istiqamətinin müəyyənləşdirilməsi ilə bağlı tövsiyələr verilib.

Bu cür əmək yarmarkalarının keçirilməsi regionda əmək bazarının inkişafına, işsizliyin azaldılmasına və işəgötürənlərlə işaxtaranlar arasında birbaşa əlaqələrin qurulmasına kömək edir.

*Seyran CAVADOV, "Azərbaycan"*

## Şəmkirdə elektrik təsərrüfatı yenilənir

**Müxtəlif sahələri əhatə edən və rayonun sosial-iqtisadi inkişafı üçün nəzərdə tutulan istiqamətlərdən biri də elektrik təsərrüfatının yenilənməsidir. Şəmkir rayonunda bu xidmət sahəsinin müasir tələblərə tam cavab verəcək səviyyədə olması üçün ardıcıl tədbirlər görülür.**

Son illər rayon üzrə həyata keçirilən infrastruktur layihələri, o cümlədən enerji təminatı sahəsində görülən işlər bu sahədə vəziyyəti xeyli yaxşılaşdırıb. Xüsusən elektrik təsərrüfatının yenilənməsi istiqamətində atılan addımlar texniki modernləşməni təmin edib. Həyata keçirilən layihələr çərçivəsində rayonun Yuxarı Seyfəli, Yeni Həyat, Atabəy, Hacallar, Yeni Göyçə, Günəşli, Yuxarı Çaykənd, Aşağı Çaykənd, Varlı Həyat, Qaraqoyunlu, Dağ Cəyir, Qaracəmirli, Qapanlı, Mahmudlu, İrmaşlı, Bayramlı, Ələsgərli, Nərimanlı və Yeni Yol kəndlərində köhnə və istismar müddətini başa vurmuş açıq tipli naqillər müasir və təhlükəsiz SİP kabellərlə əvəzlənib. Bu dəyişikliklər elektrik xətlərində itkilərin azalmasına, qəzaların və texniki nasazlıqların minimuma endirilməsinə səbəb olub. Bununla yanaşı, həmin yaşayış məntəqələrində müasir tipli transformatorların quraşdırılması enerji paylanmasının daha səmərəli təşkilinə şərait yaradıb. Yeni transformatorlar elektrik enerjisinin sabit ötürülməsini təmin etməklə yanaşı, şəbəkənin yüklənməsinin qarşısını alır və pik saatlarda yaranan problemlərin aradan qaldırılmasına imkan verir.

Qeyd edək ki, son 5 ildə rayonun elektrik şəbəkəsi üzrə 52036 metr müxtəlif markalı naqillər çəkilib, 322 transformator cari təmir edilib, 189 transformator yenilənib. Bundan başqa, rayon ərazisində 51750 metr uzunluğunda SİP kabel xətti çəkilib.

Hazırda rayonda elektrik təsərrüfatının yenilənməsi istiqamətində həyata keçirilən tədbirlər davam edir. Görülən işlər rayonun müasir inkişaf konsepsiyasına uyğun planlı və sistemli şəkildə icra olunur. Bu işlər yalnız texniki yenilənmə ilə məhdudlaşmır, eyni zamanda yaşayış məntəqələrinin estetik görünüşünün yaxşılaşmasına və şəhərsalma prinsiplərinə uyğunlaşmasına xidmət edir. Ən nəhayət, həyata keçirilən bütün bu tədbirlər nəticəsində rayonda 50 minə yaxın abonent keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunur.

*Sabir ƏLİYEV, "Azərbaycan"*



## Sumqayıtda qaz infrastrukturu müasir standartlara uyğunlaşdırılır

**Layihə çərçivəsində təhlükəsizliyin artırılması və dayanıqlı qaz təchizatının təmin olunması üçün köhnə xətlər yenilənir.**

Aparılan işlər zamanı qaz xətlərinin yerləşdiyi ərazilərdə, o cümlədən nəqliyyat vasitələrinin hərəkət etdiyi yol hissələrində zəruri qazıntı işləri aparıldığından müəyyən müddət ərzində yol infrastrukturunda məhdudiyyətlər yaranmışdır. Hazırda layihə üzrə əsas texniki işlərin böyük hissəsi artıq yekunlaşdığı üçün nəqliyyatın və piyadaların hərəkətinin bərpası istiqamətində növbəti mərhələyə start verilmişdir. Belə ki, şəhər icra hakimiyyətinin tapşırığına əsasən, qazıntı aparılmış ərazilərdə asfalt örtüyünün bərpası işlərinə başlanılmışdır. Yaxın müddət ərzində Heydər Əliyev prospektində nəqliyyat vasitələrinin hərəkəti tam bərpa olunacaq, sakinlərin gündəlik rahatlığı təmin ediləcək.

Qeyd edək ki, həyata keçirilən bu işlər şəhərin qaz infrastrukturunun yenilənməsi və müasir standartlara uyğunlaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

*A.ƏLİYEV, "Azərbaycan"*

## Bu mövsüm pambıqçılar su sarıdan korluq çəkməyəcəklər

**Salyan rayonunda aqrar bölmənin ənənəvi sahələrindən olan pambıqçılığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu günlər rayon rəhbərliyi pambıq əkin sahələrinə baş çəkib, fermerlərlə görüşüb.**



Görüş zamanı aidiyyəti təşkilatların nümayəndələri pambıq əkini ilə əlaqədar görülmüş hazırlıq işləri barədə məlumat veriblər. Görüşdə sahələrə aqrotexniki qulluq tədbirləri, yeni əkin üsullarının məhsuldarlığa müsbət təsiri, düzgün toxum seçimi, suvarma məsələləri və digər mövzularda fikir mübadiləsi aparılıb. Bildirilib ki, səpin aparılan təsərrüfatda sahələr vaxtında şumlanıb, arata qoyulub, malalanaraq hazır vəziyyətə gətirilib və pambıq istehsalçıları lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin ediliblər.

Yüksək məhsuldarlıq əldə etmək üçün əkin sahələrində aqrotexniki becərmə qaydalarına ardıcıl və düzgün əməl olunması üçün təşkilat rəhbərlərinə göstəriş və tövsiyələr verilib. Bildirilib ki, iqlim dəyişiklikləri, havaların əlverişsiz keçməsi pambıqçılar üçün müəyyən çətinliklər yaratsa da, aqrotexniki tədbirlərlə bu cür müvəqqəti çətinliyin öhdəsindən gəlmək mümkündür. Qeyd edilib ki, bu il su bol olduğu üçün sahələrin suvarılmasında heç bir problem yaşanmayacaq. Deməli, məhsuldarlığın yüksək olacağına ümid var. O da vurğulanıb ki, pambıqçılığın inkişafı istiqamətində dövlət dəstəyi tədbirləri gücləndirildiyindən sahəyə maraq artmışdır. Qalır vaxtdan və yaradılan imkanlardan səmərəli istifadə etmək.

*S.QUBADOĞLU, "Azərbaycan"*

## Təcrübə sözünü deyir

**Yusif Nəsibovun 1969-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirib təyinat aldığı Abşeron rayonunun Bakı Quşçuluq Fabrikində işə başladığı gündən işgüzarlığı, işini dərindən mənimsəməsi çox keçmir ki, müəssisənin rəhbərliyinin diqqətindən yayınmır. O, işlədiyi fabrikdə şöbə rəisi vəzifəsinə irəli çəkilir.**

Bu vəzifədə onun peşəkar xüsusiyyətləri ilə yanaşı, idarəetmə bacarığı da üzə çıxır. Onun müvəqqəti olaraq şöbə rəisi vəzifəsini əvəz etdiyi müddətdə quşlar arasında ölüm faizi və yem itkisi xeyli azalır. Artıq müəssisəyə gələn nümayəndələr birbaşa Yusif Nəsibovun rəhbərlik etdiyi sexə yönləndirilirdi. Bu ərəfədə Y.Nəsibov əsgəri xidmətə çağırılır. O, əsgəri xidmətdən sonra da əvvəlki iş yerinə qayıdır. Rəhbərlik onu kökəltmə sexinə rəis təyin edir. O, burada da yüksək nəticələr qazanır, quşların 45 gün müddətində yetişməsinə nail olur. Çox keçmir ki, bacarığı nəzərə alınaraq onu fabrikin yeni istehsal sahəsinə - yem hazırlanan sexinə rəis təyin edirlər. O, az bir vaxtda istehsalı artırır.

Y.Nəsibov bu dəfə təsərrüfatda əsas aparıcı sahə hesab olunan ana sürüsü sexinə köçürülür. O, bu sahədə də az vaxtda yumurta istehsalının artırılmasına, cücələrin çıxım faizinin 85 faizə çatmasına nail olur.

Həmin dövrdə "Azərquşsənaye" Birliyinin rəhbərliyi tərəfindən ona böyük etimad göstərilərək Qafqaz regionunda ən böyük quşçuluq fabriki hesab olunan Yeni Bakı Broyler Quşçuluq Fabrikinin 2 nömrəli müəssisəsinə direktor təyin edilir. O, bu fabrikdə də qısa müddətdə yüksək nəticələr qazanır. Bu ərəfədə "Azərquşsənaye" Birliyinin rəhbərliyi Nazirlər Soveti və Mərkəzi Komitə qarşısında məsələ qaldıraraq fabrikin təchizat işlərinin bir əldə birləşdirilməsini məqsədəuyğun hesab edir. Nəticədə üç qurum birləşdirilərək Yeni Bakı Broyler Quşçuluq Fabriki yaradılır. Fabrikə Yusif Nəsibov baş direktor təyin edilir. Yeni kompleks yerləşdiyi ərazi bölgüsünə görə üç rayonun (Abşeron, Qaradağ və indiki Binəqədi) əhatəsində yerləşirdi. Bu səbəbdən də istehsal prosesinə lazımsız müdaxilələrin qarşısını almaq üçün fabrikin baş direktor vəzifəsi birbaşa Nazirlər Kabinetinin nomenklaturasına daxil edilir. Bu isə imkan verirdi ki, Y.Nəsibov respublika əhəmiyyətli tədbirlərdə fabrikin problemlərini qaldırsın.

Hələ o vaxtlar da quşçuluq elmtutumlu sahə olduğu üçün elmin və texnikanın son nailiyyətlərinin tətbiq edilməsi günün tələblərindən sayılırdı. Lakin bununla iş bitmirdi. Y.Nəsibov çox yaxşı dərk edirdi ki, hansı məsuliyyəti öz çiyninə götürüb. Odur ki, o, insan amilini, işçilərin sosial qayğılarını həmişə ön plana çəkirdi. Yuxarı orqanları məlumatlandırırdı ki, bu nəhəng istehsalat kompleksində kadr məsələlərini həll etmək üçün ilk növbədə onların sosial problemlərini təmin edə bilən tədbirlər görülməlidir. Bu səbəbdən Pirəkəşkül qəsəbəsində (indiki Müşfiqabad) fabrikin fəhlə və qulluqçuları üçün yaşayış binalarının tikintisi məsələsini qaldırır və buna nail olur. Nazirlər Sovetinin xüsusi sərəncamına əsasən, quşçuluq sahəsində işləyən işçilərə müstəsna hal kimi qeydiyyatla bağlı sərt tələblər şamil edilmir. Nəticədə çox keçmir ki, Pirəkəşkül qəsəbəsində bir neçə yaşayış massivi salınaraq quşçuluq sahəsində işləyən fəhlə və qulluqçuların istifadəsinə verilir.



SSRİ-nin dağılması ilə dövlət müəssisələri də fəaliyyətlərini dayandırmalı olur. Amma Y.Nəsibovun bacarığını nəzərə alıb onu yeni işə dəvət edirlər. "Azərmeşə" İstehsalat Birliyinin aparatında ona yüksək vəzifə təklif olunur. Yusif Nəsibov bu vəzifədən imtina edir və bilidirir ki, onun işi təsərrüfatla məşğul olmaqdır. Belə də edir. O, "Azərmeşə" İB-nin Xırdalan Meşə Meliorasiya Stansiyasının ərazisində meşəbitmə şəraiti olmayan 3 hektar torpaq sahəsində tikinti aparmaq üçün razılıq alır. Əsasən bank kreditləri hesabına həmin ərazidə müasir tələblərə cavab verən quşçuluq istehsal sahəsi yaradır. Özəlləşdiriləndən sonra müəssisədə əlavə sexlər açılır, quşçuluq sahəsində mövcud olan müasir texnologiya burada tətbiq edilir. İstehsal edilən quşçuluq məhsulları ilk növbədə yüksək keyfiyyət göstəriciləri ilə seçilməyə başlayır. Artıq ölkədə quşçuluqla məşğul olan hər bir kəs bilirdi ki, "gümüşü" quş cinsi Y.Nəsibovun məhsuludur. Artıq müəssisədə bu cinsin ana sürüləri də var. Yaşının 80-i haqlamasına baxmayaraq, Y.Nəsibov bu gün də işinin başındadır. Deyir ki, daxili bazarın quş ətinə olan ehtiyacını ödəmək üçün nə qədər səhhəti, təcrübəsi imkan verir, əlindən gələni əsirgəməyəcək.

*Akif ƏLİYEV, "Azərbaycan"*

## Masallının Xırmandalı kəndində Yaradıcılıq Evi fəaliyyət göstərir

**Yaradıcılıq evi təqaüddə olan mədəniyyət işçisi Əmrəli Yaqubov tərəfindən yaradılıb.**

Mədəniyyət ocağı bir neçə bölmədən ibarətdir və əsl muzeyi xatırladır. Eksponatlar böyük zəhmətlə toplanmış və bacarıqlı bir əlin zəhməti ilə yüksək zövq və səliqə ilə sərgilənmişdir. Yaradıcılıq Evinə nəinki rayonun ayrı-ayrı kəndlərindən, eləcə də Lənkəran-Astara zonasından ziyarətçilər gəlir və "Xatirələr kitabı"nda öz ürək sözlərini yazırlar.

Burada müxtəlif tarixi dövrləri əhatə edən zəngin eksponat kolleksiyası toplanıb. Uzun illər ərzində toplanmış nümunələr bölgənin qədim tarixini, milli-mədəni dəyərlərini və həyat tərzini əks etdirir.

*"Azərbaycan"*

## Yağmurlu hava Tovuzda kartof əkininə mane olmur

**İri kartofçuluq rayonu olan Tovuzun aran bölgəsində kartof əkini sürətlə davam edir. Dağlıq ərazilərdə isə əkin prosesinə havalar bir qədər mülayimləşdikdən sonra başlanacaqdır. Torpaq mülkiyyətçiləri kartofu həm əllə, həm də texnika vasitəsilə əkirlər. Sahələrdə yerli kartof toxumu ilə yanaşı, Gədəbəydən və Ukraynadan gətirilən toxumlar da əkilir.**

Havaların yağmurlu keçməsi səpini ləngitmir. Kartof əkini əsasən Qovlar şəhərində, Düz Qırıqlı, Əyyublu, Dönük Qırıqlı, Aşağı Quşçu kəndlərində aparılır. Xatırladaq ki, ötən il 4492 hektarda kartof əkən fermerlər hər hektardan 304,55 sentner olmaqla ümumilikdə 136 min 803,1 ton məhsul götürmüşlər.

Təsərrüfat sahibləri əkin zamanı əsasən xarici "Orkestra", "Arizona", "Anna Karaleva", "Silvanna", "Aqriya" və "Aqila", yerli isə "Telman", "Əmiri-600", "Vaqif", "Çənlibel", "Uğur", "Turan" sortlarına üstünlük verirlər. Fermerlərin sözlərinə görə, bu sortlar əkilən sahələrin hər hektarından 50 tondan çox məhsul götürülür.

Uzun illər kartofçuluqla məşğul olan fermer Ədalət Məhərrəmov deyir ki, son vaxtlar yerli sortlarla yanaşı, daha məhsuldar olan xarici sortlara da üstünlük verirlər. "Hazırda "Arizona" sortu əkirik. Bu sort məhsuldar olduğundan hər il sahələrdən bol məhsul götürürük. Toxum əsasən xaricdən gətirilir", - deyə o bildirir.

Rayonda kartof istehsalında bir neçə böyük təsərrüfat var. Onlardan "Tovuz Aqrokompleks" MMC 75, Azər Aqrar Dövlət İstehsalat və Emal Birliyi 94 hektarda kartof əkməyi planlaşdırıb. Fərdi təsərrüfatlardan Mehman İsgəndərov 23, Sakit Hüseynoov 21, Nazilə İmamverdiyeva 14,7, Mətanət Məmmədova 8,4 hektarda kartof əkiblər.



Sonda qeyd edək ki, bu ilin məhsulu üçün rayonda 5 min hektara yaxın kartof əkini proqnozlaşdırılıb. İndiyədək 3280 hektarda kartof əkilib. Tovuz fermerləri cari il 140-160 min ton məhsul götürməyi hədəfləyiblər.

*S.YUNİSOĞLU, "Azərbaycan"*

## Zaqatalalı kümçülərə 450 qutu ipəkqurdu paylanılacaq

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Çindən alınaraq ölkəmizə gətirilən hibrid ipəkqurdu sənaye toxumunun (qrena) 450 qutusu Zaqatala rayonundakı yaş barama qəbulu və qurutma məntəqəsində inkubasiyaya qoyulub. Toxumların inkubasiya müddəti mayın 5-8-də başa çatacaq və əldə olunacaq ipəkqurduları bölgü əsasında rayonun kümçülərinə paylanılacaq.**



Məntəqənin müdiri Faiq Köngülov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, cari mövsümdə barama yetişdirmək üçün 250-dək kümçü ilə müqavilə bağlanılıb. Barama istehsalçıları mövsümə ciddi hazırlaşıblar. İpəkqurdunun yemlənməsi üçün təsərrüfatlarda zəruri şəraiti olan yardımçı tikililər, xüsusi yerlər ayrılaraq dezinfeksiya olunub, rəflər quraşdırılıb.

  

# Mədəniyyət

  

● 2026 "Şəhərsalma və Memarlıq İli"

# Sənətin möcüzəsi

## Mikayıl Hüseynov milli ənənələr zəminində yeni memarlıq üslubunun müəllifidir

**XX əsrdə Azərbaycanda şəhərsalma və memarlıq fəaliyyətinə xüsusi diqqət yetirilmişdir. Milli ənənələrdən yaradıcılıqla istifadə olunmuş, bir sıra şəhərlər yenidən qurulmuş, onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. Bir sözlə, şəhərsalma müasir memarlıqla tarixi irsin vəhdətini yaradaraq əhali üçün rahat və təhlükəsiz yaşayış mühiti qurmağı hədəfləmişdir.**

Bu dövrdə iki görkəmli memarın - Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyəti milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir.

Mikayıl Hüseynov müasir Azərbaycan memarlığının və şəhərsalmasının banilərindən biridir. Onun fəaliyyəti Bakının simasının formalaşmasında və milli memarlıq ənənələrinin modern üslubda sintezində həlledici rol oynamışdır. M.Hüseynov Sadıq Dadaşovla birlikdə Azərbaycanın qədim memarlıq elementlərini klassik sovet memarlığına gətirərək özünəməxsus bir üslub yaratmışdır. O, paytaxtın planlaşdırılmasında, geniş prospektlərin və ansambl xarakterli meydanların layihələndirilməsində yaxından iştirak etmişdir. Onun layihələri fərdi binalar deyil, şəhər mühitini tamamlayan komplekslərdir. Bunlara Elmlər Akademiyasının şəhərciyi, Hökumət evi, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi daxildir. Bu binalar 120 il əvvəl bir bahar günündə Bakıda dünyaya göz açmış və 90 ilə yaxın yaşamış yorulmaz insanın, görkəmli memarın həm də zəngin yaradıcı irsidir. Mikayıl Hüseynov Vətəni Azərbaycan, doğma xalqı üçün həqiqətən böyük işlər görmüşdür. Elə işlər ki, onlardan biz indi də bəhrələnirik.

### Memarlığın akademiki

Mikayıl Hüseynov Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, memarlıq doktoru, professor idi. Əməkdar incəsənət xadimi və SSRİ-nin xalq arxitektoru fəxri adlarına layiq görülmüşdü. SSRİ Dövlət mükafatı laureatı və dəfələrlə SSRİ Nazirlər Sovetinin təltiflərini almışdı. Memarın sinəsini üç "Lenin" və iki "Qırmızı bayraq" ordenləri, çoxlu medallar bəzəyirdi. Yaşadığı dövrün meyarları ilə bunlar çox yüksək adlar və mükafatlar idi.

M.Hüseynov 1985-ci ildə Sosialist Əməyi Qəhrəmanı kimi o dövrün yüksək fəxri adına layiq görülmüşdür. Hüseynqulu xanın nəslindən olan bu memar zəngin ənənələrə malik bir ailədə böyümüşdü. Atası Ələsgər neftçi idi. Yüksək daxili mədəniyyətə malik, qəlbən, ruhən ziyalı bir insan idi. Bu zadəgan nəslinin oğlu inqilabi təlatümlərə dözməyərək 1920-ci ildə vəfat etmişdi, həyat yoldaşı Fatiməni üç uşaqla tək qoymuşdu. Mülklərini və gəmilərini yeni hakimiyyət mənimsəmişdi. Ailənin - anası və iki bacısının qayğısına Mikayıl qalmalı idi. Ona gələcək sənəti ilə bağlı sanki Tanrı vergisi verilmişdi. O, ətraf aləmi dərk etməyə başlayandan rəsm çəkir, kağız üzərində müxtəlif bədii formalar yaradırdı. 15 yaşı olanda o, artıq çertyojçu kimi işləyib pul qazanırdı. Anası oğlunun "iş"lərinə dəstək verirdi.

Mikayıl hələ orta məktəbdə oxuyarkən seçimini etmişdi: memar olacaqdı. O, 1920-ci ildə İncəsənət Məktəbinə, sonra isə Azərbaycan Politexnik İnstitutunun Memarlıq fakültəsinə daxil olmuşdur.

Məktəb yoldaşı Sadıq Dadaşov da bu sənətin yolçusu idi. Seçimlərinin eyniliyi həmyaşıd olan bu gəncləri ömürlük birləşdirir, onlar sədaqətli dost və həmkar olurlar. Hətta ilk dövrlərdə eyni əsəri birlikdə işləyirlər. Sonra onların qohumluq əlaqələri də yaranır. Sadıq Mikayılın bacısı Leyla ilə ailə həyatı qurur. Lakin çox təəssüf ki, Sadıqın həyat yolu tez qırılır. O, 1946-cı ildə dünyasını dəyişir. Mikayıl isə sənət yolları ilə irəliləyərək yüksəkliklərə çatır, zirvə dalınca zirvə fəth edir.

Hələ gənc yaşlarında Sadıq və Mikayıl Şirvanşahlar sarayının dəqiq ölçülərini apararaq kompleksin aydın, görümlü, müasir şəklini yaradırlar. Eyni zamanda dahi Nizaminin abidəsi layihəsinin müsabiqəsində iştirak edib, birlikdə mükafata layiq görülürlər.

Bakıda Hökumət evinin layihəsi ilə bağlı müsabiqə hər iki memarın yaradıcılığında xüsusi mərhələ olur. Moskvada Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan SSR pavilyonu" bu memarların yaradıcılığının nümunəsinə çevrilir. O zaman memarların ikisi də Dövlət mükafatına layiq görülür.

Mikayıl Hüseynovun Azərbaycanda aparılan geniş inşaat işlərinə qoşulması əsasən 1930-cu illərə təsadüf edir. Bu dövrdə o, Bakının müxtəlif rayonlarında tikilmiş bir sıra binaların layihələrini verir və saysız-hesabsız memarlıq əsərlərinin müəllifinə çevrilir. M.Hüseynov həmin dövrdə 250 layihədən az qala 200 bina tikmişdi. Bunların da hamısı həyatda özünü doğrultmuşdu. Bu, misilsiz bir məhsuldarlıq idi. Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi, "Nizami" kinoteatrı, M.F.Axundzadə adına Mərkəzi Kitabxana, bir sıra mehmanxanalar, Elmlər Akademiyasının kompleks şəhərciyi Mikayıl Hüseynovun onilliklər boyu gördüyü işlərin yalnız bir qismidir.

Buraya Bakı Metropoliteninin "Nərimanov" və "Nizami" stansiyalarının memarlıq işləri də daxildir. Onun layihələri əsasında yaradılmış metro stansiyaları bir-birinə bənzəməsə də, milli ənənələrin zərif duyulması və işlədilməsi baxımından vəhdət təşkil edirdi.

### Ustad memarın yaradıcılığında cəlbedici xüsusiyyət nə idi?

Mütəxəssislər bu suala belə cavab veriblər: ilk növbədə memarın əsərlərinə köçmüş yüksək humanizm, insanlara məhəbbət və onları gözəllik aləminə qovuşdurmaq istəyi. Eyni zamanda hərtərəfli dünyagörüşü, texniki vasitələrdən geniş istifadə bacarığı və böyük istedadı. Bütün bunlar onun hər bir əsərinin ətraf mühitlə gözəl ahəng yaratmasına, binanın memarlıq obrazını düzgün tapmasına imkan yaradıb.

Sənətşünaslıq doktoru, Əməkdar memar Kamil Dadaşzadə isə onun əsərləri haqqında belə yazmışdır: "Bu layihələr funksional həllin rasionalizmi, kompozisiya quruluşunun dəqiqliyi və cəlbedici plastikası ilə seçilirdi. Mütərəqqi konsepsiyalara üstünlük verən M.Hüseynov memarlıq layihələrinə realist münasibət bəsləyərək mücərrəd forma yaradıcılığından qaça bilmişdi".

Akademikə Sosialist Əməyi Qəhrəmanı adı verilərkən Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin ona ünvanladığı məktubda fəaliyyəti yüksək qiymətləndirilmişdir. "Sosial bərabərliyi, humanist ideyaları özündə əks etdirən memarlıq əsərləriniz, doğrudan da, mənsub olduğunuz xalqın, eləcə də dünya xalqlarının tikinti mədəniyyətinin zəngin ənənəsi, qabaqcıl təcrübəsi ilə yaxından bağlıdır. Buna görə də insanlara təbii həyat sevinci, xoş duyğular gətirməkdədir. İnsanlar üçün çalışmaq, estetik mənada həyat və məişət tələblərinə, daha yaxşı işləmək və istirahət etmək arzularına funksional cavab verə bilən əsərlər yaratmaq sizin yaradıcılıq amalınız olmuşdur.

Yaradıcılığınız kimi, ictimai fəaliyyətiniz də sizə böyük şöhrət, ad-san gətirmişdir".

Memarın milli irsə əsaslanmağı, onu qabarıq nəzərə çatdırmağı, ilk baxışdan kolorit duyğu oyatmağı ən yaxşı xüsusiyyətləri kimi diqqəti cəlb edir. Bu, onunla əlaqədardır ki, M.Hüseynov hələ gənc yaşlarından qədim maddi-mədəniyyət abidələrimizlə maraqlanmış, məbədlərin, sarayların, qala divarlarının sirlərini öyrənmişdir. Həmin məqsədlə dəfələrlə Qarabağ, Naxçıvan, Bərdə, Şəki, Ordubad və digər yerlərə getmişdir. Bu səfərlər memarın yaradıcılığına müsbət təsir göstərmiş, ona yeni ideyalar, fikirlər vermişdir. Odur ki, yaratdığı ansambllarda qədim Azərbaycan memarlığından gələn nə qədər element var! Müəllif onlardan yerli-yerində yaradıcılıqla istifadə etdiyindən "bina"ları belə əzəmətli və gözəl görünür.

### Sorağı sərhəd tanımırdı

1985-ci ilin yazında Londonda İngiltərə Memarları Kral İnstitutunun təşkil etdiyi "Bakının memarlığı" sərgisində böyük sənətkarın Azərbaycanın paytaxtının müasir görkəminin formalaşmasında və yeni memarlıq məktəbinin yaranmasında rolu xüsusi qeyd edilmişdir. Bu sərgidən sonra İngiltərə memarlarının xahişi ilə Bakının keçmiş "Xalqlar dostluğu sarayı"nın maketi Londonda saxlanılmışdır.



1992-ci ilin iyun ayında görkəmli memar Mikayıl Hüseynov Beynəlxalq Memarlar Akademiyasına (BMA) fəxri üzv seçilmişdir. BMA-nın prezidenti Y.H.Rozanov memarın ünvanına göndərdiyi təbrik məktubunda onu dünya memarlığının görkəmli nümayəndəsi adlandırmışdır.

Mikayıl Hüseynov həm də tədqiqatçı-alim idi. O, Azərbaycan memarlığının dünya mədəniyyətindəki yerini və rolunu müəyyən edib. M.Hüseynov uzun illər Azərbaycan memarlarının yaradıcılıq ittifaqına rəhbərlik edib. Azərbaycan SSR Elmlər Akademiyası Arxitektura və İncəsənət İnstitutunun direktoru olduğu dövrdə onun rəhbərliyi altında bu sahənin neçə-neçə mütəxəssisi püxtələşib. O, iki çağırış SSRİ Ali Sovetinə, dəfələrlə Azərbaycan SSR Ali Sovetinə deputat seçilib.

Unudulmaz memarı tanıyanlar onu sadə, müsahibini dinləməyi və duymağı bacaran, ağıllı məsləhətlər verən bir insan kimi xatırlayırlar. Onun xarakteri ilə sənəti bir-birilə harmoniya təşkil edirdi. İndiyədək bəlkə də bu insanın həyat çətinliklərini heç kəs müfəssəl bilmir. O öz həyatından danışmağı sevmirdi, sovet dövründə bu, proletarəsilli olmayan insan üçün qorxulu nəticələr verirdi.

Bir faktı da qeyd edək ki, keçmiş SSRİ-də memarlıq həmişə siyasətin əsirinə çevrilmişdi. Ona görə 40-cı illərdə Hüseynov formalizmə, 60-cı illərdə bər-bəzəyə, 70-ci illərdə isə yenə də milli ənənələrdən geri çəkilməyə görə tənqid olunmuşdur. O isə heç bir irada və tənqidə fikir vermədən layihələrini işləməkdə davam etmişdi. M.Hüseynovun, əksinə, həmişə düşündüyü məsələ memarlıqda milliliklə bağlı idi. O zaman sovet hakimiyyəti belə bir düstur fikirləşmişdi: "Formaca milli, mahiyyətcə sosialist". Millilik təkcə dekor və ornamentdən ibarət deyil, o həm də həyat tərzi, adət-ənənələrlə bağlıdır. Belə sadə, hətta praqmatik süjetlər memarın yaradıcılığında müxtəlif yollarla əksini tapırdı. Bu illərdə Hüseynov tərəfindən bir-birinin ardınca yeni şedevrlər yaradılmışdır. Nizami muzeyi, "Buzovnaneft"in binası, Neftçilər prospektindəki yaşayış binası, sonuncu şedevr isə M.F.Axundzadə adına kitabxana olmuşdur. Bu dövr bitdikdən sonra M.Hüseynov yenidən tənqidə məruz qalmışdır. Bu isə arzuolunmaz nəticələrə gətirib çıxarmışdır. Elmlər Akademiyasının binası qülləsiz, dekorsuz, karnizlərsiz, gerbsiz qalmışdır. Ustad çaşqınlıq içərisində vurnuxmuş və o, 7 il heç nə tikməmişdir, yalnız abidələr yaratmışdır: S.Vurğun, M.Füzuli, Rudəki, Lenin, K.Marks və s. Daha sonra o, bir-birinin ardınca təmtəraqlı mehmanxanaların layihələrini vermişdir: 1963-cü ildə "Azərbaycan", 1965-ci ildə "Abşeron", 1967-ci ildə "Moskva" və s. 1972-ci ildə o, Bakıda Hökumət evinin arxasındakı əkiz binalarda "penhaus"lar layihələşdirmişdir. Maraqlıdır ki, bu binaların mövzusu onda Nyu Yorkdakı "Əkizlər"lə eyni vaxtda peyda olmuşdur. Görkəmli memar 1985-ci ildə İngiltərə Kraliçası II Yelizavetanın himayəsi altında Böyük Britaniya və İrlandiya Kral Asiya İcmasının fəxri üzvü seçilmişdi.

XIX əsrdə bu adı azərbaycanlı şərqşünas Mirzə Kazım bəy almışdı. XX əsrdə isə həmin ad Londonda keçirilən sərgi zamanı işləri nümayiş etdirilən Mikayıl Hüseynova verilmişdi.

Bütün bunlar bir daha göstərir ki, Mikayıl Hüseynov Bakı şəhərinin şəhərsalma strukturunda həlledici rol oynamışdır. Onun layihələndirdiyi binalar indi də şəhərin memarlıq simasını müəyyən edir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*









● 30 Aprel Beynəlxalq Caz Günüdür

# Sərhəd tanımayan musiqi janrı

**Təqvimdə əlamətdar, yaddaqalan günlərimiz çoxdur. Belə günlərdən biri də 30 Aprel - Beynəlxalq Caz Günüdür və həmin günü caz həvəskarları böyük intizarla gözləyirlər.**



Beynəlxalq Caz Günü 2011-ci ildə UNESCO tərəfindən caz musiqisinin sülh, birlik, əmin-amanlıq, insanlar arasında ünsiyyətin oynadığı rolu xalqların diqqətinə çatdırmaq məqsədilə təsis edilib. Təsis edilib ki, insanlar bir-birləri ilə sıx ünsiyyətdə olsunlar, musiqinin dili ilə danışsınlar.

Ölkəmizdə də həmin gün cazmenlər və caz həvəskarları arasında böyük coşqu ilə qeyd edilir. Bu da səbəbsiz deyil. Çünki dünyada Azərbaycan cazının özünəməxsus yeri var. Bunu ölkəmizdə keçirilən beynəlxalq caz festivallarına olan maraq da təsdiq edir. Söz düşmüşkən qeyd edək ki, Amerika cazı və muğam musiqisi üzərində qurulan Azərbaycan cazının bünövrəsi 30-cu illərin sonunda dünyaca məşhur olan dirijor Niyazi və sevilən bəstəkar Tofiq Quliyevin yaratdığı "Dövlət Cazı" adı ilə tanınan Dövlət Estrada Orkestri tərəfindən qoyulub. Bu məşhur orkestr yarandıqdan sonra ölkəmizdə caz həvəskarlarının da sayı artıb. 1941-1945-ci illərdə və İkinci Dünya müharibəsi başa çatandan sonra "Dövlət cazı"na Rauf Hacıyev rəhbərlik edib.

Zaman keçdikcə Azərbaycan xalq musiqisi və muğamın harmoniyası ilə birləşdirilərək ifa olunan caz musiqi mədəniyyətimizdə özünə layiqli yer tutmuşdur. İstedadlı musiqiçilərimizin məharəti sayəsində caz musiqimiz dünyaya yayılmış, xalqımıza, vətənimizə böyük şöhrət gətirmişdir.

Dünyaca məşhur müğənni və bəstəkar Nina Simone cazı təsvir edərək demişdir: "Caz yalnız musiqi deyil, həyat, var olma, düşüncə tərzidir". Doğrudan da, caz musiqisi sanki həyatımızın, yaşamımızın boyuna biçilib. Caz musiqisi insanın daxili dünyasına asanlıqla yol tapır, onun mənəvi aləmini daha da zənginləşdirir.

Caz musiqisindən söz açarkən ilk olaraq istedadlı pianoçu və bəstəkar Vaqif Mustafazadə yada düşür. Onun keçdiyi yaradıcılıq yoluna nəzər salanda görürük ki, V.Mustafazadənin yaşadığı dövr Azərbaycanda cazın intibah illəridir. Virtuoz ifaçı bütün istedad və bacarığını ortaya qoyaraq muğamla cazın sintezini yaratmışdır. Bununla da dünya şöhrəti qazanmış və sevilmişdir. Təəssüflər olsun ki, böyük sənətkarın ömrü qısa oldu. Daşkənddə konsert zamanı ürəyi dayandı. Ömrü kimi yaradıcılıq planları da yarımçıq qaldı. Amma bu yarımçılığı həyat yoldaşı Elza xanım və qızı Əzizə Mustafazadə doldurdular. Əzizə hələ gənc ikən - 17 yaşında Vaşinqtonda piano müsabiqəsində birincilik qazandı. O, bu gün də valideynlərinin yaradıcılıq yolunu böyük uğurla davam etdirir.

1950-ci illərə qədər Azərbaycan caz ifaçılığında tanınmış simalardan biri də məşhur saksafonçu və cazmen Pərviz Rüstəmbəyov olmuşdu. Yaşadığı dövrdə "Sovet Benni Qudmeni" adlandırılan P.Rüstəmbəyov əvvəlcə "Krasnıy Vostok" , sonralar "Nizami" kinoteatrında caz orkestrini yaratmışdı. Böyük sənətkar gördüyü işləri ilə Azərbaycan cazının inkişafına böyük töhfələr vermişdir.

1970-ci illərdə Azərbaycan cazı sözün həqiqi mənasında özünün tərəqqi dövrünü yaşayırdı. Həmin illərin sonlarında və 80-ci illərin əvvəllərində "Qızıl payız" festivalları, Vaqif Mustafazadənin xatirəsinə həsr olunan festival və digər tədbirlər keçirilirdi. Bu festivallarda yeni ifaçılar, yeni səslər ortaya çıxırdı. Həmin dövrdə "Qaya" ilə yanaşı, "Bakının işıqları", "Biz Bakıdanıq", "Bakı gülür və oxuyur", "Bakı sizinlədir" və başqa caz kollektivləri böyük populyarlıq qazanmışdı.

Cazın inkişafına Bakıda caz klubunun açılması da böyük təkan verdi. 4 oktyabr 1997-ci ildə Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının qarşısında yerləşən "Karvan" Caz Klubu qapılarını musiqisevərlərin üzünə açdı. Bu caz klubu Azərbaycan Yaradıcı Gənclər Birliyinin quruluşçu rejissorlarından biri Müslüm Eldarov tərəfindən yaradılmışdı.

2000-ci illərdə Bakı Beynəlxalq Caz Festivalı və Qəbələ Musiqi Festivalı kimi tədbirlər Azərbaycanda cazın inkişafında yeni dönəmin əsasını qoydu. 2000-ci il mayın 21-də Azərbaycanda caz mədəniyyətinin inkişafı və dəstəklənməsi məqsədilə "Bakı Caz Mərkəzi" yaradıldı.

UNESCO-nun sülhməramlı səfiri, dünyaşöhrətli cazmen pianoçu Hörbi Hənkokun təşəbbüsü ilə təsis olunan Beynəlxalq Caz Günü 2012-ci ildən etibarən dünyanın bir çox ölkəsində müxtəlif tədbirlərlə keçirilir. Ölkəmiz də elə həmin vaxtdan dünya musiqisi və xalqları üçün böyük əhəmiyyət kəsb edən bu tədbirlərə qoşulub. Hörbi Hənkok bu təşəbbüsə cavab olaraq Əməkdar artist, tanınmış pianoçu İsfar Sarabskini 2012-ci ildə ilk caz forumuna dəvət edib.

2015-ci ildə Fransada keçirilən Beynəlxalq Caz Günündə ölkəmizi təmsil edənlərin sayı isə çox olub. İsfar Sarabski ilə birlikdə gənc pianoçu Etibar Əsədli, Əməkdar artist Ruslan Hüseynov, Elvin Bəşirov və Xalq artisti Mircavad Cəfərovun rəhbəri olduğu "Cəngi" folk-estrada qrupu ölkəmizi Parisdə layiqincə təmsil ediblər.

Azərbaycan cazı bu gün gənc ifaçıların istedadı və çalışqanlığı sayəsində daha da inkişaf edir. Beynəlxalq Montre Caz Festivalının qalibi olan İsfar Sarabskinin, həmçinin Rain Sultanov, Salman Qənbərov, Emil Əfrasiyab, Şahin Növrəsli, Salman Qənbərov, Svetlana Məhərrəmova, Səbinə Hacıyeva, Təranə Mahmudova, Seymur Əliyev, Elcan Cəbrayılov, Vasif Hüseyn, Samir Cazzi, Pərviz Məmmədov, Vaqif Əliyev və başqa tanınmış ifaçılar milli caz musiqimizə bir-birindən dəyərli yeniliklər gətirirlər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Səid Rüstəmov adına orkestr WUF13 çərçivəsində konsert verəcək

**Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının (BMT) ən nüfuzlu tədbirlərindən biri - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində Əməkdar kollektiv Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri mayın 21-də Beynəlxalq Muğam Mərkəzində konsert proqramı ilə çıxış edəcək.**




AZƏRTAC xəbər verir ki, konsert Prezident mükafatçısı Mustafa Aşurovun rəhbərliyi ilə keçiriləcək.

Konsert proqramında Azərbaycan milli musiqisinin inciləri, klassik və müasir bəstəkarların əsərləri səsləndiriləcək.

Konsertin əsas özəlliklərindən biri milli musiqi irsimizin beynəlxalq auditoriyaya təqdim olunmasıdır. WUF13 kimi qlobal tədbir çərçivəsində təşkil olunan bu konsert Azərbaycanın zəngin mədəniyyətinin, musiqi ənənələrinin və sənət potensialının dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd edək ki, Ümumdünya Şəhərsalma Forumu şəhərlərin davamlı inkişafı, urbanizasiya və müasir şəhərsalma problemlərinin müzakirə olunduğu ən böyük beynəlxalq platformalardan biridir. Bu mötəbər tədbir çərçivəsində təşkil olunan mədəni proqramlar isə iştirakçılara ev sahibi ölkənin milli irsi ilə yaxından tanış olmaq imkanı yaradır.

BEYNƏLXALQ HƏYAT

# III Çarlzın ABŞ-yə səfəri nə ilə yadda qaldı

**ABŞ Prezidenti Donald Tramp və həyat yoldaşı Melaniya Tramp Ağ Evin bağçasında Böyük Britaniya Kralı III Çarlz və həyat yoldaşı Kraliça Kamillanı ən yüksək səviyyədə protokola riayət etməklə genişmiqyaslı bir mərasimlə qarşılayıblar.**



Mərasimdə Tramp və III Çarlz hərbi hissələri salamladıqdan sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib. Sonra Tramp kürsüyə qalxıb və çıxışında iki ölkə arasındakı tarixi əlaqələri və dərin köklü münasibətləri vurğulayıb. "Sizi burada görməkdən böyük şərəf duyuruq", - deyə Prezident bildirib. Bu il ABŞ-nin müstəqilliyinin 250 illiyinin qeyd olunduğunu qeyd edən Tramp əlavə edib ki, bu, bir az "ironik" görünə bilər, lakin amerikalılar hələ də ingilis kökləri ilə güclü qürur hissi keçirirlər. "Amerikalıların ingilislərdən daha yaxın dostu yoxdur", - deyə Tramp iki ölkə arasındakı əlaqələrin çox güclü olaraq qaldığını vurğulayıb. O, qəbul nitqində mərhum Kraliça II Elizabetə hörmətini bildirib və onu "çox xüsusi bir qadın" adlandırıb.

"Amerikanın qurulması Atlantikanın hər iki tərəfində əsrlər boyu davam edən düşüncə, mübarizə, zəhmət, qan və fədakarlığın kulminasiya nöqtəsi idi. ABŞ müstəqillik qazandıqdan sonrakı əsrlərdə amerikalıların britaniyalılardan daha yaxın dostu olmayıb. Biz ortaq kökləri bölüşürük. Eyni dildə danışırıq. Biz eyni dəyərləri bölüşürük və əsgərlərimiz birlikdə eyni böyük sivilizasiyanı eyni- qırmızı, ağ və mavi rəngli bayraq altında müdafiə edibər. Gəlin daha böyük qətiyyətlə irəliləyək, azadlığa və bütün bəşəriyyətin ortaq hədiyyəsi olan mükəmməllik ənənələrinə müqəddəs xidmətimizi davam etdirək", - deyə D.Tramp əlavə edib. Sözünü yekunlaşdırmazdan əvvəl Tramp zarafatla bildirib ki, onun Şotlandiyaəsilli anası hələ şahzadə ikən Krala aşiq olub.

Qəbuldan sonra Kral və Donald Tramp Ağ Evdə Kraliça Kamilla və Melaniya Trampın da qatıldığı şəxsi görüşdə iştirak ediblər və bundan sonra Kral Konqresə müraciət edib. III Çarlz anası Kraliça II Elizabetin 1991-ci ildə çıxış etməsindən bəri ABŞ Nümayəndələr Palatasında və Senatında nitq söyləyən ilk Britaniya monarxı olub.

O, ABŞ Konqresində çıxışında siyasi zorakılığı pisləyərək qeyd edib ki, "Britaniya xalqının ən dərin hörmətini və dostluğunu ABŞ xalqına ifadə etmək üçün Vaşinqtona gəlib".

"Qətiyyətlə bəyan edirəm: bu cür zorakılıq aktları heç vaxt məqsədinə çatmayacaq", - deyə monarx bildirib və demokratik ölkələrin öz xalqlarını qorumaq üçün çiyin-çiyinə dayanacaqlarına söz verib. Kral Avropa və Yaxın Şərqdəki "dərin qeyri-müəyyənlik dövrü"nə və münaqişələrə toxunaraq, onların bütün dünya üçün çətinliklər yaratdığını vurğulayıb. "Biz dərin qeyri-müəyyənlik -Avropadan Yaxın Şərqə qədər beynəlxalq ictimaiyyət üçün böyük çətinliklər yaradan münaqişələr dövründə qarşılaşırıq və onların nəticələri ölkələrimizin cəmiyyətlərində hiss olunur", - deyə III Çarlz bildirib. "Buna görə də mən ürəkdən inanıram ki, hər iki xalqın mahiyyəti səxavət ruhunda və şəfqəti inkişaf etdirmək, sülhü təşviq etmək, qarşılıqlı anlaşmanı dərinləşdirmək və bütün insanlara hörmət etmək məsuliyyətindədir", - deyə o əlavə edib. Bildirib ki, dünyanın üzləşdiyi çətinliklər "hər hansı bir millətin təkbaşına həll edə bilməyəcəyi qədər böyükdür".

Kral həmçinin deyib ki, Böyük Britaniya və ABŞ xüsusən də təhlükəsizlik sahəsində tərəfdaşlıq inkişaf etdirmək potensialına malikdir. O bildirib ki, Böyük Britaniya üzləşdiyi təhdidlərin müdafiə sisteminin fundamental transformasiyasını tələb etdiyini anlayır və buna görə də müdafiə xərclərini artırır. III Çarlz həmçinin əlavə edib ki, ABŞ və Böyük Britaniya arasındakı tərəfdaşlığın gücü həmişə ortaq düşmənlərə qarşı mübarizə aparmaq və qlobal təhlükəsizliyi təmin etmək üçün istifadə olunub və indi Ukraynanı qorumaq üçün lazımdır.

Ətraf mühitin qorunmasının ehtiraslı tərəfdarı olan Kral təbiətin qorunmasının bütün dünyanın gələcəyi üçün vacib olduğunu vurğulayıb: "Bizi əhatə edən gözəllikdən zövq alarkən, nəslimiz təbiətin harmoniyasından və həyati müxtəlifliyindən daha çox şey təhdid edən həyati əhəmiyyətli təbii sistemlərin məhv edilməsi ilə necə mübarizə aparacağına qərar verməlidir. Biz bu təbii sistemlərin - başqa sözlə, təbiətin öz iqtisadiyyatının - rifahımızın və milli təhlükəsizliyimizin təməlini təşkil etməsi faktını öz təhlükəmizdə nəzərə almırıq".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Aİ rəsmisindən enerji təhlükəsizliyi ilə bağlı xəbərdarlıq

**"Hörmüz boğazının bağlı qalması dünyanın digər bölgələri üçün də təhlükəli ola bilər".**



"Anadolu" Agentliyi xəbər verir ki, bu fikirləri Avropa İttifaqının (Aİ) xarici siyasət rəhbəri Kaya Kallas Bruneydə keçirilən beynəlxalq toplantıda çıxış edərkən deyib.

O, qlobal mühitdə heç bir ölkənin təkbaşına hərəkət edə bilməyəcəyini vurğulayıb: "Yaxın Şərqdə iki aydır davam edən müharibənin diplomatik yolla həllində hələlik irəliləyiş yoxdur. Artan enerji qiymətləri həm Avropaya, həm də Asiyaya mənfi təsir göstərir. Bu səbəbdən dənizlərdə gəmilərin sərbəst hərəkəti mütləq qorunmalıdır".

Kaya Kallas, müharibələrin tezliklə bitməsinin və dünyada sülhün bərqərar olmasının vacibliyini diqqətə çatdırıb.

## ABŞ-də Trampın şəkli olan xüsusi pasportlar hazırlanacaq

**ABŞ Dövlət Departamenti ölkənin yaradılmasının 250-ci ildönümü şərəfinə məhdud sayda xüsusi dizaynlı pasportların çap ediləcəyini təsdiqləyib.**



"Anadolu" Agentliyi xəbər verir ki, qurumun sözçüsü Tommi Piqottun sözlərinə görə, bu yeni pasportların üzərində Prezident Donald Trampın təsviri yer alacaq.

Məlumata görə, cəmi 25 min ədəd çap edilməsi planlaşdırılan bu sənədlərin daxili qapağında Prezident Donald Trampın portreti həkk olunacaq. Bu layihə reallaşarsa, ABŞ tarixində ilk dəfə vəzifəsini icra edən Prezidentin şəkli rəsmi səyahət sənədində əks olunacaq. Xüsusi dizaynlı pasportların ABŞ-nin müstəqilliyinin 250 illiyinin qeyd ediləcəyi iyul ayında dövriyyəyə buraxılması nəzərdə tutulur.

## Qlobal qızıl tələbatında rekord göstərici

**Dünya Qızıl Şurasının hesabatına görə, 2026-cı ilin ilk rübündə qızıla olan qlobal tələbat 2 faiz artaraq 1231 tonla rekord vurub.**



TASS Agentliyi xəbər verir ki, bu rekord artımda əsas rolu sərmayələrini kəskin artıran asiyalı investorlar oynayıb.

Mərkəzi banklar da aktivliyini qoruyub. Belə ki, ilin əvvəlindən Polşa və Özbəkistan başda olmaqla, dünya bankları tərəfindən 244 ton qızıl alınıb. Külçə və sikkə satışındakı 42 faizlik artım investorların bu metala inamını göstərir.

Qiymətlərin bahalaşması zərgərlik sahəsində tələbatı 23 faiz azaltsa da, bu sahəyə xərclənən ümumi vəsait 31 faiz artıb. Eyni zamanda süni intellekt texnologiyalarının inkişafı sənayedə qızıl istifadəsini 82 tona çatdırıb. Qızıl həm etibarlı aktiv, həm də mühüm sənaye xammalı kimi mövqeyini qoruyur.

## BƏƏ-nin OPEC-dən çıxması neft qiymətlərinə təsir göstərəcək

**Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) OPEC-dən çıxır. TASS Agentliyinin məlumatına görə, bunu ölkənin energetika naziri Süheyl Məhəmməd əl-Məzrui açıqlamasında bildirib.**



Nazir qeyd edib ki, hazırda dünya bazarında neft tədarükü tələbatdan aşağıdır. Bu səbəbdən, BƏƏ-nin təşkilatdan çıxması həm qlobal qiymətlərə, həm də tərəfdaş ölkələrə minimal təsir göstərəcək. Bu qərar rəsmi olaraq 2026-cı il mayın 1-dən qüvvəyə minəcək.

Məlumata görə, BƏƏ təşkilatdan ayrılsa da, qlobal yanacaq bazarının sabitləşməsi maraqlarını qoruyub saxlayır. Ölkənin gələcək neft hasilatı siyasəti dünya bazarındakı tələb və təklif balansına uyğun şəkildə tənzimlənəcək.

BƏƏ-nin bu addımı müstəqil enerji strategiyası yürütmək istəyindən irəli gəlir. Mütəxəssislər bu qərarın yaxın gələcəkdə hasilat kvotalarına necə təsir edəcəyini yaxından izləyirlər. Dünya bazarındakı mövcud kəsir səbəbindən bu dəyişiklik kəskin qiymət sıçrayışlarına səbəb olmayacaq.

## Cənubi Çin dənizində gərginlik

**Çin ordusu ABŞ və Filippinin keçirdiyi genişmiqyaslı hərbi təlimlərə cavab olaraq Cənubi Çin dənizində nəzarəti artırıb.**



"Anadolu" Agentliyi xəbər verir ki, rəsmi Pekin bu təlimlərin bölgədəki sabitliyə zərər vurduğunu bildirib və öz ərazi bütövlüyünü qoruyacağını bəyan edib.

Hazırda davam edən ABŞ-Filippin təlimlərinə Fransa, Yaponiya və Avstraliya daxil olmaqla, müxtəlif ölkələrdən 17 min hərbçi qatılıb. Bu vəziyyət dəniz üzərindəki suverenlik mübahisələrini və hərbi rəqabəti daha da gərginləşdirir.

Təbii resurslarla zəngin olan bu bölgə həm də mühüm ticarət yoludur. Bu səbəbdən Filippin, Vyetnam və Malayziya da ərazidə öz maraqlarını qorumağa çalışır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


İdman

## "Prezident Kuboku" beynəlxalq reqatasında yarışlara start verilir

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilən avarçəkmə və kanoe üzrə "Prezident Kuboku-2026" beynəlxalq reqatasında yarışlara bu gün Suqovuşanda start veriləcək.**




AZƏRTAC xəbər verir ki, avarçəkənlər 1 nəfərlik kayak və kanoe qayığı ilə 200 metr məsafəyə yarışlarda qüvvələrini sınayacaqlar. Mübarizə saat 13:00-da start götürəcək. Final mərhələsi saat 14:10-da başlayacaq.

Qeyd edək ki, Azərbaycan Su İdman Növləri Federasiyası ilə Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı əsasında keçirilən "Prezident Kuboku"nda ölkəmizlə yanaşı, Çexiya, Gürcüstan, Almaniya, Yunanıstan, Qazaxıstan, Qırğızıstan, Litva, Moldova, Rumıniya, Serbiya, İsveç, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistandan 100-dən artıq idmançı mübarizə aparacaq. Yarışın son 2 mərhələsi Mingəçevirdə keçiriləcək. Reqataya mayın 1-də yekun vurulacaq.

## Cəfərov qardaşları Şotokan Karate üzrə Dünya Çempionatında yüksək nəticələr göstəriblər

**Aprelin 23-dən 26-dək İstanbulda Şotokan Karate üzrə Dünya Çempionatı (World Shotokan Championship) keçirilib. On yeddi ölkədən idmançıların iştirak etdikləri yarışların mükafatçıları arasında Azərbaycandan olan iki qardaş da var.**

Cavad (13 yaş) və Fərhad (8 yaş) Cəfərovlar beş yaşından karate ilə məşğul olurlar və həmin vaxtdan bir sıra yerli və beynəlxalq yarışlarda iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, qardaşlar İstanbulda keçirilən çempionatda yaxşı nəticələr göstəriblər. Fərhad 25 kq çəki dərəcəsində ardıcıl dörd döyüşün hamısında qalib gələrək qızıl medal qazanıb, Cavad isə üç nəfərlik komandanın tərkibində komanda hesabında gümüş medal qazanıb.

Həmçinin qeyd etmək lazımdır ki, hər bir qardaşın idmandan kənar hobbiləri var: Cavad rəsm çəkməyi sevir, Fərhad isə pianoda ifa edir.

## Belqradda Azərbaycanın təşəbbüsü ilə şahmat pavilyonu açılıb

**Belqradın Taşmaydan parkında Azərbaycanın Serbiyadakı səfirliyinin təşəbbüsü, "AzVirt" şirkətinin maliyyə dəstəyi ilə şahmat pavilyonun açılış mərasimi keçirilib.**

Bu barədə AZƏRTAC-a Azərbaycanın Serbiyadakı səfirliyindən məlumat verilib.

Bildirilib ki, pavilyonun açılışında Serbiyanın İdman Nazirliyinin dövlət katibi Marko Keşel, Serbiya Şahmat Federasiyasının Prezidenti Andriya Yorqiç və səfirlik əməkdaşları iştirak ediblər.

Tədbirdə qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin Taşmaydan parkındakı abidəsinin cəmi bir neçə addımlığında yerləşən bu yerdə şahmat pavilyonunun açılması böyük məmnunluq doğurur. İki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə çatdığı vurğulanıb. Prezident İlham Əliyevin fevral ayında Belqrada rəsmi səfərinin ikitərəfli münasibətlərimizin tarixində mühüm tarixi mərhələ olduğu diqqətə çatdırılıb.

Pavilyonun rəsmi açılışından sonra burada şahmat üzrə blitz turnir keçirilib.


## "BANK RESPUBLİKA" ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!

"Bank Respublika" ASC səhmdarlarının növbəti ümumi yığıncağı 16 iyun 2026-cı il saat 12:00-da, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş ofisində keçiriləcək.

Gündəlikdəki məsələlər:

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. 2025-ci il üçün kənar audit yoxlamasının nəticələri haqqında.
4. "Bank Respublika" ASC-nin investisiya qiymətli kağızlarının emitenti olaraq 2025-ci il üzrə illik hesabatının təsdiq edilməsi haqqında.
5. "Bank Respublika" ASC-nin nizamnamə kapitalının artırılması haqqında.
6. "Bank Respublika" ASC-nin Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi və Nizamnamənin yeni redaksiyada təsdiq edilməsi haqqında.
7. "Bank Respublika" ASC-nin Mükafatlandırma Siyasətinin təsdiq edilməsi haqqında.
8. "Bank Respublika" ASC-nin Müşahidə Şurasının əsasnaməsinin təsdiq edilməsi haqqında.

*"Bank Respublika" ASC*

**Dövlət Sərhəd Xidmətinin Akademiyası tərəfindən Elmar Ramin oğlu Verdizadənin adına verilmiş 02.05.2025-ci il tarixli C № 254808 nömrəli bakalavr diplomunun şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və Rəşad Cəfərli Hüseynbala Mirələmova əzizi

**ŞAHXANIM ŞİRİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi general-polkovnik Vaqif Axundova bacısı

**SƏKİNƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3685**
**Sifariş 539**

**Qiyməti 60 qəpik**